

# HEYDƏR ƏLİYEV:
## DÖVLƏT XALQ ÜÇÜNDÜR



**Mən həyatda yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam.**

# HEYDƏR ƏLİYEV:

# DÖVLƏT XALQ ÜÇÜNDÜR

"Adiloğlu" nəşriyyatı
Bakı 2008

Az
T 53

Redaktor və ön söz müəllifi

**XANLAR VƏLİYEV**

T 53 **HEYDƏR ƏLİYEV: DÖVLƏT XALQ ÜÇÜNDÜR**
(kəlamlar, sitatlar, aforizmlər)
Bakı «Adiloğlu» nəşriyyatı, 2008, 400 səh.

Kitabda ulu öndərimiz Heydər Əliyevin irsi kontekstində siyasi-hüquqi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın aktual problemləri ilə bağlı, eləcə də müdrik dövlət xadimi barəsində görkəmli şəxsiyyətlərin fikirləri öz əksini tapmışdır.

Ümummilli liderimizin ölkəmizin ictimai həyatının müxtəlif sahələri ilə bağlı söylədiyi müdrik fikirlərin toplandığı bu kitab elm və siyasi dövlət xadimləri, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

T $\frac{0801000000}{121\text{-}2008}$ qrifli nəşr

MÜNDƏRİCAT

Ön söz

Dövlətçilik

Konstitusiya, demokratiya, insan hüquqları

Ordu quruculuğu

İqtisadiyyat

Qanunçuluq

Mədəniyyət

Tarix

Mənəvi tərbiyə

Vətənpərvərlik

Dil haqqında

Milli münasibətlər

Görkəmli ziyalılar

Özü haqqında

Görkəmli şəxsiyyətlər Heydər Əliyev haqqında

© Təhməzov Ə., 2008

# ÖN SÖZ

Dünyada insan üçün azadlıqdan, dövlət üçün müstəqillikdən böyük nemət yoxdur. Əgər azad insan müstəqil dövlətdə yaşayırsa, bu, əvəzolunmaz xoşbəxtlikdir. Azərbaycan xalqı üçün Azərbaycanda xoşbəxtliyin belə yüksək zirvəsinin fəthi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Qəhrəmanlığın, hünərin ən möhtəşəmi Vətən naminə edildiyindən, dahi rəhbərimiz Heydər Əliyevin Vətən, xalq yolundakı tarixi xidmətləri vətən və dövlət, millət və xalq naminə göstərilən bütün xidmətlərin fövqündə dayanır.

Vaxtilə böyük filosof Platon demişdir ki, ədalət, müdriklik və güclü hakimiyyətin bir yerdə olacağı gün bəşəriyyət xoşbəxtliyə qovuşacaqdır. Azərbaycan xalqının ümummilli lideri, qüdrətli strateq Heydər Əliyevə tarixdə əbədilik qazandıran ən başlıca amil də məhz onun Azərbaycan miqyasında bu üç dəyəri bir araya gətirməyi bacarmasıdır. Onun tarixi xidmətləri, xilaskarlıq, quruculuq missiyası, dahiliyi, həyata keçirdiyi siyasi, iqtisadi, sosial, mədəni islahatlar haqqında çox yazılıb, hələ bundan sonra da yazılacaqdır. Heydər Əliyev haqqında yazmaq onun müəllifliyi ilə yaradılmış tarixi, cəmiyyətin düşüncə tərzini qələmə almaqdır. İllər ötdükcə ümummilli liderimiz Heydər Əliyevin əzəmətini daha aydın dərk edir, qoyub getdiyi tarixi irsinin, ideyalarının yüksək dəyərlərini dərindən anlayırıq. Heydər Əliyevin həyat dərsləri insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə parlaq nümunədir.

Xalqların taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərə layiq olduqları əsl qiyməti vermək, onların vətən və xalq naminə göstərdiyi misilsiz xidmətləri obyektiv dəyərləndirmək son dərəcə məsuliyyət tələb edən məsələdir. Belə gerçəklik fonunda qələmə alınan ən xoş xatirələr, siyasi, elmi, politoloji fikir və mülahizələr də Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin böyük insan və xarüqəladə şəxsiyyət kimi böyüklüyünün miqyası barədə dolğun təsəvvür yaratmaqda acizdir.

Şərəfli və mənalı ömür yolunun 34 ilini xalqının nicatına həsr etmiş ulu öndərimiz Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququ qazanmışdır. XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan ulu öndərimiz Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Tarixin ən sərt və çətin sınaqlarından keçməklə əxz etdiyi milli dövlətçilik ənənələrini məhz Heydər Əliyevin rəhbərliyi altında vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanmış xalqımız həm də müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarmışdır.

Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, gələcəyini, ölkədə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Çağdaş tariximizdə Azərbaycan dövlətinin özünütəsdiq faktına çevrilmiş bu fenomen lider respublikaya rəhbərliyinin bütün dövrlərində möhkəm təməllərə əsaslanmaqla fundamental dövlətçilik ənənələri formalaşdırmış, milli müstəqillik, azadlıq

məhfumlarını illüziya və şüarçılıq səviyyəsindən milli ideologiya fəlsəfəsinə çevirməyi bacarmışdır.

Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin təkmil ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşdırılması məhz ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev dühasının qüdrəti sayəsində Azərbaycanın demokratik quruculuq və milli inkişaf yolu spesifik yönümdə, onun milli xüsusiyyətləri və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilmişdir. Bu müdrik şəxsiyyətin bütün fəaliyyəti boyunca milli amil aparıcı xətt kimi özünü büruzə verir. Heydər Əliyev siyasi fəlsəfəsinə görə, milli amil ölkənin iqtisadi-siyasi, sosial-psixoloji, mədəni həyatının potensialını hərəkətə gətirən, ona stimul verən təkmil mexanizmdir. Ulu öndərimiz çıxışlarında hər zaman vurğulamışdır ki, müstəqil dövlət quruculuğunun nailiyyətini təmin edən əsas şərtlərdən birincisi məhz mənəvi-siyasi irsin varisliyidir. Bu siyasi irs Azərbaycanda milli dövlətçiliyin dini, siyasi və etnik tolerantlığı imperativ kimi qəbul edən müasir modelini, dünyanın mövcud reallıqları kontekstində intişar tapmış demokratik idarəetmə fəlsəfəsini, mənəvi dəyərlərimizin qorunmasını, cəmiyyətin bütün potensialını milli maraqlar kontekstində səfərbər edilməsini, ictimai-siyasi sabitlik faktoruna istinad edən yeni iqtisadi inkişaf strategiyasını, habelə hakimiyyətlə cəmiyyət arasında daimi həmrəyliyin yaradılmasının elmi əsaslarını konseptual formada özündə əks etdirir.

XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan xalqı da üzləşdiyi faciələri məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında mətinliklə aradan qaldırmış, milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət

ideyasını uğurla gerçəkləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 34 illik hakimiyyətinin ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə və firavan gələcəyə inamını qaytarmağa müvəffəq olan yeganə qüvvə olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində ağır anlar, gərgin məqamlar çox olsa da, 1993-cü ilin iyununda Azərbaycanın düçar olduğu təhlükəli və gərgin vəziyyət onu həyatının bəlkə də ən çətin sınağı ilə üzləşdirmişdi. Ölkədə hakimiyyət böhranı yaranmış, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərcmərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması dərinləşmiş, qanunçuluq və hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Bu sarsıntı və təlatümlər təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaşatmaq kimi ağır tarixi missiyanın öhdəsindən gələ bilər. Azərbaycanın keçdiyi tarixi yola baxış prizmasından alman filosofu İmmanuel Kantın "Sürətlə öz siyasi süqutuna yaxınlaşan xalqın taleyini yalnız dahi şəxs dəyişə bilər" fikri ümumilli liderin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini bir daha təsdiqləyir.

Təsadüfi deyil ki, böyük öndərimizin rəhbərliyi altında hakimiyyət böhranı qısa müddətdə tam aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər zərərsizləşdirildi. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli surətdə hüquqi dövlət qu-

ruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı verdi.

Tarix bir daha sübut etdi ki, yalnız qüdrətli şəxsiyyətlər xalqı öz arxasınca apara, ən mürəkkəb proseslərdən baş çıxarmaq və onu idarə etməklə cəmiyyətin iradəsinə uyğun məcraya yönəldə bilər.

Ümummilli liderimiz Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik dəyərlərin daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşmışdır.

Heydər Əliyev dahi şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və qanuni mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Məhz ulu öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmışdır. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulmuş, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirilmişdir.

İnsan hüquqlarına dair ilk təkmil nəzəriyyənin banisi, böyük fransız mütəfəkkiri Monteskyö «Qanunların ruhu» əsərində haqlı olaraq yazırdı ki, «ədalətlə idarə olunan dövlətdə yaxşı vətəndaş olmaq asandır». Məhz belə bir harmoniya ədalətli cəmiyyət, hüquqi dövlət ideyasını arzulardan həqiqətə çevirir: insanın bir varlıq kimi mövcudluğu, vətəndaş kimi özünütəsdiqi hüquq və azadlıqlarını, vəzifə və borcunu, əxlaq məsuliyyətini dərk etdiyi andan başlayır. Ulu öndərimiz Azərbaycanda dövlət-vətəndaş münasibətlərinin hüquq

müstəvisində qanunla tənzimləndiyi, bütün insani dəyər və azadlıqların maksimum dərəcədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin yaradılması, demokratik ənənələrin ictimai şüurda möhkəmlənməsi uğrunda misilsiz xidmətlər göstərmişdir. Bütöv, kamil şəxsiyyət kimi Heydər Əliyevin ən nəcib mənəvi keyfiyyətlərindən biri də məhz onun siyasi fəaliyyətinin bütün mərhələlərində sosial ədalət, düzgünlük və humanizm prinsiplərinə tapınması, bu mənəvi-əxlaqi meyarların ictimai şüurda möhkəmlənməsinə çalışması olmuşdur. Bu dəyərlərə sadiqlik, ilk növbədə, Heydər Əliyevin yüksək daxili demokratizmindən, hər kəsə örnək ola biləcək vətəndaşlıq məsuliyyətindən qaynaqlanmış, ümummilli liderimiz hər bir fərdin maraq və qanuni mənafeyinin ödənilməsi, hüquqlarının qorunmasını dövlətin fundamental vəzifəsi saymışdır.

«Dövlət yalnız iki halda sarsıla bilər: cinayət cəzasız qalanda və günahsız cəzalandırılanda» - deyən ümummilli liderimiz eyni zamanda ədaləti ədalətsizliklə bərpa etməyin yolverilməzliyini də önə çəkmiş, tutduğu vəzifədən, milli-irqi mənsubiyyətindən, sosial statusundan asılı olmayaraq hər bir insanın qanun qarşısında bərabərliyi prinsipindən çıxış etmişdir.

Böyük öndər ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını da qeyri-mümkün hesab etmiş, bunun üçün ilk növbədə məhkəmə-hüquq sistemində dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasına nail olmuşdur. Yüksək humanizm, şəxsiyyətə inam və hörmət, insanpərvərlik prinsiplərini önə çəkən Heydər Əliyev Avroatlantik məkana inteqrasiya yolunda bəzən cəmiyyətdə birmənalı qəbul edilməyən ziddiyyətli fikirlər doğuran cəsarətli, bəzən də riskli addımlardan belə çəkinməmişdir. Qanunçuluq və hüquq qaydalarının hələ

tam formalaşmadığı bir dövrdə - 1993-cü ildə ölüm cəzasının tətbiqinə moratoriumun qoyulması, 1998-ci ildə Şərqdə ilk dəfə olaraq bu cəzanın ləğv edilməsi, eləcə də Avropa Şurasına üzvlük istiqamətində ardıcıl tədbirlərin keçirilməsi bu gün də böyük öndərin yüksək humanizminin təzahürü kimi diqqətəlayiqdir.

Milli öndərimizin dövlətçiliyimizin qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Ölkəmiz demokratik, hüquqi, dünyəvi dövlət kimi insan hüquqlarının prioritetliyini özünün gələcək inkişaf yolu seçdi. Ulu öndərin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul olunmuş bu ali Qanun ölkəmizdə dövlət quruculuğunun bütün istiqamətlərində islahatlar aparılmasının əsasını qoydu. Konstitusiyada əksini tapmış strateji məqsədlər, ilk növbədə, hüquq islahatları insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zərurətə çevirmişdir. Əsas Qanunda irqindən, cinsindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Ulu öndərin rəhbərliyi ilə həyata keçirilmiş demokratik və hüquqi islahatlar ölkənin hüquq sistemində əsaslı dəyişikliklərin həyata keçirilməsinə şərait yaratmış, dünya təcrübəsi nəzərə alınmaqla bir sıra mühüm qanunlar qəbul olunmuşdur.

Konstitusiyanın qəbulundan sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi sahəsində genişmiqyaslı işlər görülmüş, müstəqil məhkəmə hakimiy-

yətinin formalaşmasının və demokratik prinsiplərə əsaslanan məhkəmələrin yaradılmasının əsası qoyulmuşdur. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə əlverişli zəmin formalaşdırılmışdır. Əsas qanunda təsbit olunmuş bir sıra mühüm müddəalar məhkəmə hakimiyyətinin müstəqilliyinə ciddi təminat yaratmış, bu prinsip önə çəkilməklə sonrakı mərhələdə yeni qanunvericilik aktları qəbul olunmuşdur. Həmin dövrdən ardıcıl surətdə aparılan məhkəmə-hüquq islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər vacib məsələlərin konseptual həlli olmuşdur.

Heydər Əliyevin ədalətli rəhbər imicini səciyyələndirən ən başlıca xüsusiyyətlərdən biri də onun bağışlamağı bacaran, böyük qəlbə malik, humanist və nəcib şəxsiyyət olmasıdır.

Ümummilli liderimiz Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri də onun yürütdüyü siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması olmuşdur.

Xalqımız Azərbaycan dövlətçiliyinin banisi, ulu öndərimiz, dünyanın seçilmiş insanlarından biri olan unudulmaz şəxsiyyət Heydər Əliyevin 85 illiyini qeyd etdi. 11 mart 2008-ci ildə möhtərəm Prezidentimiz İlham

Əliyev ümummilli liderimiz Heydər Əliyevin 85 illik yubileyi haqqında Sərəncam imzalamışdır. Həmin sərəncamda ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı xidmətlərinə xalq və dövlət başçısı səviyyəsində verilən ən yüksək qiymət öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin ulu öndərimiz Heydər Əliyevin 85 illiyi haqqında imzaladığı fərmanda qeyd edilir: «Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra, xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etmişdir. Onun təkidli istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtarmış, qanunçuluğu bərpa etmiş və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş günü kimi yazmışdır».

Azərbaycan istiqlalının, Azərbaycançılıq məfkurəsinin, milli müstəqilliyimizin dayaq nöqtəsi, enerji mənbəyi, hərəkətverici qüvvəsi olan xilaskar Heydər Əliyev ideyaları hər bir Azərbaycan vətəndaşını, bütün dünya azərbaycanlılarını birliyə, bütövlüyə və fədakarlığa çağırır. Heydər Əliyev ideyaları milli azadlığa qovuşan azad, müstəqil Azərbaycanın daha xoşbəxt gələcəyə gedən dönməz tərəqqi, intibah yollarında ən şərəfli, ən real, ən perspektivli xilaskar qüvvədir. Heydər Əliyev ideyaları fundamental əsaslarda, konseptual genişlikdə azərbaycançılıq məfkurəsinin bel sütunudur, hərəkətverici beyin mərkəzidir. Bu ideyalar Azərbaycan reallı-

ğının bütöv tarixi yollarından, inkişaf, intibah pillələrindən, eləcə də müəyyən dövrlərin tənəzzül, böhranlı eniş məqamlarının analitik dərkindən çıxış edərək, bugünün və sabahın, perspektiv gələcəyin yaxın və uzaq yollarını göstərir.

Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olmuşdur. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəkdir. Bizim hər birimiz isə bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan ölkənin tərəqqisi naminə istifadə etməyə hazır və qadir olmalıyıq. İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: «Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Vətəndaşın, böyük Şəxsiyyətin, qüdrətli Liderin əməyinin bəhrəsidir».

Tarix bizi Azərbaycan dövlətçiliyinin monolit fundamentinin qoyulduğu illərdən nə qədər artıq ayırırsa, Heydər Əliyev siyasi kursunun dəyəri, qiyməti azalmır, əksinə bir o qədər artır və bu da tamamilə təbiidir. Çünki, Heydər Əliyev heç vaxt nəzərləri keçmişə zillənən, keçmişin dumanlı idilliyası arxasında gizlənən siyasətçilərdən olmayıb, onun siyasi irsi tamamilə gələcəyə istiqamətlənmişdir. Bu da öz inamında əriyən və canlı, nəhəng inam və əqidə heykəlinə çevrilən Heydər Əliyev fenomeninin daha bir rakursdan görüntüsüdür. Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğunun təhlükə qarşısında qaldığı bir dövrdə xilaskarlıq missiyasını öz üzərinə götürən, yeni demokratik və

qüdrətli Azərbaycanı yaratmaq üçün böyük quruculuq missiyasını həyata keçirən, indiki və gələcək nəsillərə yadigar olaraq Azərbaycanın gələcək inkişafının strateji konsepsiyasını işləyib hazırlayan Heydər Əliyevin dühası və siyasi irsi xalqımızı xoşbəxt gələcəyə aparan bir yoldur. Bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı siyasət onu göstərir ki, bu gün Ulu öndər Heydər Əliyevin ideyaları yaşayır və həyata keçirilir. Son beş il ərzində Azərbaycanda görülən və bu gün də müvəffəqiyyətlə davam etdirilən quruculuq işləri, Azərbaycan Respublikasının hərtərəfli sosial-iqtisadi inkişafı, xalqımızın həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş tədbirlər Heydər Əliyev şəxsiyyətinin unudulmaz xatirəsinə ən qiymətli hədiyyədir.

Bu gün Heydər Əliyev ideyaları, siyasəti yaşayır, onun Azərbaycançılıq fəlsəfəsi inkişaf edir. Ən başlıcası isə Azərbaycan dövləti gündən-günə qüdrətlənir və beynəlxalq aləmdə nüfuzu durmadan artır.

Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 85 illiyi münasibəti ilə «Heydər Əliyev dövlətçilik haqqında» kitabı nəşr olunmuşdu. Həmin kitabda Heydər Əliyevin müxtəlif görüşlərdəki çıxış və nitqlərindən seçilmiş müdrik kəlamlar, aforizmlər və cəmiyyətin sosial həyatının müxtəlif sahələrinə aid deyimlər, iqtibaslar toplanmışdı. Hər dəfə bu dahi şəxsiyyətin əsərlərini mütaliə edib öyrənərkən dərk edirsən ki, ümummilli liderimiz Heydər Əliyev dövlət quruculuğu, demokratiyanın inkişafı, ölkədə əmin-amanlıq, asayiş və sabitliyin sarsılmaz təməllər üzərində daimi dayanıqlığına nail olmaqdan ötrü qanunçuluğun möhkəmləndirilməsi, dövlətçilik, milli-mənəvi dəyərlərin qorunması, elm, mədəniyyət və iqtisadiyyatın daha sürətli, səmərəli və məqsədli inkişafı, ölkə əhalisinin maddi rifah halının daha da yaxşılaşdırılması, bir sözlə, bütün məsələləri bizim

üçün əlçatmaz olan zirvədən böyük müdriklik və uzaqgörənliklə həll etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin irsini bir kitab çərçivəsində ifadə etmək mümkün olmadığından yeni nəşri hazırlanmışdır. Oxuculara təqdim olunan bu yeni nəşrdə Ulu öndərin nitq və çıxışlarından daha geniş şəkildə istifadə olunmuş, eləcə də görkəmli şəxsiyyətlərin bu dahi və müdrik insan haqqında fikirləri öz əksini tapmışdır. Sabahın perspektivini keçmişin təhlili ilə paraleldə, sintezdə açmağa israrlı olan yaxın milli yaddaşın, ən yeni tarixin ayrı-ayrı səhifələrinə həsr olunmuş bu kitab oxuculara görkəmli insan və siyasətçi Heydər Əliyevin şəxsiyyətinin əsl miqyasını daha dərindən anlamağa, onun tarixə, dövlətin inkişafına, Azərbaycan dövlətçiliyinin təşəkkülünə və möhkəmlənməsinə çox böyük töhfəsini layiqincə qiymətləndirməyə imkan verir.

**Xanlar VƏLİYEV**
**ədliyyə general-leytenantı,**
**hüquq elmləri namizədi**



# DÖVLƏTÇİLİK HAQQINDA

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

***

Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir.

***

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

***

Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, Azərbaycan Respublikasını erməni təcavüzündən xilas etmək üçün hamını birliyə, əməkdaşlığa dəvət edirəm!

***

Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də yaşaması bizim üzərimizə, mənim üzərimə düşən vəzifədir.

***

XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır.

***

Biz nazik sapın üstündə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz təmin edilsin, Azərbaycan müharibə şəraitindən çıxa bilsin.

Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir.

***

Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın.

***

Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

***

Biz Azərbaycan dövlətçiliyini qorumağa qadirik və bundan sonra da qoruyacağıq!

***

Bir dövlət olaraq, hökumət olaraq biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələblərini təmin etməliyik.

***

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

İndi müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən böyük vəzifələrdən biri respublikanın pozulmuş ərazi bütövlüyünü bərpa etməkdir.

***

Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

***

Dövlətçilik haqqında düşünən adam – həm adi vətəndaş, həm dövlət işində işləyən, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt öz canı haqqında düşünməməlidir.

***

Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin.

Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz.

***

Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

Hamımız Azərbaycanın müstəqil dövlət olmasının tərəfdarıyıq və şəxsən mən dəfələrlə qeyd etdiyim kimi, harada olmağından asılı olmayaraq bütün fəaliyyətimdə və həyatımın son dəqiqəsinədək Azərbaycanın müstəqil dövlətçiliyini qoruyacağam. Bizim ideologiyamızın əsası budur.

***

Xalq mənim dayağım, gücüm və inamımdır.

***

İndi Azərbaycan Respublikası, Azərbaycanın dövlətçiliyi üçün birlik, milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq.

***

Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.

***

Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır.

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir.

***

Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq qayğıları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imtiyazların yaradılmasına səy göstərir.

***

Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik.

***

Bizim ən böyük vəzifəmiz Azərbaycanda dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir hər bir vətəndaş bunu qiymətləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir.

***

Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə qatılmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir.

Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib, əsərlər, illüstrativ materiallar, kinolentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır.

***

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!

***

Azərbaycan Respublikası milli dövlət quruculuğu yolunda uğurlar qazanaraq böyük gələcəyə doğru inamla addımlayır.

***

Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.

***

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə, ən böyük məmləkət qədər güclü olar.

***

Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır.

Dövlət quruculuğunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir.

***

Müstəqillik yolu qədər çətin yol yoxdur.

***

Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır.

***

İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir.

***

Azərbaycanın müstəqilliyi Azərbaycan Respublikasının dünya birliyində tutduğu yer ilə bağlıdır.

***

Siyasi plüralizm yolu, söz azadlığı Azərbaycan dövlətinin demokratik prinsiplərinin və demokratik hüquqi cəmiyyət yaradılmasının əsas şərtlərindən biridir.

***

Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik cəmiyyət qurmaq yoludur.

Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən vətəndaşdırsa, Vətənin övladıdırsa, deməli, öz Vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz.

***

Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq  və qoruyacağıq.

***

Mən Azərbaycanda bütün məsələlərin demokratiya yolu ilə həll olunmasının tərəfdarıyam.

***

Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır.

***

Əgər bu gün qarşımızda duran vəzifələri layiqincə yerinə yetirə bilsək, Azərbaycan xalqı, respublikası, müstəqil dövlətimiz üçün gələcəkdə daha gözəl şərait yarada bilərik.

***

Azərbaycanın müstəqilliyi, müstəqil dövlətimizin hərtərəfli fəaliyyəti torpaqlarımızın azad edilməsi ilə bağlıdır.

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

***

İndi biz dövlət müstəqilliyi əldə etdiyimiz, öz taleyimizin sahibi olduğumuz bir dövrdə problemlərimizi özümüz həll etməliyik.

***

Azərbaycan öz torpaqlarının, öz taleyinin sahibi, öz dövlətinin sahibi kimi gələcəkdə də müstəqil dövlət olaraq yaşayacaqdır.

***

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

***

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhdudiyyətlərə düçar olsa da, qurbanlar versə də mətin iradəsi sarsılmamışdır.

***

Hər bir demokratik cəmiyyətdə şübhəsiz ki, müxalifət olmalıdır.

XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət, öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən, Azərbaycan xalqının görkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşdurlar.

***

Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi.

***

Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

***

Son iki il müddətində Azərbaycanın başına gəlmiş ağır bəlalardan müvəffəqiyyətlə çıxmağımızın səbəbi odur ki, xalq ilə dövlətin tam həmrəyliyi əldə olunub.

***

Rusiya ilə dostluq münasibətlərinin bizdən ötrü prinsipial əhəmiyyəti var. Rusiya dünyanın ən mühüm dövlətlərindəndir, bizi onunla çoxəsrlik tarix bağlayır, o, bizim qonşumuzdur və  Azərbaycanın iqtisadiyyatının, elminin, mədəniyyətinin inkişafında böyük rol oynamışdır.

Bəziləri hesab edirlər ki, Azərbaycanda demokratiya Böyük Britaniyada, Fransada, yaxud ABŞ-dakı kimi olsun. Biz bu səviyyəyə çatmağa çalışırıq. Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.

***

Müstəqilliyi təmin etmək üçün çox düşünülmüş xarici siyasət aparmaq lazımdır.

***

Azərbaycanda zorla, güc işlətməklə, silah gücünə hakimiyyət əldə etmək mümkün deyildir. Bunu hamı bilməlidir, hamı dərk etməlidir və belə cinayət əməllərindən çəkinməlidir!

***

Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin ana xəttidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Başqa yolla gedən adam, demək, başqa məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur.

***

Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən, Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrəsini də, bir qarışını da heç kəsə verməyəcəyik.

Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.

***

Torpağımızın hər bir qarışının itməsi bizim üçün dəhşətlidir, düşmən tapdağı altında qalması bizim üçün ağır dərddir, böyük bir faciədir.

***

Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir.

***

Azərbaycan demokratik dövlətdir, hüquqi dövlətdir.

***

Azərbaycanın müstəqil bir dövlət olması dünyada, xüsusən o vaxtlar Sovetlər İttifaqında gedən tarixi, ictimai-siyasi, obyektiv proseslərin məntiqi nəticəsidir.

Yeni Azərbaycan Partiyası o halda həqiqi, sağlam, mübariz və doğrudan da görkəmli partiya olar ki, onun daxilində fikir mübadiləsi getsin, fikir toqquşmaları getsin, sağlam prinsiplər əsasında mübarizə getsin.

***

Nə qədər partiya olur-olsun, onların hamısı bir məqsədə – Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir.

***

Azərbaycan cəmiyyətinin əksəriyyəti kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və Azərbaycanın müstəqil, dünyəvi dövlət kimi, ümumbəşəri dəyərlər əsasında, eyni zamanda, milli ənənələr əsasında hüquqi dövlət qurmaq yolu ilə getməsinin tərəfdarıdır.

***

Hər bir şəxs konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirmək, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

***

Yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı təmin edilməli, insan hüquqları qorunmalı, vicdan azadlığı, din azadlığı təmin edilməlidir.

Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir.

***

Əminəm ki, Azərbaycanın ilk demokratik konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövləti miras qoyacağıq.

***

Dövlət müstəqilliyi, milli azadlıq bizim ən böyük tarixi nailiyyətimizdir və biz bunu qoruyub saxlayacağıq.

***

Xalqımız öz gücünü toplamalı, keçmişdən nəticə çıxarmalıdır.

***

Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

***

Keçid dövrü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adam olsun.

Azərbaycan indi keçmiş  Azərbaycan deyil. Azərbaycan dünya birliyində öz yerini tapıb və hər yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirir.

***

Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi  nailiyyətimizdir!

***

Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır.

***

Azərbaycan dövlətinin daxili və xarici siyasəti xalqımızın iradəsinin beynəlxalq aləmdə təsdiqinə, qarşıda duran tarixi vəzifələrin dönmədən həyata keçirilməsinə xidmət edir.

***

Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.

***

Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməli və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur.

Bu gün tarixi iftixar hissi ilə deyə bilərik ki, biz artıq taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

***

Müstəqil Azərbaycanın böyük gələcəyi var. Mən bu gələcəyə inanıram. Mən bu gələcəyin ümidilə yaşayıram!

***

Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur.

***

Hamını Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə fəaliyyətə, birliyə, əməkdaşlığa dəvət edirəm!

***

Azərbaycanın dövlət müstəqilliyi dönməzdir və biz müstəqilliyimizə, milli azadlığımıza qəsd olunmasına heç vaxt yol verməyəcəyik!

***

Azərbaycan bir daha sosializm sisteminə qayıtmayacaqdır!

***

Demokratiya dövlətçiliyimizin əsasını təşkil edəcəkdir!

Bizim müstəqilliyimizi heç kim sarsıda bilməz!

***

Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!

***

Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır!

***

Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var!

***

Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, Azərbaycan Respublikasını erməni təcavüzündən xilas etmək üçün hamını birliyə, əməkdaşlığa dəvət edirəm!

***

Biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır.

Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam.

***

Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram.

***

Borcumuz odur ki, Azərbaycan müstəqil bir dövlət kimi inkişaf etsin, daha da qüdrətlənsin, Azərbaycanın müstəqilliyi hər bir vətəndaş üçün xoşbəxtlik gətirsin, səadət gətirsin.

***

Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır.

***

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

***

Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir.

İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır!

***

Hər bir ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü təsdiq edən amillərdən biri onun dövlət sərhədləri və bu sərhədlərin toxunulmazlığıdır.

***

Mən hesab etmirəm ki, bizim xalqımız aciz xalqdır. Mən hesab etmirəm ki, bizim xalqımız bütün xüsusiyyətlərinə görə ermənilərdən, erməni xalqından gücsüz xalqdır. Mən belə hesab etmirəm. Güman edirəm ki, siz də belə hesab etmirsiniz.

***

Biz gərək torpaqlarımızı müdafiə edək, işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək.

***

Dövlət quruculuğunda, nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir.

***

Milli azadlığa nail olmaq üçün xüsusən, bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər – ancaq Azərbaycanın Konstitusiyası çərçivəsində, Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində!

***

Müvəffəqiyyət heç zaman öz-özünə yaranmır, müvəffəqiyyətə nail olmaq üçün böyük, düşünülmüş, ardıcıl və müntəzəm iş aparmaq lazımdır.

***

Azərbaycan xalqının əsrlər boyu qəlbində olan, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuşdur. Müstəqilliyi əldə etmək, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi əldə saxlamaq, onu möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq və bütün vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat təmin etmək daha çətindir.

***

Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bir sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır.

***

Biz Azərbaycanın haqq-ədalət işini dünyaya sübut etməli, ölkəmizə qarşı olmuş hərbi təcavüzü dünya ictimaiyyətinə çatdırmalı və beynəlxalq ictimaiyyətin köməyilə Qarabağ məsələlərini sülh yolu ilə həll etməliyik.

Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir.

***

Ötən on il hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının nailiyyətidir. Birincisi, bu bütün xalqımızın əvəzsiz milli sərvətidir, ikincisi isə burada hər bir insanın öz payı vardır. Heç kəsin payı inkar olunmamalıdır. Hər şey düzgün, doğru, obyektiv olmalıdır.

***

«Əsrin müqaviləsi» müstəqil Azərbaycanın gələcəyinin təminatıdır.

***

Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir.

***

Bundan sonra Azərbaycanda silahla, zorakılıqla heç bir iş görmək olmaz.

***

Azərbaycan müstəqil dövlətdir və daim bu yolla gedəcəkdir. Heç bir qüvvə onu bu yoldan döndərə bilməz.

Biz bütün çətinliklərdən keçdik, bütün maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavab verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq.

***

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

***

Suverenliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir.

***

Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir.

***

Biz heç kəsi təqib etməyəcəyik, gözümçıxdıya salmayacağıq. Əgər sən liberalsansa, əgər sən xalq cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var deməyəcəklər. Xalqa xidmət elə. Bax budur ideya, budur fəlsəfə.

***

Mən inanıram ki, bundan sonra Azərbaycan bir müstəqil dövlət kimi bütün orqanlarını təkmilləşdirəcək, inkişaf etdirəcək və Azərbaycan xalqının, millətimizin mənafelərinin bütün sahələrdə qorunması və təmin olunması üçün lazımi işlər görməyə qadir olacaqdır.

Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və əbədi etməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət, o cümlədən hüquqi, demokratik, dünyəvi dövlət qurulması, Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir. Bu, müstəqilliyimizin təminatıdır.

***

Hər bir vicdanlı vətəndaş anlamalıdır ki, bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının müstəqilliyini qorumaq əzmindən asılıdır.

***

Dövlətçilik haqqında düşünən adam – həm adi vətəndaş, həm də dövlət işində işləyən, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt öz canı haqqında düşünməməlidir. Öz canı haqqında düşünən və xırda bir çətinlikdə ancaq qaçmaqla canını qurtarmaq istəyən insanlar – bunlar heç vaxt xalqın hörmətini, xalqın etimadını qazana bilməzlər.

***

İnsanlar cürbəcür şəraitlərdə yaşaya bilər. Amma insan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır. Biz çox əsrlər bu azadlığın, bu müstəqilliyin arzusunda olmuşuq. Ötən on ildə bu müstəqilliymizi möhkəmləndirmişik, inkişaf etdirmişik, dönməz etmişik və gələcək nəsillərə müstəqilliyi töhfə edirik və inanıram ki, xalqımız bu müstəqilliyi heç vaxt bir də əlindən verməyəcəkdir.

Xalqın, millətin mənafeyini hər bir kəsin mənafeyindən üstün tutmaq lazımdır. Əgər xalqın, millətin mənafeyinə görə mən də cəzalanmalıyamsa, cəzalanmalıyam.

***

İndi biz müstəqil olduğumuza, azad olduğumuza görə, ölkəmizin sahibi olduğumuza görə ölkəmiz haqqında, torpağımız haqqında, Vətənimiz haqqında, bizə etibar göstərən xalq haqqında daim düşünməliyik. Ancaq və ancaq! Bizim başqa düşüncəmiz olmamalıdır. Öz şəxsi mənafelərimizi, şəxsi işlərimizi bir kənara qoymalıyıq, onlar sonuncu dərəcəli məsələlər səviyyəsində olmalıdır.

***

İnsan harada olsa yaşayacaqdır. Şərt o deyil. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir.

***

Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir və bunu yerinə yetirməyə çalışırıq.

***

Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında qoruyub saxlaya biləcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyini yalnız bu əsasda təmin edə biləcəyik. Məhz bu əsasda biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bu əsasda biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik.

Cinayətkarların qarşısını alarkən, dövləti qoruyarkən hər bir vətəndaşı qoruyuruq.

***

Müxalifətin normal fəaliyyət göstərməsi üçün bütün imkanlar yaradılıb, bundan sonra da yaradılacaqdır. Ancaq heç kəs bundan sui-istifadə etməməlidir: heç bir partiyada heç bir silahlı qüvvə olmamalıdır və hər bir siyasi partiya, ancaq siyasi yollarla mübarizə aparmalıdır, başqa yollara əl atmamalıdır.

***

Azərbaycan dövlətçiliyinə qəsd edən hər bir kəs öz cəzasını alacaqdır. Heç bir terrorçu Azərbaycanda öz istəyinə nail ola bilməyəcəkdir. Ona görə ki, Azərbaycanın xalq tərəfindən seçilmiş Prezidenti var və Azərbaycanın Prezidenti Azərbaycan dövlətçiliyinin, xalqın keşiyində durubdur. Ona görə ki, Azərbaycan xalqı ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi vardır.

***

Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir.

***

Azərbaycanda siyasi plüralizm var, demokratiya var və biz bunları inkişaf etdirəcəyik. Ancaq öz şəxsi ambisiyalarına görə, öz şəxsi məqsədlərinə görə Azərbaycanın dövlət mənafeyinə zərər gətirmək, ləkə vurmaq xəyanətdir, cinayətdir. Bilin ki, biz bunların qarşısını bundan sonra da qətiyyətlə alacağıq.

Kim bizim dövlətçiliyə, vətəndaşların hüququna, insanlara nəsə edəcəksə, biz onlara qarşı amansız olmuşuq və şübhəsiz ki, bundan sonra da amansız olacağıq.

***

Bizim tutduğumuz yol doğru yoldur, düzgün yoldur, ədalətli yoldur, bu yolla biz bundan sonra da gedəcəyik, müstəqil Azərbaycanın dövlətçiliyini möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik və kim bu yolda bizimlə bərabərdirsə, o öz xalqına xidmət etmiş olacaqdır. Kim bu yolda bizə mane olacaqsa, o maneələri biz aradan götürməyə qadirik.

***

Müxtəlif problemlər, fikir ayrılıqları ola bilər. Biz plüralist bir ölkədə yaşayırıq. Ancaq hər bir vətəndaş bilməlidir ki, Azərbaycan dövlətçiliynin möhkəmləndirilməsi, Azərbaycanda hüquqi, demokratik dövlətin inkişaf etməsi və ən əsas şərt – Azərbaycanın müsətqilliyinin əbədi edilməsi hamının vəzifəsidir.

***

Hər bir vicdanlı vətəndaş anlamalıdır ki, bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının müstəqilliyini qorumaq əzmindən asılıdır.

***

Vəzifə təkcə ondan ibarət deyildir ki, gəlin altı-yeddi saat iş yerində oturun, ondan sonra gedin, dünyadan xəbərsiz. Bizim hər birimiz gecə də, gündüz də öz vəzifəmiz, məsuliyyətimiz haqqında düşünməliyik. Öz məsuliyyətimizi düşünərək üzərimizə düşən vəzifələri yerinə yetirməliyik.

Harada olmağımdan asılı olmayaraq, bütün fəaliyyətimdə və həyatımın son dəqiqəsinədək Azərbaycanın müstəqil dövlətçiliyini qoruyacağam.

***

İndi biz müstəqil dövlətik, öz respublikamızın, öz taleyimizin sahibiyik, xalqımızın bu günü və gələcəyi üçün cavabdehik.

***

Azərbaycanın dövlət müstəqilliyi tarixi hadısədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.

***

Azərbaycan xalqının əsrlər boyu qəlbində olan, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuşdur.

***

Azərbaycan dövləti müstəqildir, müstəqil olacaq və müstəqilliyini qoruyub saxlayacaq.

***

Dövlət xalqındır, xalq üçündür, millət üçündür.

***

Xalqımızın, dövlətimizin ən ümdə məqsədi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerlərindən-yurdlarından didərgin düşmüş vətəndaşlarımızın evlərinə qayıtmağını təmin etməkdir.

Ordu müstəqil dövlətimizin əsas atributudur.

***

Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün güclü, müasir tələblərə cavab verən ordusu olmalıdır.

***

Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var.

***

Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı qəsdə layiqli cavab verməyə qadirdir.

***

Milli müstəqilliyimiz – mənəvi sərvətimizdir.

***

Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi o yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır.

***

Müstəqilliyi görmək özü həmin dövrdə yaşayan insan üçün tarixi zərurət, böyük xoşbəxtlikdir və onu bizim bugünkü nəsil, bu günkü insanlar gördülər. Müstəqilliyi yaşatmaq, dönməz və sarsılmaz etmək böyük vəzifədir.

Bizim xalqımızın XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır.

***

Müstəqilliyi qazanmaq tarixi şansdır, onu yaşatmaq isə müqəddəs vəzifədir.

***

Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

***

Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir.

***

Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya da daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir.

***

Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır.

***

Dünya bilməlidir, hamı bilməlidir, o cümlədən, Ermənistan tərəfi bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik!

Azərbaycan müstəqil dövlətdir, nə olursa-olsun, bu müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Qırılsaq da, ölsək də müstəqilliyimizi əldə saxlayacağıq. Əgər bizi də qırsalar, balalarımız müstəqilliyimizi davam etdirəcəklər.

***

Kim Azərbaycanı sevirsə, kim Azərbaycan xalqının müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.

***

Mən respublikanın xoşbəxt gələcəyini görürəm və əmin ola bilərsiniz ki, biz bunların hamısına nail ola biləcəyik.

***

Sülhü təmin etmək üçün, dövlətlər arasında daimi sülhü saxlamaq və müharibələrin baş verməsinin qarşısını almaq üçün gərək hər bir dövlətin güclü ordusu olsun.

***

Azərbaycan Respublikasının bu gün mövcud olan dövlət müstəqilliyi böyük sınaqlardan keçibdir. İftixar hissi ilə demək olar ki, bu sınaqlardan şərəflə çıxıbdır və indiki Azərbaycanın dövlət müstəqilliyi artıq mövcuddur və dönməzdir.

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

***

Biz Azərbaycan dövlətçiliyini qorumağa qadirik və bundan sonra da qoruyacağıq.

***

Müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

***

Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər döyüşə, hər vuruşa hazır olmalıyıq!

***

Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

***

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

***

Azərbaycanın dövlətçiliyini qorumaq üçün, Azərbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi qorumaq üçün mən bütün imkanlardan indiyə qədər istifadə etdiyim kimi, bundan sonra da istifadə edəcəyəm.

Bütün qüvvələr dövlət quruculuğu uğrunda səfərbər olunmaldır.

***

Mən nikbinəm, hesab edirəm ki, xalq, millət, Azərbaycan vətəndaşları – biz hamımız birlikdə bu çətinliklərin öhdəsindən gələcəyik.

***

Azərbaycan hüquqi, demokratik dövlətdir. Azərbaycanda demokratiyanın, qanunun aliliyinin təmin olunması üçün bütün işlər görülür və görüləcəkdir. Bunların özü də xarici investorların Azərbaycanda işləməsi üçün əsas şərtlərdən biridir.

***

Böyük iftixar hissi ilə deyə bilərik ki, biz artıq öz taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

***

Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

***

Biz Azərbaycanın haqq-ədalət işini dünyaya sübut etməli, ölkəmizə qarşı olmuş hərbi təcavüzü dünya ictimaiyyətinə çatdırmalı və beynəlxalq ictimaiyyətin köməyi ilə Qarabağ məsələlsini sülh yolu ilə həll etməliyik.

Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir

***

Azərbaycanın istiqlaliyyətinin bəyan edilməsi ölkəmizin tarixində çox böyük əhəmiyyətə malik olan hadisədir.

***

Azərbaycanda yüksək savadlı, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik.

***

Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.

***

Azərbaycan dünya birliyində öz yerini tapıb və hər yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirmişdir.

Hamını Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi, ölkəmizin gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə fəaliyyətə, birliyə, əməkdaşlığa dəvət edirəm.

***

Azərbaycan dövləti son illərdə qüdrətini həm ölkədə, həm də dünyada nümayiş etdiribdir. Biz Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, Konstitusiyasını pozmağa yol verməyəcəyik.

***

Azərbaycanın bütün vətəndaşları arxayın ola bilərlər ki, Azərbaycan dövləti, onun Prezidenti verdiyi sözlərə, andına sadiqdir. Azərbaycan vətəndaşlarının hüquqları və onların əmin-amanlığı daim qorunacaqdır.

***

Bu müstəqil xarici siyasətin əsas ana xətti, əsas mənası Azərbaycanı yüksəltmək, ölkəmizi dünya miqyasında tanıtmaq və Azərbaycan xalqını, müstəqil Azərbaycanın mənafelərini dünya miqyasında daim qorumaqdan, müdafiə etməkdən ibarətdir.

***

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətlərimizdir. Eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir.

Biz Azərbaycan dövlətinin müstəqilliyini əldə edən zaman BMT tərəfindən tanınmışıq. Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edəcəyik. Bunu dünya da bilməlidir. Hamı bilməlidir və ATƏT, onun Minsk qrupu da bilməlidir.

***

Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq.

***

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə müəyyən etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir.

***

Müstəqil Azərbaycan Respublikası deyəndə biz Azərbaycan Respublikası deyirik. Buna başqa ad vermək olmaz. Əgər buna kimsə başqa ad versə, bu bizim xalqımıza, millətimizə xəyanət ola bilər.

Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm.

***

Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır.

***

Ömrümün bundan sonrakı hissəsini harda olursaolsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.

***

Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin-amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır.

***

Bizim işimizdə bir prinsip həmişə əsas olmalıdır: biz hər bir məsələni obyektiv qiymətləndirməli, obyektiv araşdırmalı, obyektiv təhlil etməliyik.

Biz gərək siyasəti o qədər ağıllı aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz təmin edilsin, Azərbaycan müharibə şəraitindən çıxsın.

***

Müstəqil Azərbaycanın öz torpaqlarını qorumağa qadir olan güclü nizami ordusu vardır.

***

Bütün azərbaycanlıların dünyada bir vətəni var. O da müstəqil Azərbaycan Respublikasıdır.

***

Milli ideologiyamız mənəvi sərvətimizdir.

***

Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissəsidir.

***

YAP dilindən, dinindən, etnik və ya sosial mənşəyindən asılı olmayaraq Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşlarını Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi bölünməz Vətəni, doğma yurdu hesab edir.

Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulubdur. Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq, Azərbaycanlı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik ki, bunun kökü nədir, onun kökü nədir. Azərbaycanda yaşayan insanların hamısı həmişə özünü azərbaycanlı hesab edirlər. Onlar həqiqətən azərbaycanlıdırlar və hamımızın birlikdə ən əsas məqsədimiz azərbaycançılığı möhkəmləndirmək, qorumaq, bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir.

***

Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüdrətli edir.

***

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

***

Biz daha başqa bir dövlətin tərkibində, himayəsi altında yaşamayacağıq. Başqa bir dövlətin də imkanlarından istifadə etməyə nə imkanımız, nə də istəyimiz var.

***

Əgər biz müstəqil dövlət olmaq istəyiriksə və buna nail olmuşuqsa, öz ölkəmizin sərvətlərindən səmərəli istifadə edərək həm müstəqil dövlətimizi möhkəmləndirməliyik, həm də bu müstəqilliyin təkcə siyasi – mənəvi deyil, habelə, maddi nəticəsi də olmalıdır, insanların yaşayışının yaxşılaşmasını təmin etməlidir. Əgər bu olmasa, belə müstəqilliyin heç bir əhəmiyyəti yoxdur.

Bizi ciddi və müqəddəs mübarizələr gözləyir. Biz nəinki təkcə müstəqil Azərbaycanın sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıdan gələn yeni yüzillik və minillikdə dövlətçiliyinin qorunması, möhkəmlənməsi və inkişaf etdirilməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq.

***

Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi və milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir.

***

Biz nəinki müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmləndirilməsi və inkişaf etməsi uğrunda, eyni zamanda, bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi işlər aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzini yaşadan müstəqil dövlətimiz ətrafında sıx birləşməliyik.

***

Azərbaycanın gəncləri, bugünkü və sabah gələn gənclər də bilsinlər ki, hər bir azərbaycanlının milli borcu, vəzifəsi respublikamızın dövlət müstəqilliyini qoruyub saxlamaqdır, Azərbaycanı azad, sərbəst, müstəqil dövlət kimi inkişaf etdirməkdir. Azərbaycan elmini, mədəniyyətini yüksəklərə qaldırmaqdır, respublikamızın adını, şanını-şöhrətini dünyaya yaymaqdır. Dünya birliyində Azərbaycanın layiqli yer tutması üçün xidmətlər göstərməkdir.

Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı Azərbaycan gəncliyidir.

***

Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır. Bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıblar. Bu, XX əsrdə bizim əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət, Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik.

***

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyat fəaliyyətinin mühüm bir hissəsidir.

***

Müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının həmrəyliyinin əsası və dayağıdır. Bu həmrəyliyin qayəsini təşkil edən Azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları məhz müstəqil dövlətimizin yaranması ilə inkişaf etmişdir. Bu ideyalar şüurlarda özünə möhkəm yer tutmuş, soydaşlarımızı birləşdirən milli məfkurəyə çevrilmişdir.

Biz tamamilə demokratiya yolu ilə gedirdik. Partiyanı yaradarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik. Necə ki, indi ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya sağlam düşüncə, sağlam fikir, xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı.

***

Mən məmnunam ki, 1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz aktuallığını saxlayıbdır. Demək, biz o vaxt nə qədər uzaqgörənlik etmişik, ölkəmizdə olan vəziyyəti nə qədər düzgün qiymətləndirmişik və partiyamızın gələcək yolunu, istiqamətini nə qədər düzgün müəyyən etmişik.

***

1992-ci ildə Naxçıvanda ağır bir şəraitdə, böyük təzyiqlər altında biz partiyanın yaranması ilə əlaqədar xeyli işlər gördük və ilk konfransı keçirdik. O vaxt, əlbəttə ki, partiyanın yaranması yalnız ayrı-ayrı şəxslərin, bu partiyanın yaranmasında çox təşəbbüs göstərmiş insanların, o cümlədən təkcə mənim xidmətim deyildir.

***

Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zəruriyyətdən yaranmış bir partiyadır.

Partiyanın inkişaf dövrü, məsələn, 1993-cü, 1994-cü, 1995-ci illərdə bir az zəif getdi. Bu da həqiqətdir. Ona görə yox ki, xalq bizim partiyaya daxil olmaq istəmir. Ona görə ki, o vaxt mənim üçün, Yeni Azərbaycan Partiyasının sədri üçün birinci növbədə Azərbaycanın Prezidenti kimi Azərbaycanın problemlərini həll etmək vacib idi. Partiyamızın da məqsədi bu idi, partiyamız da bu arzu ilə yaranmışdı. Ona görə də mən bütün səylərimi, bütün imkanlarımı, bütün vaxtımı, bütün biliyimi, iradəmi buna yönəltdim, buna səfərbər etdim.

***

Yeni Azərbaycan Partiyası yaranandan az bir müddət sonra Yeni Azərbaycan Partiyasının sədrinin üzərinə partiya işindən əlavə yeni böyük bir məsuliyyət – Azərbaycanın ağır dövründə, 1993-cü ildə Azərbaycan Respublikasına, ölkəmizə, xalqımıza rəhbərlik etmək məsuliyyəti düşdü. Buna görə də o zamandan indiyə qədər dövlətin, hökumətin gördüyü işlər və Yeni Azərbaycan Partiyasının fəaliyyəti bir-biri ilə vəhdət təşkil edir, üzvi surətdə bağlıdır.

***

Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

***

Mən bu yola ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur. Ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var, hamını birləşdirib, bu vəziyyətdən çıxmaq olar.

Azərbaycanda daxili ictimai-siyasi sabitliyi qoruyub saxlamaq lazımdır. Bəziləri yenə də sabitliyi pozmağa cəhdlər göstərirlər. Ancaq əbəsdir. Onlar nə özlərini aldatsınlar, nə də başqalarnı aldadıb pis yola salsınlar. Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik möhkəmdir, dönməzdir və əbədidir. Bu bizim və gələcək nəsillərin üzərində olan əsas vəzifələrdən biridir.

***

Bir dövlət olaraq, hökumət olaraq biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələblərini təmin etməliyik. Ona görə də insanların sağlamlığını və vətəndaşların müalicəsini təmin etmək üçün səhiyyədə mövcud imkanlardan daha da səmərəli istifadə etmək lazımdır.

***

Azərbaycan dövləti bütün imkanlardan istifadə edərək uşaqların sağlamlığının təmin olunmasına və qorunmasına çalışıb və bundan sonra da çalışacaqdır.

***

1994-cü ilin oktyabr ayının əvvəllərində dövlət çevrilişi cəhdi başlanan zaman məhz bizim televiziyamızdan istifadə etdim. Bu nə qədər güclü silah imiş! Bu, bütün silahlardan da güclü silah imiş.

***

Azərbaycan bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması, sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir.

Sülhü təmin etmək üçün, dövlətlər arasında daimi sülhü saxlamaq və müharibələrin baş verməsinin qarşısını almaq üçün gərək hər bir dövlətin güclü ordusu olsun.

***

Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən, Cənubi Qafqaz regionunda möhkəm və ədalətli sülhə nail olmaqdan ibarətdir.

***

Bizə nə qədər böyük zərbələr dəyibsə də, nə qədər böyük itkilərimiz olubsa da, biz müstəqil dövlət kimi ətrafımızda olan ölkələrin hamısı ilə sülh şəraitində yaşamalıyıq. Sülh münasibətləri, qarşılıqlı faydalı münasibətlər, əməkdaşlıq münasibətləri şəraitində yaşamalıyıq.



# KONSTİTUSİYA, DEMOKRATİYA, İNSAN HÜQUQLARI HAQQINDA

Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir.

***

Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır!

***

Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik.

***

Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir.

***

Konstitusiyamızın müddəaları həm bu günümüz üçün, həm də gələcəyimiz üçün yazılmalıdır.

***

Konstitusiya – Əsas Qanun ölkədə, respublikada sabitliyi təmin etməlidir.

İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan Dövlətinin ilk Konstitusiyasını qəbul edirik. Bu çox məsuliyyətli və çox şərəfli bir vəzifədir. Bu bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik.

***

Hər bir şəxs Konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

***

Bu gün ən mühüm vəzifə Konstitusiyanı daha da dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir.

***

Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır – hər bir vətəndaşın Konstitusiyasıdır. Bizim Konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müəyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik.

***

Biz Konstitusiyanı işləyib hazırlayanda bizim məqsədimiz Azərbaycan xalqına, dövlətə, dövlətçiliyə, müstəqilliyimizin əbədiləşdirilməsinə xidmət etmək olubdur. Sivil, hüquqi, demokratik dövlət quruculuğu prosesini gücləndirmək olubdur. Biz bunu etmişik, xalq da bizi dəstəkləyibdir.

Əminəm ki, Azərbaycanın ilk demokratik Konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövləti miras qoyacağıq.

***

Biz bütün cəmiyyətimizi demokratikləşdirmək istəyirik, ona görə də qəbul etdiyimiz Konstitusiya əsasında respublikamızda bu işləri addımbaaddım görürük.

***

Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik, vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir.

***

Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Bu gün ən mühüm vəzifə Konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir.

***

Mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq.

Bizim Konstitusiyamız, qanunlarımız hər bir siyasi partiyanın, hər bir siyasi qurumun, hər bir təşkilatın Azərbaycan qanunları çərçivəsində fəaliyyət göstərməsini tələb edir. Hamı qanuna tabe olmalıdır, heç kəs qanunu pozmamalıdır, heç kəs özü üçün müstəsna hüquq tələb etməməlidir. Buna heç kəsin haqqı yoxdur.

***

Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə tədricən gedir.

***

Biz ölkəmizin Avropa Şurasına qəbulunu yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət kimi deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanırıq.

***

Respublikamızda bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquqi bərabərliyi təmin edilsin!

***

Demokratik prinsiplər bu günümüzün, gələcəyimizin əsasını təşkil edəcəkdir.

Bizim ümumi məqsədimiz mətbuata daha çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir.

***

Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir.

***

Elə etmək lazımdır ki, ayrı-ayrı adamlar demokratiyadan istifadə edərək, öz şəxsi məqsədlərinə nail olmasınlar. Buna yol vermək olmaz. Ona görə də bu işlərə çox diqqətlə yanaşmaq lazımdır.

***

Azərbaycanda hər bir seçki prosesi insanları, vətəndaşları demokratiya prinsiplərinə daha da yaxınlaşdırmalıdır. Yəni demokratiya prinsipləri insanların daxili mənəviyyatı olmalıdır. Onların üzərinə bir vəzifə kimi yox, onlara bir tapşırıq kimi yox, insanların özlərinin mənəviyyatının tərkib hissəsi olmalıdır. Belə bir şəraitdə biz gələcəkdə də Azərbaycanda demokratiyanı sürətlə inkişaf etdirə bilərik.

***

Biz Konstitusiyanı işləyib hazırlayanda bizim məqsədimiz Azərbaycan xalqına, dövlətə, dövlətçiliyə, müstəqilliyimizin əbədiləşdirilməsinə xidmət etmək olubdur. Sivil, hüquqi, demokratik dövlət quruculuğu prosesini gücləndirmək olubdur. Biz bunu etmişik, xalq da bizi dəstəkləyibdir.

Əgər müxalifət olmasaydı, Azərbaycanda demokratiya olmazdı. Müxalifət olmalıdır və vardır. Ancaq mən dəfələrlə demişəm, gərək müxalifət konstruktiv olsun, ümummilli, ümumxalq məsələləri ilə əlaqədar problemlərdə öz yetkinliyini göstərsin və iqtidarın apardığı siyasət Azərbaycanın milli mənafelərinə zidd deyilsə, onu anlaya, dərk edə bilsin, qəbul etsin, əməkdaşlıq etsin.

***

Bəziləri hesab edirlər ki, dövlətin adı dəyişən kimi, gərək onun məzmunu da dərhal dəyişsin. Bu qeyri-təbii bir məsələdir. Bir məsələ ki, insan fikri, psixologiyası ilə əlaqədardır, burada həmişə müəyyən proses gedir. Dövlətin də, hakimiyyət orqanlarının da demokratiyanı təmin etməsi, demokratik dövlət quruculuğu prosesinin aparılması üçün çoxlu tədbirlər, əməli iş görmək, qanunlar qəbul etmək lazımdır. Biz belə başa düşürük ki, demokratiyanın başlanğıcı var, amma sonu yoxdur.

***

Demokratiya əxlaqsızlıq demək deyil. Demokratiya mənəviyyatsızlıq demək deyil. Demokratiya qanunları pozmaq deyil. Demokratiya qanun çərçivəsində olmalıdır. Demokratiya heç də xaos demək deyil, özbaşınalıq demək deyil. Əgər elə olsa, onda dövlət olmaz. Elə olsa, onda qanun lazım deyil.

***

Daxili ictimai-siyasi sabitlik olmayan yerdə demokratiya ola bilməz. Daxili ictimai-siyasi sabitlik olmayan yerdə iqtisadiyyat inkişaf edə bilməz.

Yüz, iki yüz il demokratiyadan məhrum olmuş Azərbaycan indi, doqquz illik müstəqillik dövründə birdən-birə sıçrayıb, necə deyərlər, çayın o biri sahilinə keçə, tam yüksək səviyyədə demokratiyanı təmin edə bilməz. Şərt o deyil, şərt odur ki, bizim ölkəmizin tutduğu yol nədir? Yol – demokratiya, azadlıq yoludur, fikir müxtəlifliyi yoludur, mətbuat azadlığı yoludur, insan haqlarının qorunması yoludur. Biz buna nə qədər nail ola bilmişik və nə qədər nail ola bilməmişik – bunu düzgün təhlil etmək və düzgün də münasibət göstərmək lazımdır.

***

Bizim – mən Azərbaycanı deyirəm – yolumuz demokratiya yoludur. Demokratiya yolunda Azərbaycanın milli-mənəvi dəyərlərini ümumbəşəri dəyərlərlə, demokratiya ilə Avropa-Amerika dəyərləri ilə sintez etmək və bunun nəticəsində də demokratiyanı inkişaf etdirməkdir.

***

Azərbaycanda demokratiya var və bundan sonra daha da güclənəcəkdir. Ancaq o şəxslər ki, hər şeyi qoyublar kənara, öz məqsədlərinə nail olmaq üçün bütün dünyaya car çəkirlər ki, Azərbaycanda demokratiya yoxdur, onlar müstəqil Azərbaycan dövlətinə, Azərbaycan xalqına böyük zərbələr vururlar. Amma qoy heç də düşünməsinlər ki, bu zərbələr bizi sarsıda bilər. Biz öz işimizi bilirik, demokratiya yolu ilə gedirik, dövlət quruculuğu prosesi normal gedir və bundan sonra da gedəcəkdir.

Biz demokratiyanı təkcə seçkilərdə görmürük. Məsələn, Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və bunun vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsi, sosial problemlərin həll olunması da demokratiyanın bir hissəsidir.

***

Təəssüf ki, Azərbaycanın daxili həyatında demokratik prinsiplər sahəsində lazımi təcrübə olmadığına görə, bəzən ictimai-siyasi qüvvələrin bir-birinə münasibəti respublikanın ümumi mənafeyinin qorunmasına deyil, bir-biri ilə düşmənçilik etməyə yönəlibdir.

***

Respublikada bütün azadlıqlar elan olunmuşdur. Ancaq bu şəraitdə, demokratiya, siyasi plüralizm şəraitində həmin azadlıqlardan doğru və düzgün istifadə etmək lazımdır.

***

Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlarına hörməti, sayğısı və qayğısıdır.

***

Biz demokratiyanın birinci mərhələsindəyik və hesab etmirik ki, demokratiya, o cümlədən seçkilərin demokratik keçirilməsi sahəsində zirvəyə çatmışıq. Amma əsas şərt odur ki, biz bu yolu gedirik.

Bəziləri güman etdiyi kimi, demokratiya xaos, hərc-mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Demokratiyanın hüdudları genişdir. Odur ki, o hər xalqın mentalitetinə uyğun olaraq inkişaf edir.

***

Mən demişəm və deyirəm, Azərbaycanda demokratiya var, demokratiya inkişaf edir və inkişaf edəcəkdir. Heç kəs bu məsələdən sui-istifadə etməsin. Heç kəs də Azərbaycana bu barədə öz müxtəlif imkanları ilə təsir edə bilməz. Bizim Azərbaycanın öz yolu var. Xalqımızın öz mentaliteti var. Heç kəs güman etməsin ki, burada – Azərbaycanda bu gün Fransadakı kimi demokratiya olacaqdır. Onun üçün çox illər yaşamaq lazımdır.

***

Demokratik, hüquqi dövlət qurarkən biz eyni zamanda əmin olmalıyıq ki, beynəlxalq aləmdə beynəlxalq hüquq normaları da təmin edilir və onların pozulmasına yol verilmir.

***

Biz humanist, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik.

Respublikamızda fikir, söz, insan azadlığı var və bunların hamısı bundan sonra da qorunub saxlanacaqdır. Ancaq bunların hamısı sağlam məfkurə əsasında, sağlam prinsiplər əsasında, Azərbaycan dövlətçiliyinin, qanunların qorunması prinsipləri əsasında olmalıdır.

***

Bəziləri, həmin bu müxalifətdə duranlar hesab edirlər ki, Azərbaycanda demokratiyanın daşıyıcıları yalnız onlardır və başqaları demokratiya yolu ilə gedə bilməzlər. Həyat göstərdi və qəbul olunan qanunlar, həyata keçirilən tədbirlər də onu göstərir ki, xeyr, həqiqi demokratiyanı elə biz həyata keçiririk. Azərbaycanda həqiqi demokratiya prinsiplərini biz möhkəmləndiririk.

***

Demokratiyanın daşıyıcıları Azərbaycanın ağıllı, zəkalı insanlarıdır, ziyalılarıdır. Azərbaycanda həqiqi demokratiya, qanun çərçivəsində olan demokratiya yolunda fədakarcasına çalışan insanlardır. Azərbaycan xalqının mənəviyyatıdır.

***

Mətbuat azadlığından, söz azadlığından sui-istifadə edib, xüsusən iqtidara qarşı cürbəcür böhtan, yalan yazanlar, uydurmalar yazanlar cinayət edirlər, onlar, sadəcə, xuliqanlıq edirlər. Ancaq xuliqanlıq, cinayət heç vaxt heç bir siyasi partiya üçün, heç bir qəzet üçün hörmət gətirə bilməz.

Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik.

***

Hansısa partiyanın, qüvvənin hakimiyyətə gəlməsinə heç kəs mane olmur. Ancaq bu, demokratiya yolu ilə, seçki yolu ilə olmalıdır. Amma o adamlar ki, indi qəzetlərdə müraciət edib insanları itaətsizliyə dəvət edirlər, dövlətə qarşı çıxışlar edirlər, onlar demokrat hesab oluna bilərmi? Onlar təxribatçıdırlar, cinayətkardırlar.

***

Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, sahibkarlıq azadlığı – bütün azadlıqlar təmin olunub. İnsan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir.

***

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

***

Mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq.

Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir.

***

Dünyada elə bir hakim yoxdur ki, kimin demokratlara, kimin isə antidemokratlara mənsub olduğunu söyləyə bilsin.

***

Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

***

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

***

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

***

Bizim respublika demokratiya dərsi keçir, demokratiya təlimi keçir. Demokratiya yolu ilə getmək üçün böyük bir yola, geniş bir yola çıxıbdır.

Azərbaycanın xarici siyasəti sülhpərvər siyasətdir.

***

Azərbaycan Respublikasında hər bir vətəndaş eyni hüquqa malikdir. Heç kəs keçmiş xidmətlərinə, vəzifəsinə, doğulduğu yerə görə, yaxud başqa səbəblərə görə müstəsna hüquqa malik deyil, ola da bilməz. Əgər kim isə hansısa bir vəzifəsindən, yaxud da iş, başqa bir mövqeyindən sui-istifadə edirsə, şübhəsiz ki, o özü-özünə, valideynlərinə, xalqına, doğulduğu yerə xəyanət edir.

***

Qanunun aliliyi təmin edilməlidir və hər bir vətəndaş qanuna tabe olmalıdır. Biz öz tərəfimizdən qanunun aliliyini təmin etməyə çalışacağıq və hər bir vətəndaşı qanuna tabe olmağa dəvət edirəm.

***

İndi artıq aydın görünür ki, hər bir vətəndaşın həyatı naminə respublikadakı bu cinayətkarların qarşısının alınması, ayrı-ayrı silahlı dəstələrin zərərsizləşdirilməsi, ayrı-ayrı qrupların aradan götürülməsi nə qədər lazım imiş. İndi insanlar rahat işləyirlər, yaşayırlar, istirahət edirlər.

***

Ayrı-ayrı insanlar, yaxud qruplar, dəstələr demokratiyanın insanlara verdiyi bütün azadlıqları bəzən özbaşınalıq, qanuna itaətsizlik, qanunu pozmaq, hərcmərclik, hətta tərbiyəsizlik kimi anlayırlar, yaxud da ki, bu cür anlamaq istəyirlər. Demokratiya yüksək mənəviyyat deməkdir.

Hər adam fikirini deyə bilər. Hər adam öz dünya baxışlarını bildirə bilər. Bunların heç birisi qadağan deyil və bizi narahat etmir. Biz özümüz demokratiyanı inkişaf etdiririk. Amma demokratiyanı istismar edib Azərbaycanda ictimai-siyasi vəziyyəti pozmağa çalışan, bundan sui-istifadə edən adamlara biz yol verməyəcəyik.

***

Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var!

***

Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir.

***

İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır!

***

Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər – ancaq Azərbaycanın Konstitusiyası çərçivəsində, Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində!

Biz heç kəsi təqib etməyəcəyik, gözümçıxdıya salmayacağıq. Əgər sən liberalsansa, əgər sən xalq cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var deməyəcəklər. Xalqa xidmət elə. Bax budur ideya, budur fəlsəfə.

***

Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir və bunu yerinə yetirməyə çalışırıq.

***

Kim bizim dövlətçiliyə, vətəndaşların hüququna, insanlara nəsə edəcəksə, biz onlara qarşı amansız olmuşuq və şübhəsiz ki, bundan sonra da amansız olacağıq.

***

Bu gün ən mühüm vəzifə Konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlarından bəhrələnməkdən ibarətdir.

***

Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.

***

Hansısa partiyanın, qüvvənin hakimiyyətə gəlməsinə heç kəs mane olmur. Ancaq bu, demokratiya yolu ilə, seçki yolu ilə olmalıdır. Amma o adamlar ki, indi qəzetlərdə müraciət edib insanları itaətsizliyə dəvət edirlər, dövlətə qarşı çıxışlar edirlər, onlar demokrat hesab oluna bilərmi? Onlar təxribatçıdırlar, cinayətkardırlar.

Azərbaycanda siyasi plüralizm var, demokratiya var və biz bunları inkişaf etdirəcəyik. Ancaq öz şəxsi ambisiyalarına görə, öz şəxsi məqsədlərinə görə Azərbaycanın dövlət mənafeyinə zərər gətirmək, ləkə vurmaq xəyanətdir, cinayətdir. Bilin ki, biz bunların qarşısını bundan sonra da qətiyyətlə alacağıq.

***

Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir.

***

Müstəqilliyimizin əbədiliyi üçün Azərbaycanda qanunların aliliyi təmin olunmalı, insanların hüquqları, azadlıqları qorunmalı, hər bir vətəndaşa sərbəstlik verilməlidir.

***

Demokratiyanın bütün tələblərini Azərbaycanda tətbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə, mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin qarşısı alınacaqdır və qanun çərçivəsində ölçülər götürüləcəkdir.

***

Bizim borcumuz Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını bu hürriyyət yolu ilə, azadlıq yolu ilə, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçularıyıq. Bu yolla da gedəcəyik.

Müstəqil Azərbaycanın Konstitusiyası ölkəmizdə yeni dövlət quruculuğu üçün, dövlət fəaliyyətinin və cəmiyyətin inkişafının gələcək modeli üçün hüquqi əsas yaratdı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün dərin təməli qoyuldu.

***

Biz Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, konstitusiyasını pozmağa yol verməyəcəyik. Azərbaycanın bütün vətəndaşları arxayın ola bilərlər ki, Azərbaycanın dövləti, onun Prezidenti verdiyi sözlərə, andına sadiqdir. Azərbaycan vətəndaşlarının hüquqları və onların əmin-amanlığı daim qorunacaqdır.

***

Bizim yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.

***

Müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir.

***

Bizim əsas problemimiz Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə, yurdlarına qaytarmaqdır.

Biz XXI əsrə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdırmaq istəyirik. Gələcək nəsillərə daha xoşbəxt həyat yaratmaq istəyirik. Azərbaycanın imkanlarından səmərəli istifadə edib, iqtisadiyyatı inkişaf etdirib, Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışırıq. Biz bundan sonra da dünya birliyində özümüzə məxsus olan yeri tutmağa, saxlamağa çalışacağıq. Biz dünyanın mütərəqqi dövlətləri, birlikləri ilə bundan sonra da əməkdaşlıq edəcəyik. Azad, sərbəst, demokratik ölkə kimi Azərbaycan inkişaf edəcək və Avropa ilə Asiyanın qovuşduğu bir yerdə öz tarixi xidmətlərini göstərəcəkdir.

***

Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə yox deyir...

***

Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər vətəndaşın Konstitusiyasıdır!

***

Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin.

***

Biz düz yolla, haqq yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.

Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi və milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir.

***

Bizim indiyə qədər yaranmış intellektual potensialımız, iqtisadi potensialımız, insanlarımızda indiyə qədər yaranmış olan qüdrət, cəsarət müstəqil Azərbaycanı yaşadacaq, nəsillərdən-nəsillərə verəcəkdir.

***

Azərbaycanın müstəqilliyinə zidd olan ölkələr, qüvvələr, cəmiyyətlər var. Bəli, dünyada elə qüvvələr var ki, Azərbaycanın müstəqil dövlət olmasını istəmirlər. Dünya da görür ki, səkkiz ildir Ermənistan Azərbaycana təcavüz edir Azərbaycana qarşı olan bu təcavüz ədalətsizlikdir. Bu, misli görünməmiş bir şeydir. Ancaq bunu dünyaya sübut etmək ki, Ermənistan Azərbaycana bu cür təcavüz edib və Ermənistan təcavüzkardır – bu asan məsələ deyildir. Çünki dünyada Ermənistanı dəstəkləyən, ona kömək edən, dayaq duran böyük ölkələr var.

***

Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi – Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt da razı olmayacağıq.

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz vətənimizi qoruyuruq.

***

İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir.

***

Bundan sonra Azərbaycanda silahla, zorakılıqla heç bir iş görmək olmaz.

***

Bizim Konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müəyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik!

***

Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır.

***

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

Azərbaycan hüquqi, demokratik dövlətdir. Azərbaycanda demokratiyanın, qanunun aliliyinin təmin olunması üçün bütün işlər görülür və görüləcəkdir. Bunların özü də xarici investorların Azərbaycanda işləməsi üçün əsas şərtlərdən biridir.

***

Azərbaycanda müxalifətdə olan partiyalar daim demokratiya haqqında danışırlar. Sən hələ Azərbaycan üçün bir iş görməmisən. Azərbaycanda demokratiyanı yaradan, inkişaf etdirən biz, Azərbaycanda islahatları həyata keçirən biz, Azərbaycanı dünyada tanıdan biz, bütün azadlıqları verən biz, indi necə oldu ki, siz demokrat oldunuz, iqtidar və Yeni Azərbaycan Partiyası antidemokratik oldu?

***

Azərbaycanda həqiqi demokratiya yaranıbdır, onu yaradan da Azərbaycanın iqtidarıdır, onun Prezidentidir.

***

Siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, sərbəst iqtisadiyyat, hər bir insanın tam azad olması, demokratik seçkilərin keçirilməsi, demokratiya prinsipləri əsasında dövlət təsisatlarının yaranması və müxtəlif islahatların həyata keçirilməsi. Demokratiya mücərrəd anlayış deyildir, bunlardan ibarətdir. Biz bunları etmişik və edirik. Əgər biz bunları etməsəydik, Azərbaycan ötən dövrdə ağır vəziyyətdən çıxıb indi bu səviyyəyə qalxa bilərdimi? Ona görə də həqiqi demokratiya iqtidarın yaratdığı demokratiyadır. Həqiqi demokratiya Yeni Azərbaycan Partiyasına mənsubdur.

Mən Azərbaycanın Prezidenti kimi ölkənin bütün vətəndaşlarının hüquq və azadlıqlarının təminatçısıyam.

***

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

***

Biz bundan sonra da Azərbaycan xalqının və dövlətinin humanizm, insanpərvərlik ideyalarına və prinsiplərinə, demokratiyaya, qanunun aliliyinə, insan hüquqlarına və əsas azadlıqlara hörmət bəslənilməsinə əsaslanan dəyərlərə sadiqliyini nümayiş etdirəcəyik.

***

Ölkəmizdə qəbul edilən qanunlar Avropa Şurası ekspertlərinin bilavasitə iştirakı ilə hazırlanır. Hüquq islahatları nəticəsində hər bir insan şəxsiyyət azadlığı və toxunulmazlığına, barəsində qaldırılmış işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə və açıq şəkildə araşdırılmasına, hüquq müdafiəsinə təminat almışdır. Ölkədə çoxpartiyalı sistem fəaliyyət göstərir, siyasi plüralizm, söz və vicdan azadlığı, azlıqların hüququ, qanun qarşısında bərabərlik və təqsirsizlik prezumpisiyası təmin edilir.

***

Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

***

İnsan ləyaqətinə, bötövlükdə insan hüquqları ideyasına zidd olan ölüm cəzasının tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

***

Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yer verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanunun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır.

***

Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikanın bir sənə bundan öncə başladığı yol davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir.

Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə aparaq, ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin. Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil, demokratik bir dövlət olacaq, həm də cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan islam dini – hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək.

***

Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır

***

Biz çalışacağıq ki, vətəndaşların konstitusiyadan irəli gələn hüquq və azadlıqları daim təmin olunsun, qorunsun.

Bəziləri belə hesab edirlər ki, Azərbaycanda demokratiya Böyük Britaniyada, Fransada, yaxud ABŞ-dakı kimi olsun. Biz bu səviyyəyə çatmağa çalışırıq. Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya – insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə tədricən gedir.

***

Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət qurulur, demokratik proseslər gedir və gedəcəkdir, demokratik cəmiyyət yaranır, Azərbaycanda siyasi plüralizm, insan azadlığı, insanlar üçün bütün azadlıqlar bərqərar olur. Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya üçün addımlar atacaqdır, öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Azərbaycanda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı, sahibkarlıq prinsipləri yaranacaq, bərqərar olacaq və inkişaf edəcəkdir.

***

Dağ yəhudiləri Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır, Azərbaycanda yaşayan dağ yəhudiləri bizim qardaşlarımızdır, həmçinin mənim də qardaşlarımdır.

***

Ölkədə vətəndaşlar azad olarlarsa, dövlət qüdrətli olar.

***

Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.

Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır.

***

Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır.

***

Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

***

Əgər sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər.



# ORDU QURUCULUĞU HAQQINDA

Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.

***

Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün onun güclü, müasir tələblərə cavab verən ordusu olmalıdır.

***

Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var.

***

Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müasir silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcəyik və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik.

***

Bizim gələcəyimiz gənclərdir. Biz bu gün müstəqil Azərbaycanın bütün sahələrində mümkün olan nailiyyətlər əldə etmək üçün çalışmalıyıq. Ancaq bu işləri görərkən mütləq Azərbaycanın gələcəyi haqqında düşünməliyik və düşünürük.

Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur.

***

Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik.

***

Son illər Azərbaycanda aparılan işlər ölkəmizin ordusunu gücləndiribdir. Bizim ordumuz indi Azərbaycan torpaqlarını qorumağa və Azərbaycana qarşı hər bir hərbi təcavüzün qarşısını almağa qadirdir.

***

Mən inanıram ki, Azərbaycan ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o, Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və qələbə qazanacaqdır.

***

Azərbaycan gənci erməni gəncindən aciz deyil, gücsüz, cəsarətsiz deyil, əksinə, azərbaycanlılar daha cəsarətli, daha qüdrətli və daha güclüdürlər. Ancaq bu insanı, bu gənci müharibə etməyə, silahdan istifadə etməyə öyrətmək lazımdır.

Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

***

İndi bizim əsas problemimiz Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə, yurdlarına qaytarmaqdır.

***

Gərək bizim hərbi hissələr və bu hissələrdə olan zabit, komanda heyəti o qədər yüksək səviyyəli olsun ki, bir il altı ay müddətində orduya səfərbər edilən hər bir azərbaycanlı gənci hərbi peşəyə alışdıra bilsin, onu öyrədə bilsin, gənclər hərbi peşəni sevsinlər və ordudan tərxis olunanda bir il altı aylıq xidmətini daim, həmişə böyük məhəbbət hissi ilə xatırlasınlar. Gələcəkdə harada yaşayacaqsa, harada xidmət edəcəksə, lazım olduqda yenə də səfərbər olub orduya gələrək sadəcə, adi insan kimi yox, hərbi hazırlıqlı şəxs kimi Azərbaycanın torpaqlarını müdafiə etsin, respublikamızın dövlət müstəqilliyini təmin etsin.

***

Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır.

Azərbaycan ordusu Azərbaycan xalqının, bütün dövlət orqanlarının, vətəndaşların diqqəti və qayğısı ilə əhatə olunmalıdır.

***

Orduda gərək dəmir nizam-intizam olsun. Nizam-intizam hər yerdə lazımdır. Amma ordu üçün bu, əsas şərtdir. Hər bir əsgər üçün, hər bir zabit üçün əsas şərtdir.

***

Azərbaycan Silahlı Qüvvələri Azərbaycanın torpaqlarını, dövlətçiliyini qorumalı və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi üçün üzərinə qoyulacaq vəzifələrin yerinə yetirilməsinə daim hazır olmalıdır.

***

Bir var ki, əlinə silah alıb vuruşan adam torpağını müdafiə etmək istəyir, şəhid olmağa hazırdır, amma silahdan istifadə etməyi, hərbi işi, hərbi peşəni bilmir, onun komandiri yoxdur, ona yol göstərən yoxdur.

***

İndi Azərbaycan ordusu mütəşəkkil, güclü bir qüvvədir. Azərbaycan ordusunda yaxşı, bilikli, bacarıqlı komandirlər heyəti yetişibdir.

***

Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır.

Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həll edilməsi, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işlər hələ çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri, daim hazır olmalısınız.

***

Bizim gələcəyimiz gənclərdir. Biz bu gün müstəqil Azərbaycanın bütün sahələrində mümkün olan nailiyyətlər əldə etmək üçün çalışmalıyıq. Ancaq bu işləri görərkən mütləq Azərbaycanın gələcəyi haqqında düşünməliyik və düşünürük.

***

Gənclərimiz idmanla, bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər güclü olacaqlar. Ən nəhayət, gənclərimiz təəssüflər olsun ki, indi müəyyən qədər yayılmış xoşagəlməz vərdişlərə uymayacaqlar.

***

Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq olmalıdır.

11 il çətin və ağır yollardan keçən Azərbaycan xalqı dövlət müstəqilliyini möhkəmləndirib, əbədi, dönməz edibdir. Bu yolda xalqımız böyük fədakarlıq göstərib, çox işlər görübdür. Onlardan ən mühümü Azərbaycan Milli Ordusunun yaranması, ordu quruculuğunun həyata keçirilməsi, Azərbaycan dövlətinin güclü, qüdrətli orduya malik olmasıdır.

***

Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müasir silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcəyik və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik.

***

Konstitusiyada hər bir vətəndaşın hüquqları və azadlıqları öz əksini tapıbdır, eyni zamanda hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Vəzifələr isə şübhəsiz ki, hər bir vətəndaşın özünün üzərinə düşən borcdur, məsuliyyətdir.

***

Gənclər ölkəmizin gələcəyi, onun iftixarı, onun ümididir.

***

Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.

Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir.

***

Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər döyüşə, hər vuruşa hazır olmalıyıq!

***

Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

***

Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

***

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

***

Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir.

***

Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır, ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik.

Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun.

***

Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısı olmuşdur və gələcəkdə də olacaqdır.

***

Mən inanıram ki, biz ordumuzun gücü ilə torpaqlarımızı azad edəcəyik.

***

Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik.

***

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz vətənimizi qoruyuruq.

***

Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarımızın müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır.

Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik.

***

Gənclər bilməlidirlər ki, 1941-1945-ci illər müharibəsində, dünya, bəşəriyyət tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhrəmanlıqları ilə xalqımızın hörmətini qaldırıblar, Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır.

***

Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.

***

Zəngin bir tarixə malik Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq çətin və ağır dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq.

***

Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha da çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir.

Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daimi yaşayacaqdır. Onların qəhrəmanlığı, şəhidliyi Azərbaycan Ordusunun əsgərləri üçün böyük örnək olacaqdır.

***

Azərbaycan xalqı qəhrəman xalqdır.

***

Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmamağımızı etiraf etməliyik.

***

Dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik!

***

Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır!

***

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik!

***

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhrumiyyətlərə düçar olsa da, qurbanlar versə də, mətin iradəsi sarsılmamışdır.

Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, Vətəni qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir.

***

Hər bir tayfanın, ordunun, dəstənin, hər bir millətin başında duranlar, sərkərdəlik edənlər çox şey həll edirlər.

***

Xalqımız bilməlidir ki, biz özümüz özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik.

***

Biz öz sərhədlərimiz çərçivəsində olan torpaqlarımızı göz bəbəyi kimi qoruyacağıq.

***

Mən Azərbaycan ordusunun bugünkü qüdrətinə arxalanıram, ona güvənirəm.

***

Azərbaycan Silahlı Qüvvələri, ordusu ağır bir proses keçibdir. Ordunun təşkil olunmasına çox maneələr, təsirlər göstərilibdir. Ancaq biz artıq bunların qarşısını almışıq. İndi Azərbaycan ordusu mütəşəkkil, güclü bir qüvvədir. Azərbaycan ordusunda yaxşı, bilikli, bacarıqlı komandirlər heyəti yetişibdir.

***

Bu gün böyük bir fərəh hissi ilə demək olar ki, Azərbaycan Ordusu bütün qoşun növləri üzrə inkişaf edir və təkmilləşir.

İndi Azərbaycan ordusunun müasir dövrə uyğun uğurlu müdafiəni təmin etmək, yaxud da müharibə aparmaq üçün düzgün strukturu yaranıbdır, hərbi hissələrin düzgün strukturu yaranıbdır. 1993-cü ilin noyabrından və 1995-ci ildən sonrakı dövr Azərbaycan ordusunun güclənməsi, möhkəmlənməsi dövrüdür. Bu gün mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, Azərbaycan ordusu böyük gücə, texnikaya, silaha, sursata malikdir və onun inkişaf etməsi üçün böyük imkanlar yaranıbdır.

***

18 yaşında gənc hələ tam formalaşmayıbdır. Onun tam formalaşması üçün bir neçə il lazımdır. Amma keçmişdə, bütün dövlətlərdə də belə olubdur ki, orduda xidmət, əsgərlik dövrü hər bir gənci möhkəmləndirir, cəsarətləndirir, onu daha dözümlü edir, bütün çətinliklərə dözməyə öyrədir. Bu, təbiidir. Çünki əsgər olmaq halva yemək, yaxud anasının hər gün bişirdiyi plovu yemək deyildir. Elə bütün ordularda əsgərlik asan məsələ deyildir.

***

Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il, yüz il də bundan sonra lazımdır. Bunun üçün planlı iş aparılmalıdır. Bunun üçün Azərbaycan ordusunun, Silahlı Qüvvələrinin qüdrəti hər gün artmalıdır. Onun qüdrəti təkcə qolun əzələlərindəki güc deyildir. Müasir texnika, texnologiya, silahlar, döyüş qaydaları, müharibə nəticəsində meydana çıxmış hərb elmi – bunların hamısını həm bizim hərbi ali məktəblərdə öyrətmək lazımdır, bunu həm də hər bir zabit hər gün özü öyrənməlidir, biliyini, hərbi elmini artırmalıdır.

Azərbaycan ordusu, Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Ancaq bu böyük gələcəyi təmin etmək üçün bu gün Azərbaycanın güclü ordusu olmalıdır. Bu ordu sabah ondan güclü, beş il sonra ondan da güclü, on il, on beş il sonra daha da güclü olmalıdır. Azərbaycan prezidenti və Ali Baş Komandan kimi, mən bu siyasəti aparıram və sizdən onu tələb edirəm. Buna nail olmaq üçün öz tərəfimdən əlimdən gələni etmişəm və bundan sonra da edəcəyəm.

***

Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və Vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər.

***

Gərək orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun. Gərək bizim orduda Azərbaycan dövlətçiliyinə, dövlətinə, Azərbaycan Ali Baş Komandanına daim sədaqət olsun.

***

Hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir, Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır.

Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının Milli ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır. Fəxr edə bilərsiniz, fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir.

***

Hər bir komandir, hər bir zabit əsgərə xidmət göstərməlidir. Əsgərə xidmət müdafiə nazirindən başlamış gizirə, çavuşa qədər hər birinizin borcudur. Əgər əsgərə qayğı, diqqət, atalıq münasibəti olmasa, ordunu yaratmaq mümkün deyil. Çünki ordunun əksəriyyətini təşkil edən əsgərlərdir.

***

Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik.

***

Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar. O gənclərin valideynləri bilməlidirlər ki, onların övladları ölkə, dövlət qarşısında öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirməlidirlər.

***

Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.

«Müstəqil Azərbaycan» ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir.

***

Bizim güclü ordumuz olmalıdır, hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini şərəf bilməlidir.

***

Azərbaycan öz oğullarına – təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər.

***

Bu gün hamı, ən əvvəl əli silah tuta bilən kişilər Vətənin müdafiəsinə qalxmalıdırlar.

***

Bilin ki, sizin hər birinizin arxanızda böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmişsiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır.

Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

***

Azərbaycan vətəndaşlarının, xalqın tam əksəriyyəti vətənpərvərlik, Vətəni müdafiə etmək, Vətənə sədaqət əhval-ruhiyyəsi ilə yaşayır və Vətən, torpaq yolunda şəhid olmağa hazırdır.

***

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpağının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!

***

Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır.

***

Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun. Vətəni qoruyun. Xalq, Vətən sizin şücaətlərinizi layiqincə qiymətləndirəcək və heç vaxt unutmayacaqdır.

Hər bir gənc ailəsindən, ata-anasının tutduğu vəzifədən, yaxud da maddi vəziyyətlərdən asılı olmayaraq Azərbaycan Milli ordusunda xidmət etməlidir.

***

Siz cəbhəyə yola düşərkən indi orada vuruşan Azərbaycan əsgərlərinin qəhrəmanlıq nümunələrini gözləriniz önünə gətirirsiniz. Bilirsiniz ki, son aylar Azərbaycan ordusu öz gücünü toplayaraq möhkəmlənmişdir. İndi ordumuzun hissələri Azərbaycan torpaqlarını etibarlı surətdə qorumağa qadirdir və düşmənlə döyüşə girişərək qəhrəmanlıqlar göstərir, erməni Silahlı Qüvvələrinə güclü zərbələr endirir, Vətənimizi, xalqımızı sədaqətlə müdafiə edirlər. İnanıram ki, siz gedib cəbhədəki qəhrəman döyüşçülərimizin sıralarına qoşulacaq, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün hünər, qəhrəmanlıq göstərəcəksiniz.

***

Biz öz inamımızı itirməməliyik, məsləkimizdən, tutduğumuz yoldan çəkinməməliyik. Tutduğumuz bu yol Azərbaycanın müstəqilliyidir, Milli azadlığıdır, müstəqil Azərbaycanın müstəqil dövlət kimi əbədi olmasıdır. Tutduğumuz yol bizim mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dinimizə, dilimizə, tariximizə sədaqətimizdir. Bunlara nə qədər sadiq olsaq, bugünkü ağır şəraitin səbəblərini bir o qədər dərk edəcək, bir-birimizə əl tutacağıq, kömək edəcəyik, erməni qəsbkarlarının qarşısını da alacağıq. Torpaqlarımızı da azad edəcəyik və xalqımızı, respublikamızı bu böhran vəziyyətindən də çıxaracağıq.

Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi müqəddəs vəzifəni yerinə yetirən Milli ordu bütün xalqın övladıdır və onun formalaşmasına, inkişafına müntəzəm qayğı və diqqət göstərmək hər bir dövlət təşkilatının, yerli orqanların, özəl qurumların, hər bir Azərbaycan vətəndaşının borcudur.

***

Xalq öz ordusuna inanır. Ordu düşmənə layiqli cavab verməlidir.

***

İndi biz belə bir qəti fikirdəyik ki, torpaqlarımızın azad olunması üçün sülh vasitələrindən istifadə etməliyik. Bu barədə danışıqlar aparırıq və bunlar sizə məlumdur. Ancaq etibarlı sülh əldə etməkdən ötrü bu gün üçün də, Azərbaycan dövlətinin gələcəyi üçün də güclü, qüdrətli ordumuz olmalıdır

***

Bizim ordumuz sağlam mənəviyyata malik adamlardan ibarət olmalıdır.

***

Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox! Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Bunun üçün də gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır.

Ümidvaram ki, ordumuz güclənəcək və möhkəmlənəcəkdir. Ümidvaram ki, bundan sonra fərarilik, ordudan yayınma olmayacaq. Belə hallar nəinki qanunla, həm də cəmiyyətimiz, ictimaiyyətimiz, ayrı-ayrı şəxslər tərəfindən pislənəcək və onların qarşısı alınacaq, gənclər gəlib dövlət orqanları qarşısında məsuliyyətə cəlb olunmayacaqdır. Biz bunu istəyirik. Bizim arzumuz, istəyimiz budur.

***

Azərbaycanın böyük gələcəyi var. Gələcək nəsillər haqqında düşünməliyik. Azərbaycanın gəncləri, gənc nəsli, Milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.

***

Bizim ordumuz böyük, kəşməkəşli, ziddiyyətli yol, ancaq ümumən şərəfli yol keçibdir. Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının milli ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

***

Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər.

Bu gün ordunun təchizatında çətinliklər, problemlər var. Biz bunları həll etməyə çalışırıq. Amma eyni zamanda, yerli hakimiyyət orqanları da, təsərrüfat kollektivləri də, müəssisələr də, iş adamları da ordunun qayğılarının həll olunması üçün orduya yardım etməlidirlər. Hər kəs orduya qayğı göstərməlidir, öz imkanlarından istifadə edib ordunun problemlərinin həll olunmasına çalışmalıdır, ordunun inkişaf etməsi üçün əlindən gələni əsirgəməməlidir.

***

Mən əminəm ki, bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır.

***

Orduda xidmət edən əsgərlər, borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə – ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.

***

Bəyan etmişik ki, biz atəşkəs rejimini qoruyub saxlayacağıq. Amma eyni zamanda, bizim ordumuz, Silahlı Qüvvələrimiz atəşkəsin pozulmasının, ərazimizə hücum edənlərin qarşısını almağa hər an, hər dəqiqə, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır. Ordumuz daim sayıq olmalıdır. Hər bir hərbi hissədə sayıqlıq yüksək səviyyəyə qaldırılmalıdır.

Bütün keçmiş dövlətlərdən fərqli, indi bizim ordumuz öz dövlətimizin, xalqımızın ordusudur. Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.

***

Hər bir zabit, komandir əsgərdən, özünə tabe olan zabitdən nizam-intizam tələb edərkən, qanun-qaydaya riayət etməyi tələb edərkən özü bu barədə nümunə göstərməlidir. Yüksək rütbəli zabitlərin, generalların nümunəsi, şübhəsiz ki, bütün orduda sağlam mühit, sağlam əhval-ruhiyyə, möhkəm nizam-intizam yaratmaq üçün əsasdır.

***

Azərbaycanın Silahlı Qüvvələrinin tərkibinə ilk illərdə soxulmuş və Silahlı Qüvvələrimizi içəridən dağıtmağa, parçalamağa, ölkəmizin milli mənafeyinə zərər vurmağa cəhd edən dəstələr, qüvvələr artıq zərərsizləşdiriliblər. Bizim Silahlı Qüvvələrimiz bu cür cinayətkar, xəyanətkar dəstələrdən, qruplardan, qüvvələrdən demək olar ki, təmizlənibdir. Ancaq eyni zamanda, sayıqlığı əldən vermək olmaz. Hələ heç də deyə bilmərik ki, bizim ordumuzun möhkəmlənməsinə maneçilik göstərən qüvvələr tamamilə ləğv olunubdur.

***

Ordumuzu, Silahlı Qüvvələrimizi cinayətkar, xəyanətkar qüvvələrdən, xarici ölkələrin təxribat, pozucu tədbirlərindən qorumalıyıq. Bu vəzifə bizim qarşımızda daim durur. Hər bir zabit, hər bir vəzifəli şəxs, eyni zamanda hər bir əsgər bunu bilməlidir.

İstəyirəm ki, bizim cəsur şahinlərimiz olsun, bu şahinlər öz məharətlərini bütün dünyaya göstərsinlər, o cümlədən, keçmiş illərdə bizim millətə bu sahədə bacarıqsız kimi qiymət verən adamlara göstərsinlər ki, azərbaycanlılar hər bir işin öhdəsindən gəlməyə qadirdirlər.

***

Azərbaycan xalqı istedadlı xalqdır, onun istedadı hərbi sahədə də ən yüksək səviyyədə ola bilər. Azərbaycanın istedadı, qabiliyyəti havanı, səmanı fəth etməkdə də ən yüksək səviyyədə ola bilər. Mən əminəm ki, bu, belə də olacaqdır. Çünki mən bizim Azərbaycan gənclərinin həm fiziki cəhətdən genetik keyfiyyətlərinin yüksək olmasını, həm də xaraktercə, xüsusiyyətcə cəsur olmasını yaxşı bilirəm. Bunu bir çox azərbaycanlılar dəfələrlə, tarix boyu öz cəsurluğu ilə dünyaya nümayiş etdiriblər. Mən tam əminəm ki, bu gündə, gələcəkdə də bizim gənclərimiz bunu nümayiş etdirəcəklər.

***

Ordu müstəqil dövlətimizin əsas atributudur.

***

Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya xüsusi qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik.

Arzu edirəm ki, hər bir Azərbaycan əsgəri, birincisi, vətənpərvərlik ruhu ilə yaşasın. İkincisi, əsgərlik dövründə hərbi peşəni tam mənimsəsin. Üçüncüsü, ordu nizam-intizamına həmişə sadiq olsun. Dördüncüsü, ordunun nüfuzunu, ölkəni, xalqı müdafiə etmək kimi şərəfli peşəni sevsin. Əsgərlik vaxtı qurtarandan sonra da, harada işləyib işləməməsindən asılı olmayaraq, istənilən vaxt yenə də ordu sıralarında durmağa hazır olsun.

***

Nizami ordunun döyüş qabiliyyəti günü-gündən yüksəlməlidir. Azərbaycanın nizami ordusu, milli ordusu respublikamızın ərazi bütövlüyünün, torpaqlarının müdafiəsinin və dövlətimizin müstəqilliyinin tam qarantı olmalıdır.

***

Cəmiyyətdə, gələcək həyatda hörmət qazanmaq istəyən gənc gərək mütləq əsgərlik borcunu yerinə yetirsin. Əsgərlik borcunu yerinə yetirmək hər bir azərbaycanlı gəncin müqəddəs vəzifəsidir.

***

Azərbaycan dövlətinin, dövlətçiliyinin, ərazimizin müdafiəsi ölkəmizin konstitusion əsaslarının qorunması hər bir əsgərin, zabitin, döyüşçünün borcudur. Zabitlərin öz peşəkarlıqlarını artırması, ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılması, hərbi hissələrdə sağlam mənəvi mühitin yaradılması və bütün yabançı meyllərin aradan qaldırılması komandirlərimizin, zabitlərimizin, Silahlı Qüvvələrimizin rəhbərlərinin müqəddəs vəzifəsidir. Bu vəzifələri gərək hamı yerinə yetirsin.

Özünü hərbi peşəyə həsr edən hər bir gənc anlamalıdır: bu peşəyə özünü nə üçün həsr edir? Çünki hərbi peşə başqa peşələrə nisbətən asan deyil, çətindir. Nə üçün  həsr edir? Demək, Vətəni qorumaq üçün, öz dövlətini, öz millətini qorumaq üçün! Hesab edirəm ki, hərbi təhsil alıb orduda xidmət etmək istəyən gəncin əsas məqsədi budur. Əgər siz hamınız həqiqətən bu məqsədi nəzərə alaraq özünüzü hərbi peşəyə həsr etmək istəyirsinizsə və hərbi məktəbə daxil olub ali hərbi təhsil almaq, bizim orduda, Silahlı Qüvvələrdə xidmət etmək istəyirsinizsə, demək siz sağlam mənəviyyata malik olmalısınız.

***

Sağlam mənəviyyat Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycan dövlətinə sədaqət, Azərbaycan xalqının bu gününə və gələcəyinə sədaqət, millətimizə sədaqət – bunlardan ibarət olmalıdır. Bu keyfiyyətlərə malik olmayanlar yaxşı olar ki, nə özlərini əziyyətə salsınlar, nə hərbi məktəbə gəlsinlər, nə də orduda xidmət etsinlər.

***

Azərbaycanın dövlətinə, müstəqilliyinə sədaqətli olmayan adam, xalqa xidmət etməyi özünə şərəf kimi qəbul etməyən adam Silahlı Qüvvələrdə xidmət edə bilməz. Sizin hər biriniz bilməlisiniz ki, mənəvi dəyərlərə, mənəvi keyfiyyətlərə malik olmasanız, bütün başqa biliklərinizə baxmayaraq, siz müstəqil Azərbaycan ordusunun dəyərli zabiti, dəyərli döyüşçüsü ola bilməzsiniz.

Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir.

***

Azərbaycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir, işğal olunmuş torpaqlar azad olunmalıdır. Bu, Azərbaycan dövlətinin üzərinə düşən vəzifədir və bunun icraçıları Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycan ordusudur, Azərbaycan əsgərləridir. Siz hər an, hər dəqiqə Azərbaycan dövlətinin bu qərarını, üzərinizə düşən bu vəzifəni yerinə yetirməyə hazır olmalısınız.

***

Azərbaycan Silahlı Qüvvələrində xidmət edən şəxslər gərək anlasınlar ki, onlar Azərbaycan ordusunun bütün tələblərinə uyğun xidmət etməlidirlər və yaşamalıdırlar. Əgər buna qadir deyillərsə, bu xidmətdən uzaqlaşmalıdırlar. Kiminsə Azərbaycan ordusunda xidmət etməsi özünün şəxsi mənafelərini təmin etmək məqsədi daşıyırsa, belələrini aşkar etmək lazımdır, uzaqlaşdırmaq lazımdır.

***

Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun, Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın.

Bizim ordumuzda xidmət edən zabit heyəti – generallar, zabitlər birinci növbədə özlərinə qarşı tələbkar olmalıdırlar. Özləri yüksək mənəviyyat, yüksək vətənpərvərlik, yüksək qəhrəmanlıq nümunələri göstərməlidirlər. Bu nümunələr əsasında da əsgərləri, bütün ordumuzu tərbiyə etməlidirlər, hazırlamalıdırlar.

***

Biz gələcəyə baxmalıyıq. Həm bu günümüz, həm də gələcəyimiz üçün Azərbaycanda güclü, yüksək səviyyəli zabitlər yaratmalıyıq. Azərbaycanda zabitlər korpusu gərək böyüsün və inkişaf etsin. Azərbaycanın dövlət müstəqilliyi daim qorunmalıdır. Bunun üçün bizim yüksək səviyyəli peşəkar ordumuz və yüksək səviyyəli zabitlərimiz olmalıdır.

***

Zabitlərin əməyinə, xidmətinə Azərbaycan dövləti tərəfindən verilən yüksək qiymət və göstərilən qayğı onları daha da yaxşı işləməyə dəvət edir və Azərbaycan gənclərini  də zabit peşəsinə yiyələnmək üçün həvəsləndirir. Azərbaycan gəncləri Silahlı Qüvvələrdə xidmət etmək, Vətəni qorumaq  peşəsinə daha da həvəslə gəlməlidirlər. Müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi ən şərəfli peşədir. Bugünkü zabitlərin simasında onların keçdiyi həyat yolunun nə qədər maraqlı olduğunu görən Vətəni qorumaq peşəsinə daha da çox  qoşulmalıdır. Mən gəncləri bu peşəyə yiyələnməyə dəvət edirəm.

Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var.

***

Vətəninə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir.

***

İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır.

***

Gənclik illəri sonra ələ düşməyən illərdir. Yaş artdıqca, insan bu illəri həmişə böyük həsrətlə xatırlayır. Siz gənclər bəlkə də bunu indi dərk edə bilmirsiniz, ancaq biz – yaşlı insanlar bunu çox yaxşı bilirik. Hər bir yaşlı insan öz gəncliyini daim məhəbbətlə xatırlayır və eyni zamanda gəncliyi dövründə itirdiyi günlərə, səmərəsiz keçmiş günlərə görə özünü daim qınayır, heyfislənir. Gələcəkdə özünüzü qınamamaq üçün, gəncliyinizdə nəyisə etmədiyinizə görə heyifsilənməməyiniz üçün mən sizə məsləhət edirəm: gənclik günlərindən, aylarından, gənclik illərindən səmərəli istifadə edin, boş yerə vaxt sərf etməyin, yaxşı oxuyun, yaxşı təhsil alın. Özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın.

Orduda xidmət etmək hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır. Valideynlər öz övladlarını tərbiyə edərkən onlara verdikləri nəsihətlər içərisində ən birinci nəsihət, ən birinci valideyn tapşırığı oğlunun orduda xidmət etməsi olmalıdır. Hər bir Azərbaycan oğlu uşaqlıqdan orduda xidmət etməyi arzulamalıdır. O, bunun üçün çalışmalı, tələsməli, orduda xidmət yaşının çatmasını həsrətlə gözləməlidir və orduda xidmət edərək Vətən, millət qarşısında öz şərəfli borcunu verməlidir.

***

Əziz gənclər!

Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!

***

Bizim güclü ordumuz olmalıdır. Ona görə yox ki, biz yenidən hərbi əməliyyatlara başlamaq istəyirik. Yox, sadəcə olaraq, müstəqil Azərbaycan Respublikasının özünəməxsus güclü ordusu olmalıdır.

***

Azərbaycan Respublikasının indiki vaxtında orduda xidmət etməkdən, Vətənin müdafiəsində durmaqdan şərəfli peşə yoxdur... Bütün Azərbaycan xalqı bu yolu tutan övladlarına minnətdar olacaqdır.

Vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü qorumaqdır. Dövlət səviyyəsində bunun üçün müxtəlif tədbirlər görülür. Biz çalışırıq ki, siyasi vasitələrdən istifadə edək. Ordumuzun borcu isə ondan ibarətdir ki, dövlətimizin siyasətini səmərəli etmək üçün öz gücünü artırsın, bu siyasi tədbirlərin, danışıqların müsbət nəticə verməsinə mühüm kömək edir.

***

İndi gərək bütün əhali, Azərbaycanın bütün vətəndaşları, hər bir kəs ordunun möhkəmləndirilməsinə, onun daha da qüdrətli olmasına çalışsın.

***

Azərbaycan hər birimizin vətənidir, hər kəs, hər bir vətəndaş öz vətəninin keşiyində durmalıdır. Başqa yol yoxdur. Başqa yol ola bilməz.

***

Azərbaycan Respublikası müstəqil bir dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır... Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaranması bizim əsas vəzifəmizdir.

***

Mən qələbəmizə inanıram. Qələbəni biz birlikdə təmin etməliyik. Bu nurlu günün yaxınlaşmasında ordumuza hər kəs əlindən gələn köməyi göstərməlidir.

Güclü orduya malik olmağımız müharibə vəziyyətindən sülh yolu ilə çıxmağımız üçün də böyük zəmin yaradacaqdır. Ona görə də güclü ordu yaradaraq respublikanın etibarlı müdafiəsini təşkil etmək, eyni zamanda sülh danışıqlarını qüvvəmizə arxalanaraq aparmaq istəyirik.

***

Hər birimiz, sizinlə birlikdə mən də Vətən yolunda, xalqımızın gələcəyi naminə özümüzü qurban verməyə hazır olmalıyıq.

***

Xalqımız öz Silahlı Qüvvələrindən əsl qəhrəmanlıq və rəşadət nümunələri gözləyir. Düşmən bizim öldürücü zərbəmizi hiss etməyincə, öz qara və çirkin əməllərindən əl çəkməyəcəkdir.

***

Gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi özünə şərəf kimi qəbul etsin.

***

Nailiyyətlərimiz ondan ibarətdir ki, Azərbaycan ordusu artıq formalaşıb, qurulub və dövlətçiliyimizin, dövlətimizin ərazisini, müstəqilliyini qorumağa qadirdir.

***

Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır.

Biz sülhsevər xalqıq, problemləri sülh yolu ilə həll etmək istəyirik. Ancaq, eyni zamanda, əgər bu yollar bizim respublikamızın ərazi bütövlüyünü təmin etməsə, işğal olunmuş torpaqlarımız azad olunmasa, respublikamızın dövlət sərhədləri bərpa olunmasa, biz sərəncamımızda olan bütün imkanlardan istifadə edəcəyik və etməyə qadirik ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü tamamilə təmin olunsun.

***

Bütün dünyaya məlumdur ki, biz sülh tərəfdarıyıq, müharibəyə son qoymaq istəyirik, döyüşlərin bir daha baş verməsinin tərəfdarı deyilik. İşğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə nail olmağa çalışırıq, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasına nail olmağa çalışırıq.

***

Ordu quruculuğu işində qarşıda duran vəzifələri layiqincə yerinə yetirməliyik. Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir. Bu sözləri həyata keçirmək, buna nail olmaq üçün müstəqilliymizi həmişə qoruya bilən güclü ordu olmalıdır.

***

Bizim ordumuz, Silahlı Qüvvələrimiz atəşkəsin pozulmasının, ərazimizə hücum edənlərin qarşısını almağa hər an, hər dəqiqə, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır.

Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir. Ordunun möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün dövlət tərəfindən, Azərbaycan Prezidenti tərəfindən lazımi qayğı və diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir.

***

Ordu bizim doğma ordumuzdur, ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır, ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik.

***

Bizim məqsədimiz ondan ibarətdir ki, ordumuz daha da güclü olsun, daha da nizami olsun və qarşımızda duran bütün vəzifələri həll edə bilsin.

***

Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər.

***

Azərbaycanın dövlət quruculuğunda əsas vəzifələrdən biri güclü ordumuzun yaradılmasıdır. Azərbaycan bir tərəfdən Ermənistanın təcavüzünə məruz qaldığına görə, ikinci tərəfdən, təkcə bu gün yox, gələcəkdə də həmişə öz torpaqlarını, öz mənafelərini qorumaq üçün güclü orduya malik olmalıdır.

İndi bizim ordumuzun səviyyəsi yüksəkdir. Ancaq, eyni zamanda, bəzi hallarda biz ayrı-ayrı hissələrdə bir çox nöqsanlara, qanun pozuntularına və başqa mənfi hallara da rast gəlirik. Bəzi komandirlərin öz vəzifələrindən sui-istifadə etməsi hallarına da rast gəlirik. Hətta ordumuzda bəzilərinin tabeliyində olan adamlardan rüşvət alması hallarına da rast gəlinir. Nə qədər acı olsa da, mən bunu etiraf edirəm. Biz bu mənfi hallarla, nöqsanlarla mübarizə aparmışıq və bundan sonra da aparacağıq. Hər kəs bilməlidir ki, orduda xidmət ilə heç bir mənfi hal bir araya sığa bilməz.

***

Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti, dövlət müstəqilliyimizi daim qoruyub saxlayacağıq. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir.

***

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü milli ordu yaranıbdır. Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir.

***

Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir.

Müstəqil Azərbaycan Respublikasının getdikcə güclənməsi, azad, varlı və demokratik bir ölkəyə çevrilməsi həm də dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan xalqına və dövlətinə mənsubluq hissinə mütəşəkkillik, yenilik və daimilik gətirəcək, həm də bütün dünyada onların vətəndaş və milli haqlarının daha dolğun təmin olunmasına, qorunmasına təkan verəcəkdir.

***

Biz əldə etdiyimiz nailiyyətlər haqqında danışarkən, eyni zamanda, heç də həyatımızda olan çətinlikləri, problemləri, çatışmazlıqları, nöqsanları gizlətmək məqsədi daşımırıq. Biz onları Azərbaycan vətəndaşlarına da, bütün dünyaya da açıq-aydın etiraf edirik. Məhz bu yol ilə biz Azərbaycan qarşısında duran problemləri həll edə və ölkənin inkişafını təmin edə bilərik.

***

Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur. Demokratik prinsiplər bu günümüzün, gələcəyimizin əsasını təşkil edəcəkdir.

***

Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən.

Bizim güclü ordumuz, bundan sonra daha da güclənəcək ordumuz Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməyə, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir.

***

Ordu xalqındır və ordu xalq üçündür, dövlət üçündür, millət üçündür.

***

Azərbaycan ordusu bundan sonra daha da güclü, daha da qüdrətli ordu olacaqdır.

***

Bizim əsas vəzifələrimizdən biri də Azərbaycanda vətənpərvərlik ruhunu yüksəltmək, orduda vətənpərvərlik ruhunu yüksəltmək və hər bir vətəndaşda hərbi vətənpərvərlik ruhunu yüksəltməkdir.

***

Azərbaycan xalqı, onun yaratdığı dövlət, onun yaratdığı Silahlı Qüvvələr böyük sınaqlardan, çətinliklərdən keçərək, böyük itkilər verərək Azərbaycanın dövlət müstəqilliyini ilbəil yaşadıb, möhkəmləndirib, inkişaf etdirib və artıq indi dönməz vəziyyətə gətirib çıxarıbdır.

***

Hər bir azərbaycanlı gənc orduda xidmət etməkdən şərəf hissi duymalı, fəxr etməlidir ki, ona müstəqil dövlətimizi və torpaqlarımızın toxunulmazlığını qorumaq kimi ən şərəfli vəzifə etibar olunub.

Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini, müstəqilliyini qorumaq üçün lazımdır.

***

Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin, bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycanın dövləti, Azərbaycanın Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir.

***

Azərbaycan bu gün güclü orduya malikdir və Azərbaycan torpaqlarının qorunmasına qadir olan ordumuz var.

***

Müstəqil Azərbaycanda və xüsusən də biz orduda qanun-qayda yaradandan sonra, orduda sistemli olaraq kadr hazırlığına başlayandan sonra hərbi peşəni mənimsəmək və özünü hərbi peşəyə həsr etmək istəyən gənclərimiz çoxalır. Bu, bizim ordumuzun bu günü və gələcəyi üçün çox əhəmiyyətli bir hadisədir.

***

Azərbaycanın torpaqlarını, mənafeyini müdafiə etməyə qadir olan əsgərlərimiz, zabitlərimiz, milli ordumuz vardır.

***

Azərbaycanın dövlət quruculuğunda əsas yerlərdən biri güclü ordumuzun yaradılmasıdır.

Azərbaycan bir tərəfdən Ermənistanın təcavüzünə məruz qaldığına görə, ikinci tərəfdən, təkcə bu gün yox, gələcəkdə də həmişə öz torpaqlarını, öz mənafelərini qorumaq üçün güclü orduya malik olmalıdır.

***

Azərbaycan Respublikasının indiki vaxtında orduda xidmət etməkdən, vətənin müdafiəsində durmaqdan şərəfli peşə yoxdur. Bütün Azərbaycan xalqı bu yolu tutan övladlarına minnətdar olacaqdır.

***

Hərbi məktəbdə təhsil almaq istəyən hər bir kəs verdiyi vədə və içdiyi anda sadiq olmalıdır.

***

25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq fikri irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da mən həyatımda gördüyüm işlər içində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm.

***

Xəzərdə heç kəslə müharibə etmək niyyətində deyilik. Ancaq bu o demək deyildir ki, bizə güclü Hərbi Dəniz Qüvvələri lazım deyil. Bizə güclü HDQ lazımdır, ona görə ki, dövlətimizin strateji maraqlarını Xəzərdə qoruya bilək, neftçıxarma dəniz rayonlarını və dəniz kommunikasiyalarını hər hansı təcavüzdən, təxribatdan və digər çirkin niyyətlərdən mühafizə və müdafiə edək.

Mən inanıram ki, Azərbaycan Ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və qələbə qazanacaqdır.

***

Ordumuza yeni nəsillər, zabit nəsilləri sistemli olaraq gəlir. Bunların hamısı bizim ordumuzu ilbəil gücləndirir, onun qüdrətini artırır.

***

Ordunun ordu olmasının əsas amili nizam-intizamdır.

***

Silahlı Qüvvələrimizin vəzifəsi bütün ölkələrdə olduğu kimi, öz ölkəsinin, Azərbaycanın müstəqilliyini qorumaq, suverenliyini qorumaqdır.

***

Bizim Silahlı Qüvvələrimizdə hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Mənəvi saflıq insanı daim yüksəldir və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmlənməsi üçün əsas meyardır.

***

Bizim ordumuz möhkəmlənməlidir. Möhkəmlənməlidir ki, Azərbaycan ölkəsinin özünə layiq qüdrətli ordusu olsun. Möhkəmlənməlidir ki, Azərbaycan ordusu bu gün də, gələcəkdə də ölkəmizə qarşı mümkün olan təcavüzün qarşısını alsın. Möhkəmlənməlidir, ona görə ki, ordumuz Azərbaycanı daima qoruya bilsin.

Ordumuz sağlam ordu olmalıdır. Azərbaycan xalqının milli-mənəvi dəyərləri əsasında tərbiyələnən, möhkəmlənən, hazırlanan və inkişaf edən ordu olmalıdır.

***

Ordu peşəkar zabitlər, komandirlər tərəfindən idarə olunmalıdır.

***

Müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

***

Ordu Azərbaycan dövlətinin dövlətçiliyinin siyasəti əsasında yaşamalıdır, fəaliyyət göstərməlidir.

***

Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır.

***

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

***

Müstəqilliyimizi həmişə qoruya bilən güclü ordumuz olmalıdır.

***

Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir.

Bizim ordumuz öz dövlətimizin, xalqımızın ordusudur.

***

Qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.

***

Hər kəs orduya qayğı göstərməlidir, öz imkanlarından istifadə edib ordunun problemlərinin həll olunmasına çalışmalıdır. Ordunun inkişaf etməsi üçün əlindən gələni əsirgəməməlidir.

***

Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır.

***

Ordu dövlətin, xalqın, millətin qayğısı ilə əhatə olunmalıdır.

***

Silahlı Qüvvələrdə Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə sədaqətli, sağlam mənəviyyatlı insanlar xidmət etməlidirlər.

***

Ordu Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yaranıb. Ona görə də hər bir vətəndaş ordu sıralarında xidmət etməyi özünə şərəf bilməlidir.

Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır.

***

Ordu xalqımızın tərkib hissəsidir.

***

Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.

***

Müstəqil Azərbaycan dövləti hər bir Azərbaycan əsgərinin, bütövlükdə Azərbaycan Silahlı Qüvvələrinin xidmətini qiymətləndirməyə qadirdir.

***

Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir – yəni hərbi peşədir.

***

Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş dövlətimizi, xalqımızı, torpaqlarımızı qorumağa qadir olan silahlı qüvvələri var.

***

Azərbaycan Ordusu böyük gücə, texnikaya, silah-sursata malikdir və onun inkişaf etməsi üçün böyük imkanlar yaranıbdır.

Azərbaycan Ordusunun, Silahlı Qüvvələrinin qüdrəti hər gün artmalıdır.

***

Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il, yüz il də bundan sonra lazımdır.

***

Azərbaycanın nizami ordusu var, Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş Sılahlı Qüvvələri var, Azərbaycan dövlətini, dövlətçiliyini və bütün mənafelərini, torpaqlarını qorumağa qadir ordusu var və bu ordu peşəkar hərbçilər, peşəkar zabitlər tərəfindən idarə olunur.

***

Bizim ordumuz – bu günün, gələcəyin ordusudur.

***

Azərbaycan inkişaf edir, yüksəlir, güclənir və o cümlədən Azərbaycanın Silahlı Qüvvələri güclənərək daha da qüdrətli olur.

***

Azərbaycan Silahlı Qüvvələrində, Azərbaycan ordusunda hər bir zabit, hər bir komandir, hər bir yüksək vəzifəli şəxs bilməlidir ki, o, sədaqətlə xidmət etməlidir.

***

Azərbaycan ordusunun öz peşəkarlığının səviyyəsini qaldırması ən başlıca vəzifədir.

Azərbaycan ordusunda xidmət etmək, zabit olmaq, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin, Azərbaycan torpaqlarının keşiyində durmaq peşəsini şüurlu olaraq seçmiş gənclərə böyük ümid bəsləyirəm.

***

Orduya qayğı, hörmət, cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

***

Azərbaycan əsgərinin birinci vəzifəsi xalqına, torpağına, millətinə sədaqətlə xidmət etməkdir.

***

Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərindən əlavə, ən yüksək keyfiyyəti vətənə, millətə, torpağına daim sədaqət hissi ilə yaşaması və xidmət etməsidir. Bu, hər bir ölkənin əsgərinin borcudur.

***

Hər bir gənc ailəsindən, ata-anasından, tutduğu vəzifəsindən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq, Azərbaycan milli ordusunda xidmət etməlidir.

***

Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi – o yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır.

Sizin qarşınızda çox böyük vəzifələr durur. Siz bu illər aldığınız təhsili, qazandığınız təcrübəni gərək Azərbaycanın xidmət edəcəyiniz hərbi hissələrində səmərəli istifadə edəsiniz. Birincisi, siz gərək öz xidmətinizlə sübut edəsiniz ki, dörd il müddətində aldığınız təhsil həqiqətən Azərbaycan ordusunun peşəkarlığını, səviyyəsini qaldırmağa xidmət edəcəkdir. İkincisi, gərək hər bir hərbi hissədə əsgərlər üçün, zabitlər üçün nümunə olasınız. Çünki siz müstəqil Azərbaycanın milli ordusunun, milli hərbi məktəbinin məzunlarısınız. Bu, çox şərəfli addır.

***

Əgər bu hərbi məktəb olmasaydı, bizim ordumuzdakı zabitlərin çoxu yəqin olmayacaqdı. Çünki bu zabitlərin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra bir ildə təxminən 800-900 nəfər gənc azərbaycanlını Sovetlər İttifaqının ali hərbi məktəblərinə göndərirdik. O cümlədən, Bakıda yerləşən iki ali hərbi məktəbdə – onlar indi bizim ixtiyarımızdadır – zabitlər hazırlayırdıq. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir, onlar bu gün də xidmət edirlər. Bu işləri biz vaxtında görmüşük. O dövrdə bizim imkanımız məhdud idi, amma bunları etmişik. Amma bu gün isə hər şey bizim əlimizdədir və çalışmalıyıq ki, bu imkanımızdan istifadə edib güclü ordu yaradaq.

***

Ölkəmizin hər bir gənci – Azərbaycan xalqına, millətinə xas olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir.

Qüdrətli bir ordunun yaranması bizim əsas vəzifəmizdir.

***

Bizim keçmişdə də orduda xidmət etmək sahəsində böyük ənənələrimiz olub. Məsələn, XIX, XX əsrləri götürsək, Azərbaycan çar Rusiyasının tərkibində olarkən xalqımızın çox dəyərli şəxsiyyətləri orduda yüksək rütbələrdə xidmət etmişlər, general rütbəsi almışlar. Biz bu gün də general Mehmandarovla, general Əliağa Şıxlinski ilə, yaxud Talışxanovla, Bakıxanovla, Ağalarovla fəxr edirik. Bizim vaxtilə belə sərkərdələrimiz olublar. Onlar bizim tariximizə yazılıblar. Biz onları böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq.

***

Bizim ordumuzda milli aviasiya sahəsini də özümüzün milli mütəxəssislərimizlə, azərbaycanlılarla yarada bilərik. Bunlar artıq yaranıbdır və bu gün də sizinlə ilk görüşə gəlmişik. Bu, Azərbaycan Milli Ordusunun bu sahədə ilk addımıdır. Amma hesab edirəm ki, bu çox yaxşı başlanğıcdır. Bunun böyük gələcəyi var. Mən bu gələcəyi açıq-aydın görürəm. Əgər biz bu qısa müddətdə azərbacanlılardan, Azərbaycan gənclərindən təyyarələri, hərbi təyyarələri, döyüş təyyarələrini idarə edə bilən və havada döyüş apara bilən, yaxud hava qüvvələri ilə ölkəmizin müdafiəsini təmin edə bilən mütəxəssislər hazırlaya bilmişiksə, bu böyük nailiyyətdir.

***

Ordu müstəqil dövlətimizin əsas atributudur.

Bizim ordumuzun çox zəngin tarixi ənənələri olubdur. İstər çarizm dövründə, istərsə də sovet məkanında çoxları bizim xalqın sərkərdələrinə, qəhrəmanlarına həsəd aparıblar. İkinci Dünya müharibəsinin tarixindən öyrənirik ki, Hitler faşizminə qarşı mübarizədə yüz minlərlə igid azərbaycanlı öz sözünü demiş, düşmənə layiqli cavab vermişdir. Məhz həmin müharibə dövründə Həzi Aslanov, Akim Abbasov, Mahmud Əbilov kimi böyük sərkərdələrimiz olubdur. Doğrudur, bunlar müstəqil Azərbaycanın olmayıbdır, amma Azərbaycanın mənsub olduğu dövlətə, orduya xidmət ediblər.

***

Xalqımızın, dövlətimizin ən ümdə məqsədi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerlərindən, yurdlarından didərgin düşmüş vətəndaşlarımızın evlərinə qayıtmasını təmin etməkdir. Biz bu yolda sülh addımlarımızı bundan sonra da davam etdirəcəyik, buna nail olmaga çalışacağıq. Eyni zamanda xalqımız, ordumuz bilməlidir ki, biz torpaqlarımızın bir qarışını belə heç kimə güzəşt edə bilmərik. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq.



# İQTİSADİYYAT HAQQINDA

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

***

Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır.

***

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir.

***

Neft – Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur.

***

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdür.

***

Azərbaycan neftçiləri, alimləri, geoloqları öz xalqının təbii sərvətlərinin aşkar edilməsi üçün dəyərli işlər görmüş, böyük neft və qaz yataqları açmışlar və bunlar da indi müstəqil Azərbaycan dövləti üçün böyük proqramlar tərtib etməyə əsas yaradır.

Sahibkarlar Təşkilatının Milli Konfederasiyası ictimai təşkilat kimi ölkədə sahibkarlığın inkişafına kömək sahəsində güclü dövlət siyasətinin gerçəkləşdirilməsində, iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsində, sahibkarlığın və iş adamlarının hüquqi və qanuni mənafelərinin qorunmasında, ölkədə əhalinin hüquq mədəniyyətinin formalaşdırılmasında və işgüzar fəaliyyətinin gücləndirilməsində fəal rol oynayır.

***

Əgər biz istəyiriksə, doğrudan da, həqiqətən respublikamızın təbiətindən, torpağından, suyundan, havasından, kənd təsərrüfatı imkanlarından maksimum istifadə edək, xalqımızın rifahını yaxşılaşdıraq, iqtisadiyyatı yüksəldək, kənd əhalisinin rifahını yaxşılaşdıraq, onda biz bazar iqtisadiyyatı yolu ilə getməliyik. Başqa üçüncü yol yoxdur.

***

Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.

***

Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır.

***

Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi və regionallaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir.

Bizim iqtisadi siyasətimiz məlumdur. O, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır.

***

Bu gün bir daha bəyan edirəm ki, bazar iqtisadiyyatının inkişaf etdirilməsi üçün Azərbaycan dövləti, hökuməti tərəfindən bundan sonra da lazımi tədbirlər görüləcəkdir.

***

Respublikamızda iqtisadi islahatlar həyata keçirilir və insanların təşəbbüskarlıq, sahibkarlıq addımları dövlət və hökumət tərəfindən bəyənilir, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradılır.

***

1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

***

Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdik.

1994-cü ildən indiyə qədər biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması üçün həddən ziyadə çox iş görmüşük. Bu qərarı bizimlə Türkiyə və Gürcüstan qəbul etmişdi. Məmnuniyyət hissi ilə demək istəyirəm ki, Azərbaycanda işləyən böyük neft şirkətləri və onların mənsub olduğu ölkələr – ABŞ, Böyük Britaniya, Fransa məhz bu marşrutu dəstəkləmişlər.

***

Biz bazar iqtisadiyyatı yolu ilə cəsarətlə getməliyik!

***

Azərbaycan dövlətinin neft strategiyası artıq müsbət nəticələrini verir, dünyada tanınır və Azərbaycanın müstəqil, azad inkişaf etməsinin əsasını təşkil edən amillərdən birinə çevrilir.

***

Ümidvaram, Azərbaycan iqtisadiyyatını yüksəldəcəyik və Azərbaycanın böyük təbii sərvətləri, xüsusən neft-qaz yataqları, başqa təbii sərvətləri, iqtisadi potensialı, elmi intellektual potensialı xalqımızın rifahı naminə istifadə olunacaqdır.

***

Azərbaycanın ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş zəngin neft və qaz yataqlarının mövcud olması bizim bugünkü və gələcək işlərimizin əsasını təşkil edir.

Bir Prezident kimi mən iqtisadiyyatda dövlət siyasətini müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır.

***

Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

***

Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir.

***

Biz düz yolla, haqq yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.

***

Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

***

Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səyləri və ehtiyatları birləşdirmədən, təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz.

Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik.

***

Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəlmək üçün bu, yeganə bir yoldur.

***

Azərbaycan Respublikasının böyük potensialı var, bu iqtisadi potensialdan səmərəli istifadə etmək bizim vəzifəmizdir.

***

Özəl sektorun inkişafı dövlət mülkiyyətinin dağıdılması yolu ilə yox, dövlət mülkiyyətinin qanun-qayda ilə, ədalətlə özəlləşdirilməsi yolu ilə getməlidir.

***

Dövlət adamları kimi bizim vəzifəmiz milli sərvətimizə son dərəcə qənaətlə və qayğı ilə yanaşmaqdır.

***

Yer üzərindəki təbii sərvətlər təbiət, İlahi tərəfindən yaradılıbdır. Ancaq torpağın, yerin, kürreyi-ərzin üzərində yüz illərlə, min illərlə qurulanlar insanların zəhməti, iradəsi, zəkası onların əlləri ilə yaradılıbdır.

Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi, regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir. Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

***

Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının ən dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin Vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşdür.

***

Sovet İttifaqında əslində bütün yataqların kəşfi və işlənməsi Azərbaycan alimləri və neftçilərinin əməyi, səyləri ilə bağlıdır.

***

Torpaq şəxsi mülkiyyətdə olanda həmin torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır.

***

Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, şübhəsiz ki, insanlara təşəbbüs göstərmək imkanı verir, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaradır. Lakin bütün bunlar oğurluq, əyrilik, fırıldaq, başqasının dövlətini, xalqın malını oğurlamaq yolu deyil, qanun çərçivəsində, doğru-düzgün yolla, ədalət yolu ilə olmalıdır.

Bazar iqtisadiyyatına keçmək, sərbəst iqtisadiyyata keçmək illər boyu milyonlarla insanın əlinin qabarı, zəhməti ilə, alın təri ilə yaradılmış bu sərvətləri ayrı-ayrı oğrular tərəfindən dağıtmaq demək deyildir.

***

Mən sahibkarlığa, sərbəst ticarətə, alış-verişə, bizim iş adamlarının bütün ölkələrlə ticarət əlaqələrinə dəstək verirəm, eyni zamanda xəbərdar edirəm ki, onların hamısı Azərbaycanın qanunları çərçivəsində işləməli, respublikamızın qanunlarına əməl etməli, ən əsası isə, şübhəsiz ki, öz mənafeyini təmin etməklə yanaşı, dövlətin, ölkənin, xalqın mənafeyini də unutmamalıdırlar.

***

Respublikanın mövcud sərvətlərini qoruyub saxlamaq, dağıntının qarşısını almaq, dağıntıya yol verməmək, ölkənin mülkiyyətini qoruyub saxlamaq yolu ilə islahatları həyata keçirib, dövlət mülkiyyətini xalqın, vətəndaşların mülkiyyətinə çevirmək lazımdır. Bu prosesdə dağıntının, özbaşınalığın qarşısı alınmalıdır.

***

Azərbaycanda təbii sərvətlər xalqa məxsusdur, xalqındır. Xalqdan başqa heç kəsin deyil və xalqın etimad etdiyi dövlət, iqtidar bu təbii sərvətlərin xalqa məxsusluğunu daim gözünün önündə saxlamalıdır və onlardan ancaq xalqın, yalnız xalqın tələbatını təmin etmək üçün istifadə edilməlidir.

Mən inanıram ki, Azərbaycan milli birlik, milli həmrəylik səviyyəsinə çataraq, özünün böyük iqtisadi, intellektual potensialından, çox əhəmiyyətli coğrafi-strateyi vəziyyətindən daha da səmərəli istifadə edəcəkdir.

***

Gələcəyimiz bizim öz əlimizdədir. Neft sektoruna qoyulan xarici investisiyaların cəlb edilməsi ilə bilavasitə məşğul olan adam kimi mən tam məsuliyyətlə deyirəm ki, ölkəmizin iqtisadi inkişafının çox gözəl perspektivləri vardır. İndi biz yolun ancaq əvvəlindəyik.

***

Azərbaycana cəlb olunmuş neft şirkətlərinin öz iqtisadi maraqları var. Bu isə tamamilə təbii məsələdir. Ancaq eyni zamanda biz də öz ölkəmizin maraqlarını neft şirkətlərinin mənafelərindən yüksək tutmalıyıq.

***

Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır.

***

Torpağı xüsusi mülkiyyətə verməkdə bizim əsas məqsədimiz torpaqdan istifadənin səmərəliliyini, torpağın məhsuldarlığını artırmaqdır. Torpaq şəxsi mülkiyyətdə olanda həmin torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır. Ancaq məsələ onun qorunmasında deyildir. Gərək torpağın sahibinə bütün şərait yaradılsın ki, o, bu torpaqdan səmərəli istifadə edə bilsin.

Biz böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk, yerinə yetirə bilmələri üçün onlara lazımi imtiyazların yaradılmasına səy göstəririk.

***

Bizim üçün maddi nemətlər son məqsəd deyil, şəxsiyyətin hərtərəfli inkişafı üçün ilkin şərtlərdir.

***

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdür.

***

Azərbaycanda iqtisadi islahatlar ağıllı, səriştəli, təmkinli, planlı, ardıcıl surətdə həyata keçirilir və bunlar öz nəticələrini verir.

***

Azərbaycanın iqtisadiyyatı bütün sahələrdə ildən-ilə inkişaf edir. Torpaq islahatının keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi, özəlləşdirmə proqramının yerinə yetirilməsi və sahibkarlığa imkan yaradılması, nəhayət, torpaq almış sahibkarlara, kəndlilərə o torpaqdan istifadə etmək üçün maksimum imkanlar yaradılması – bunların hamısı iqtisadiyyatın tədricən inkişafını təmin etdi.

Bizim bu işimizə indi də mane olmağa çalışanlar vardır, ancaq heç kəs bir şeyə nail ola bilməyəcəkdir. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyənləşdirilibdir. Biz bu strategiyanı bundan sonra da qətiyyətlə həyata keçirəcəyik.

***

...Xalqımızın XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır!

***

Azərbaycanın bu gün müstəqil yaşaması üçün o illər böyük əsas yaratmışdır. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir. Azərbaycanda iqtisadi, sənaye potensialı yaranmışdır. Azərbaycanda yeni şəhərlər yaranmış, kəndlər, qəsəbələr abadlaşmış, insanların rifah halı xeyli yaxşılaşmışdır. Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan bu mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.

***

Azərbaycanın öz iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməsi üçün imkanlar yaradılıb və bir çox nailiyyətlər əldə olunubdu. Azərbaycan bir dövlət kimi möhkəmlənib, Azərbaycanın Silahlı Qüvvələri, ordusu yaranıb, güclənib, inkişaf edibdir və o, bu gün müstəqil Azərbaycanın milli mənafelərini, torpaqlarını, onun hüdudlarını qorumağa qadir ordudur.

İslahatlar respublikanın gələcək inkişafı deməkdir, lakin sıçrayışvari islahatlar vasitəsi ilə deyil, yalnız ətraflı, düşünülmüş, insanların həyatını yaxşılaşdırmaq üçün real əməli nəticələr verən islahatlar vasitəsi ilə.

***

Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir.

***

Heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz.

***

İqtisadiyyat sahəsində əldə etdiyimiz nailiyyətlər Azərbaycanın ictimai-siyasi sahədə əldə etdiyi nailiyyətlərlə və beynəlxalq aləmdə apardığı siyasətlə və gördüyü tədbirlərlə sıx bağlıdır. Biz müstəqil bir dövlət kimi, dünyadan təcrid olunmuş vəziyyətdə yaşaya bilmərik. Müstəqil dövlət bütün dünya dövlətləri ilə iqtisadi əlaqələr qurmalıdır, siyasi əlaqələr qurmalıdır, bütün əlaqələri qurmalıdır. Bu müddətdə biz bu əlaqələri lazımi səviyyədə qurub yaşada bilmişik.

***

Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir.

Neft dövlətin, millətin, xalqın sərvətidir. Bu heç kəsin şəxsi mülkiyyəti deyil, – nə sənin, nə o birisinin, nə bu birisinin, nə də zavod direktorunun. Ona görə bu, dövlət inhisarındadır. Bu, elə bir məhsuldur ki, dövlət inhisarı altındadır və daim dövlət inhisarında olacaqdır.

***

Respublikamızda yaranmış sənaye potensialı Azərbaycanın müstəqil yaşaması üçün yaxşı əsas verir. Əgər bunlar olmasaydı, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra çox ağır və çətin vəziyyətdə qalardı. İndi isə biz neft müqavilələri ilə, – «Əsrin müqaviləsi» – 1995-ci ildə imzalanmış neft müqaviləsi ilə Azərbaycan xalqının 30-40 illik gələcəyi üçün çox gözəl bir iqtisadi əsas yaratmışıq. Bu müqavilələri bu gün üçün yox, sabah üçün yox, hətta 5 il üçün yox, 10-15-20 il bundan sonra Azərbaycan Respublikasının müstəqil yaşaması üçün və Azərbaycan vətəndaşlarının rifah halının lazımi səviyyədə olması üçün imzalamışıq. Mən əminəm ki, bunlar öz nəticəsini verəcək və Azərbaycanın gələcək nəsilləri bizim gördüyümüz işləri layiqincə qiymətləndirəcəklər.

***

Bəziləri hesab edirlər ki, müstəqillik əldə etmək adi bir sözdür – bayrağı qaldırdıq ki, bizim müstəqil bayrağımız var, üç-dörd kəlmə də qışqırdıq və bununla da müstəqillik qazanıldı. Müstəqilliyin əsasını təşkil edən o küçədə deyilən şüarlar yox, qəzetlərdə yazılan boş-boş sözlər yox, bunlardır. Hər bir ölkənin yaşaması üçün onun enerji kompleksi, o cümlədən elektrik enerjisi kompleksi ən əsas komplekslərdən biridir.

Müstəqillik əsrlər boyu bizim arzumuz olmuşdur. İkincisi, bizim ölkəmiz – Azərbaycan öz sərvətlərindən istifadə edərək, iqtisadiyyatını yaxşı qura və əhalisinin, vətəndaşlarının rifahını daha da yaxşılaşdıra bilər. Sovetlər İttifaqının dağılması prosesi gedərkən bir çox iqtisadçılar bunu təhlil etmiş və hələ o zaman belə nəticəyə gəlmişdilər ki, 15 sovet respublikasından ikisi-üçü müstəqillik dövründə özünü tam yaşada bilərsə, bunlardan biri də Azərbaycandır. Bunu hələ o zaman həm sovet alimləri, həm də qərb sovetoloqları demişlər. Bu havadan götürülmüş fikirlər deyildir, Azərbaycanın həm təbii sərvətləri, həm də iqtisadi potensialı ilə bağlıdır.

***

Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın. Əgər müstəqilliyimiz sadəcə olaraq formal xarakter daşıyacaqsa, yaxud müstəqillik dövründə iqtisadiyyatımız gündən-günə geriləyəcəksə, əhalinin yaşayış səviyyəsi pisləşəcəksə, onda bu müstəqillik nəyə lazımdır.



# QANUNÇULUQ HAQQINDA

Hüquq-mühafizə orqanlarında sağlam mənəviyyat, sağlam mühit olmalıdır. İnsanlar, yəni bu orqanlarda işləyən vətəndaşlarımız anlamalıdırlar ki, onlara xüsusi etimad göstərilib, onlar xüsusi imtiyazlara, xüsusi səlahiyyətlərə malikdirlər, onlar Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişaf etməsində xüsusi rol oynamalıdırlar. Bunların hamısı da Azərbaycanda cinayətkarlıqla, cinayətkarlığın bütün formaları ilə mübarizəni gücləndirmək, qanunun aliliyini təmin etmək, hər bir məsələnin araşdırılmasında ədalət prinsipini ən yüksək tutmaq və beləliklə də, ölkəmizdə gedən demokratikləşmə prosesini inkişaf etdirmək üçündür.

***

Qanuna xidmət edən hər bir adam aydın zəkaya, təmiz əllərə və alovlu qəlbə malik olmalıdır.

***

Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir.

***

Heç kəsə özbaşınalıq etmək imkanı vermək olmaz. Qanun-qayda, qanunun aliliyi hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün xüsüsi qanun icad edə bilməz. Bizim dövlətimiz var, dövlətin qanunları var və hamı bunlara tabe olmalı, riayət etməlidir.

Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram.

***

Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adındansanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır: adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, Prezident üçün də.

***

Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin də əsasını təşkil edən qanunlardır. Ona görə bizim hamımızın üzərinə çox vəzifələr düşübdür. Amma hakimiyyətin hər qolu öz vəzifəsini yaxşı həyata keçirsə, demək, bizim ümumi işimiz yaxşı olacaqdır.

***

Mən ümidvaram ki, «Prokurorluq haqqında» qanun, məhkəmə sistemi haqqında qəbul olunmuş qanun ardıcıl surətdə yerinə yetiriləcəkdir. Əminəm ki, bunlar hamısı, birincisi, Azərbaycanda qanunun aliliyini təmin edəcək, ikincisi, vətəndaşların hüquqlarının qorunmasını təmin edəcək, üçüncüsü də, cinayətkarlıqla mübarizəni daha da səmərəli edəcəkdir. Mən buna inanıram.

Beynəlxalq Prokurorlar Assosiasiyası qeyri - dövlət təşkilatı kimi böyük işlər görür. Azərbaycan müstəqil dövlət kimi gənc olsa da, qısa tarixi zamanda ölkə həyatının bütün sahələrində, o cümlədən məhkəmə-hüquq sistemi sahəsində xeyli işlər görübdür. Bizim məhkəmə sistemi, prokurorluq, demək olar ki, beynəlxalq standartlara uyğunlaşıbdır.

***

Bizim bütün məhkəmə sistemində işləyən işçilər, hüquq-mühafizə orqanlarında işləyənlər bilsinlər ki, bəli, biz hüquqi dövlət qururuq, hüquqi dövlət qurmaq üçün müvafiq qanunlar qəbul etmişik və bundan sonra da edəcəyik. Bunun qarşısını almaq mümkün deyil. Kim bunun qarşısını alacaqsa, biz onu yolumuzdan kənarlaşdıracağıq.

***

Azərbaycan polisi, daxili işlər orqanları daim xalqla olmuş, xalqına, dövlətinə sədaqətlə xidmət etmişdir.

***

Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş özünü azad, sərbəst hiss etməlidir.

***

Respublikamızda fikir, söz, insan azadlığı var və bunların hamısı bundan sonra da qorunub saxlanacaqdır. Ancaq bunların hamısı sağlam məfkurə əsasında, sağlam prinsiplər əsasında, Azərbaycan dövlətçiliyinin, qanunların qorunması prinsipləri əsasında olmalıdır.

Biz bu hüquqi dövləti, demokratik dövləti yaradırıq və onu pillə-pillə yüksəkliklərə qaldırırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, bütün məhkəmə sisteminin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.

***

Biz bu gün elə gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, bütün hallarda müstəqil Azərbaycanın nüfuzunun yüksəldilməsinə öz töhfəsini versin.

***

Azərbaycanın müstəqilliyini qoruyan dövlət atributlarının hər birisi bizim üçün əhəmiyyətlidir. Bunların içərisində Milli Təhlükəsizlik Nazirliyi xüsusi yer tutur.

***

Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır.

***

Hüquq-mühafizə orqanlarının işi çox mürəkkəbdir. Bu orqanlarda işləmək üçün xüsusi keyfiyyətlərə malik olmaq, bir çox xüsusi tələblərə uyğun olmaq lazımdır. Yalnız soyuq mühakiməli, coşqun qəlbli və saf vicdanlı adam çekist ola bilər. Bəli, dövlət işində, hüquq-mühafizə orqanlarında mənəviyyatca təmiz, sadə, təmkinli, nəfsi tox insanlar işləyə bilərlər. Əks halda, onların işinin səmərəsi olmaz.

Gərək heç kəsə imkan yaranmasın ki, o, rüşvətxorluq, əliəyrilik, fırıldaq, dövlətin, xalqın malını oğurlamaq, mənimsəmək yolu ilə özünə sərvət toplasın.

***

Respublikada ictimai-siyasi sabitliyi pozmağa çalışan adamlara qarşı amansız olacağıq. Hüquq-mühafizə orqanları, yerli hakimiyyət orqanları bu işlərlə ciddi məşğul olmalı və məsuliyyət daşımalıdırlar.

***

Respublika Prokurorluğu və Baş prokuror Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir. Əgər bu orqana və onun başında duran adama qarşı təcavüz edilərsə, deməli, Azərbaycan dövlətinə qarşı təcavüz olunur.

***

Azərbaycanın hər bir vətəndaşı mənim üçün – Azərbaycan Prezidenti üçün əzizdir. Mən hər bir vətəndaşı qorumalıyam. Əgər kim isə cinayət etmişdirsə, onu bu əməldən çəkindirməliyəm və o, belə hərəkəti üçün qanun çərçivəsində cavab verməlidir.

***

Qanunsuzluqları, ədalətsizlikləri biz aradan götürəcəyik, ancaq yenə də bir şey qanunsuz olursa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Ədaləti bərpa etmək lazımdır. Qanunsuzluğu aradan qaldırmaq lazımdır. Qanunsuzluğa qanunsuzluqla cavab vermək lazım deyil.

Rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, insanlara qanunsuz təzyiq göstərmək, zor işlətmək və yaxud başqa hallar polis orqanlarının iş praktikasından, yəni əməli fəaliyyətindən tamamilə kənar olmalıdır.

***

Kimin nə qədər böyük xidməti olsa da, kim nə qədər böyük hünər, cəsarət sahibi olsa da, nə qədər ülvi amalı olsa da, cəmiyyət üçün gərəkli və dəyərli adam olsa da, onların hamısı qanuna tabe olmalıdır.

***

Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün qayda-qanun möhkəmləndirilməlidir, qanun tətbiq olunmalı, hər bir cinayətkar cəzasını almalıdır. Cəzasız heç bir şey qalmamalıdır.

***

Qanunun keşiyində bütün adamlardan mənim tələbim ondan ibarətdir ki, qanunu qorumaq, onu tətbiq etmək, cinayət törətmiş adamların hamısını məsuliyyətə cəlb etmək, cəzalandırmaq lazımdır.

***

İstintaq orqanlarından, hüquq-mühafizə orqanlarından bizim birinci tələbimiz ondan ibarətdir ki, bütün istintaq qısa müddətdə getməlidir, keyfiyyətli getməlidir, cinayətkarlar aşkara çıxarılmalı və tezliklə məhkəmə qarşısında dayanmalıdırlar. Məhkəmə də öz sözünü deməlidir. Qaçmış və ya Azərbaycan ərazisində gizlənən, yaxud da Azərbaycandan kənarda olan adamları axtarıb tapmaq lazımdır. Bu bizim hüquq-mühafizə orqanlarının, xüsusən Daxili İşlər Nazirliyinin borcudur.

O adamlar ki, doğrudan da, cinayət ediblər, onlar cəzalanmalıdırlar, cəzasını almalıdırlar. Amma elə adamlar var ki, ola bilər, yolunu azıblar, yanılıblar, yaxud təsadüfən gəlib cinayətkarların təsiri altına düşüblər. Şübhəsiz ki, onlara münasibət başqa cür olmalıdır.

***

Cinayətkarlığa qarşı mübarizəmiz indiyə qədər olduğu kimi, bundan sonra da kəskin olacaqdır. Fərqi yoxdur, Naxçıvandandır, Gəncədəndir, Bakıdandır, Şəkidəndir, Qubadandır, yaxud başqa yerdəndir: cinayətkar cinayətkardır, qanun əleyhinə çıxandır və burada heç kəsə fərq qoymaq olmaz.

***

Cəzanın böyük tərbiyəvi əhəmiyyəti var. Əgər bir insan öz cinayətinə, xəyanətinə görə cəzalanırsa, bu, minlərlə insanların belə cinayətlərdən xilas olmasına kömək edir, belə cinayətlərə qoşulmamasını təmin edir. Ona görə də cəza tədbirlərini təkcə ayrı-ayrı adamları cəzalandırmaq kimi qəbul etmək lazım deyil, yəni mahiyyəti bundan ibarət deyil.

***

Respublikamızın bütün vəzifəli şəxsləri, dövlət, hakimiyyət orqanlarında, aqrar bölmədə, sənayedə, iqtisadiyyatda, hüquq-mühafizə orqanlarında işləyənləri, hamını xəbərdar edirəm: bu işlərdən əl çəkin. Rüşvətxorluqdan, oğurluqdan, əyrilikdən, korrupsiyaya qurşanmaqdan əl çəkin. Bilin ki, biz mübarizədən geri dönməyəcəyik. O cinayətkarlar bu gün də olmasa, sabah aşkar ediləcəklər.

Ölkənin varidatının, əmlakının qorunması, saxlanılması çox vacibdir. Respublikanın, xalqın, dövlətin əmlakını dağıdanlar, mənimsəyənlər ən yüksək cəzaya məhkum olunmalıdırlar. Həm bu gün, həm də gələcək üçün bunu bilmək lazımdır.

***

Təbiidir ki, vətəndaşlarımız içərisində cinayət edənlər də var, qanunu pozanlar da var, başqalarının hüquqlarına təcavüz edənlər də var, ümumiyyətlə, qanuna, hüquqa riayət etməyənlər də vardır. Hakimiyyət orqanlarının, vəzifəli şəxslərin vəzifəsi bütün bunlarla mübarizə aparmaqdır. Ancaq bu mübarizəni apararkən qanuna riayət etmək, qanun çərçivəsində hərəkət etmək, qanun əsasında fəaliyyət göstərmək lazımdır.

***

Hər bir partiya qanuna tabe olmalıdır. Heç kəsə ərköyünlük şəraiti, heç kəsə istisna yaratmaq olmaz.

***

Vəzifəli adamlar başa düşməlidirlər ki, onlar dövlətdən etimad alıblar, dövlət orqanlarında vəzifə daşıyırlar. Onlara vəzifələri ona görə verməyiblər ki, xalqın qanını sorub, şəxsən varlanmaqla məşğul olsunlar. Bu vəzifələr ona görə verilib ki, onlar ayrı-ayrı sahələri idarə etsinlər.

***

Hər bir partiya qanun çərçivəsində fəaliyyət göstərməlidir və qanundan kənara çıxmamalıdır. Əgər hansısa partiya qanuni hüquqları pozursa, şübhəsiz ki, dövlət bunun qarşısını almalıdır. Qanunu pozanlar qanun qarşısında cavabdehdirlər və cavabdeh olmalıdırlar.

Cinayət elə şeydir ki, onun qarşısını daim almaq lazımdır. Əgər bizim hüquq-mühafizə orqanları bir gün, yaxud bir ay zəiflik göstərsələr, yaxud diqqəti azaltsalar, cinayətkarlar yenə də baş qaldıra bilərlər.

***

İnsanın daxili dünyası, onun dünyagörüşü, onun təhsili, elmi, mədəniyyəti, onun varlığını və daxili aləmini müəyyən edən bir çox amillər, o cümlədən onun hüquqları cəmiyyət tərəfindən daim qorunmalıdır. İlk növbədə isə biz hər bir insanın həyatına cavabdehik. Əgər terrorizm insan həyatını təhlükəyə məruz edirsə, deməli, bizim sivilizasiya təhlükə altındadır.

***

Azərbaycan polisi, daxili işlər orqanları daim xalqla olmuş, xalqına, dövlətinə sədaqətlə xidmət etmişdir.

***

Qanunun aliliyi təmin edilməlidir və hər bir vətəndaş qanuna tabe olmalıdır. Biz öz tərəfimizdən qanunun aliliyini təmin etməyə çalışacağıq və hər bir vətəndaşı qanuna tabe olmağa dəvət edirəm.

***

Hüquqi dövlətdə qanuna riayət edilməsi hər bir məmurun həyat kredosu olmalıdır.

***

Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır.

İndi artıq aydın görünür ki, hər bir vətəndaşın həyatı naminə respublikadakı bu cinayətkarların qarşısının alınması, ayrı-ayrı silahlı dəstələrin zərərsizləşdirilməsi, ayrı-ayrı qrupların aradan götürülməsi nə qədər lazım imiş. İndi insanlar rahat işləyirlər, yaşayırlar, istirahət edirlər.

***

Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar əhval-ruhiyyə olsun, peşəkar kadrlar və iş üslubu olsun.

***

Milli təhlükəsizlik orqanı hər bir dövlətin çox əhəmiyyətli, güclü və çox vacib təşkilatıdır. Dünyanın hər bir dövlətində belə bir təşkilat mövcuddur. Ancaq dövlət möhkəm olanda və xalqla dövlət bir olanda hətta bu təşkilatda baş vermiş böyük satqınlıq, xəyanət də dövləti yerindən edə bilməz.

***

Vətənpərvər, mərd insan əgər şüurlu ya şüursuz hansısa bir cinayəti edibsə, o, vətənindən qaçmamalıdır. Cinayət edib vətənindən qaçan adam xalq, millət, cəmiyyət üçün ən yaramaz və ən nüfuzsuz bir adamdır. Əgər sən şüurlu surətdə cinayət edirsənsə, bil ki, bu cinayətə görə məsuliyyət daşımalısan. Demək, sən bu cinayəti edəndə məsuliyyəti də gözünün önünə almalısan. Məsuliyyəti öz ölkəndə, doğma torpağında, xalqının içində daşımalısan. Gedib hansısa bir ölkədə gizlənməklə canını qurtara bilməyəcəksən. ...Cinayət edib ölkəsini tərk etmək böyük qəhrəmanlıq deyildir.

Mən hüquq-mühafizə orqanlarının bu sahədə gördüyü işi qiymətləndirirəm. Ancaq eyni zamanda, hüquq-mühafizə orqanları əldə etdikləri nailiyyətlərlə bərabər, gərək işlərində olan nöqsanları da aradan qaldırsınlar. Təəssüflər olsun ki, nöqsanlar da az deyildir. Şəxsən məni ən çox narahat edən hüquq-mühafizə orqanlarının bəzi əməkdaşlarının öz vəzifələrindən sui-istifadə etməsidir. Hüquq-mühafizə orqanının hər bir əməkdaşı bilməlidir ki, o, bu təşkilatda işləyərək xüsusi səlahiyyət alıb, xüsusi etimada layiq olub və bu etimadı da doğrultmalıdır. Yüksək vəzifəsindən istifadə edərək qanunu pozmaq, öz şəxsi mənafeyi üçün ayrı-ayrı yollara getmək hüquq-mühafizə orqanlarını ləkələyir və bu, orqanlara hörmət gətirmir.

***

Qanun, hamı üçün qanundur. Həm adi vətəndaş üçün, həm hakimiyyət məmuru üçün, həm dövlət məmuru üçün, həm əlil üçün, həm də şəhid ailəsi üçün.

***

Hüquq-mühafizə orqanları müstəqil Azərbaycan dövlətinin əsas sütunlarındandır. Əgər bütün sütunlar sağlam olmasa, bu sütunların içərisində qanunu pozan, vəzifəsindən sui-istifadə edən, rüşvətxorluq edən, insanların hüquqlarını pozanlar olduğu halda, ümumiyyətlə, bu sütunlar sağlam olmaz.

***

Vətənə, xalqa sədaqət və mənəvi saflıq, bunlar bizim müvəffəqiyyətimizin əsasıdır. Güman edirəm ki, biz hüquq-mühafizə orqanlarında belə bir mühitin, əhval-ruhiyyənin yaranmasına nail ola biləcəyik.

Bizim Konstitusiyamız, qanunlarımız hər birimiz üçün müqəddəs olmalıdır. Xüsusən, qanunların həyata keçirilməsi, qanunlara riayət olunması hüquq-mühafizə orqanlarının işinin təkmilləşməsini tələb edir. Qanunun aliliyi hamı üçün – adi vətəndaş üçün də, ən yüksək vəzifəli insan üçün də eyni tələblər qoyur.

***

İnsan dövlətdə, cəmiyyətdə nə qədər yüksək vəzifə, səlahiyyət alırsa, o qədər də çox qanunun tələblərini həyata keçirməlidir, qanuna riayət, hörmət etməlidir, qanunun aliliyini təmin etməlidir. Bu, sizin də, mənim də, hamımızın ən böyük vəzifəmizdir və biz bu vəzifəmizi yerinə yetirməliyik.

***

Hüquq-mühafizə orqanlarında işləyən hər bir kəs, yaxud işləmək istəyən hər bir vətəndaş bilməlidir ki, ondan birinci növbədə müstəqil Azərbaycan dövlətinə sədaqət tələb olunur. Əgər kimdəsə bu çatmırsa, qoy geriyə çəkilsin.

***

Hüquq-mühafizə orqanlarında işləyən adamlar bilməlidirlər ki, onların üzərinə böyük məsuliyyət düşür. Onlar öz vicdanı, cəmiyyət, dövlət qarşısında məsuliyyət daşıyırlar. Onlar bu məsuliyyəti dərk edərək işləməlidirlər və öz işlərini qurmalıdırlar.

***

Mənəvi saflıq hüquq-mühafizə orqanlarının işçiləri üçün xüsusi əhəmiyyət kəsb edən keyfiyyətdir. Mənəvi saflıq uğrunda mübarizə hüquq-mühafizə orqanları kollektivlərində ən əsas məsələlərdən biri olmalıdır.

Vaxtilə belə bir məşhur kəlam var idi ki, soyuq baş, hərarətli ürək, təmiz əllər olmalıdır. Bu kəlamın müəllifinin kim olub-olmamağından asılı olmayaraq, müdrik sözlərdir. Mən arzu edərdim ki, bizim hüquq-mühafizə orqanlarında işləyən adamların həqiqətən yanan hərarətli ürəyi olsun, düşünən başı olsun və təmiz əlləri olsun. Biz, ümumiyyətlə, vətəndaşlarımızı və xüsusən hüquq-mühafizə orqanlarında çalışan əməkdaşları bu tələblər əsasında tərbiyə etməliyik.

***

Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı saf mənəviyyata malik olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.

***

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

***

Hər bir hüquq-mühafizə orqanında çalışan əməkdaş öz işinin dövlət, xalq üçün nə qədər vacib olduğunu dərk etməlidir və işini yalnız və yalnız xalqın, ölkənin mənafeyi üçün aparmalıdır.

Hüquq-mühafizə orqanları hamısı birlikdə Azərbaycanda cinayətkarlıqla mübarizəni gücləndirməlidirlər. Ancaq eyni zamanda, onlar qanun çərçivəsində hərəkət etməlidirlər. Onların fəaliyyəti Azərbaycanda demokratik, siyasi, iqtisadi islahatların həyata keçirilməsinə kömək etməlidir, mane olmamalıdır.

***

Azərbaycanda cinayətkarlıqla mübarizə hər bir cinayətə qarşı olmalıdır. Amma indi biz iqtisadi islahatlar həyata keçirdiyimiz zaman hüquq-mühafizə orqanları bilməlidirlər ki, onlar harada cinayət axtarmalıdırlar, harada isə cinayət axtarmağa ehtiyac yoxdur. Təəssüf olsun ki, bəzən bunu anlamayanlar, yaxud da qəsdən, – o yerdə ki, cinayət yoxdur, ya da o yerdə ki, sadəcə, bizim yeni qanunlar əsasında iqtisadi islahatlar aparılır və bunun nəticəsində müəyyən tədbirlər həyata keçirilir,– oraya müdaxilə olunur və beləliklə də ümumi işimizə zərər vurulur. Bunların qarşısı alınmalıdır.

***

Cinayətkarlıqla mübarizədə korrupsiya ilə, rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır. Bu, təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün dövlət orqanlarının, hökumətin işidir, ümumxalq işidir. Ancaq hüquq-mühafizə orqanlarının bunun üçün xüsusi imkanları var. Ona görə də korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq-mühafizə orqanlarından daha da çox səmərəli iş tələb olunur. Ancaq təəssüflər olsun ki, hüquq-mühafizə orqanlarının əməkdaşları içərisində də korrupsiya ilə, rüşvətxorluqla məşğul olanlar var və bəzən az deyildir.

Hüquq-mühafizə orqanları tam siyasətsiz, siyasətdənkənar olmalıdırlar. Hüquq-mühafizə orqanları üçün dövlətin mənafeyinin qorunması ilə hər bir vətəndaşın hüquqlarının qorunması eyni səviyyədə durur. Vətəndaşların hüququnu qoruyaraq, cəmiyyətdən cinayətkarlığı sıxışdırıb çıxararaq dövlətçiliyin qorunması üçün yaxşı zəmin yarana bilər.

***

Prokurorluq orqanı hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer tutur. Prokurorluq istintaqın əsas hissəsini aparır. İstintaq isə cinayəti açmaq üçün və qanun əsasında cinayətkarın cinayətkar olduğunu sübut etmək üçün, yaxud da ki, edilmiş cinayətin məzmununu aşkar etmək üçün əsas vasitədir.

***

Prokurorluq hüquq-mühafizə orqanları sistemində demək olar ki, məhkəmə ilə polis orqanları, daxili işlər orqanları, milli təhlükəsizlik orqanları arasında duran bir orqandır. Ona görə də prokurorluğun işindən çox şey asılıdır. Yəni onun keyfiyyətindən, işin ədalətliliyindən, peşəkarlığından çox şey asılıdır.

***

Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda, bu peşə həm də şərəfli peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək – bu, çox şərəfli vəzifədir.

Prokuror olmaq, şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cürbəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir.

***

Hüquq-mühafizə orqanlarına verilən səlahiyyət heç bir başqa dövlət orqanına verilmir. Hüquq-mühafizə orqanlarının içərisində isə prokurorların ən çox, ən yüksək səlahiyyəti vardır. Təsəvvür edin, prokuror vətəndaşın həbs olunması üçün qərar qəbul edir. Bunu ancaq prokuror edə bilər. Ancaq, birincisi, prokuror həmişə çalışmalıdır ki, bu qərar əsaslı olsun, ədalətli və düzgün olsun. İkincisi, əgər prokuror belə bir yüksək səlahiyyətə malikdirsə, əgər prokurora bu qədər böyük etimad göstərilirsə, prokuror nə qədər məsuliyyətli olmalıdır və mənəviyyatca nə qədər saf olmalıdır.

***

Heç bir vəzifəli şəxs qanundan kənara çıxa bilməz. İstər baş nazir olsun, istər nazir, istərsə icra hakimiyyətinin başçısı olsun – fərqi yoxdur. Əgər biz demokratik dövlət qururuqsa, demokratiya yolu ilə gediriksə, deməli heç kimin qanunu pozmağa ixtiyarı yoxdur.

***

Heç kəs burada özünə müstəsna bir yer tuta bilməz. Hamı qanun qarşısında cavabdehdir. Heç kəs hesab etməsin ki, onun üçün xüsusi bir status olmalıdır, yaxud onun hansısa xidmətləri var və o, nə istəsə edə bilər.

70 il ərzində sovetlər birliyi daxilində yaşayan Azərbaycan Respublikası bu müddətdə bacarıqlı, yüksək imkanlı daxili işlər orqanları yaradıb inkişaf etdirə bilmişdir. Yəni bu sahədə bizim işimiz tam sıfırdan başlamır, boş yerdən başlamır. Bu sahədə bizim böyük potensialımız var, mühüm təməl qoyulubdur. Nəinki təməl, böyük bir orqan vardır. SSRİ dövründə mövcud olan strukturların indi guya heç nəyə yaramadığını deyənlər siyasi və dövlət təcrübəsi olmayanlardır.

***

Narkotiklərə nəzarət, narkomaniya və narkobiznes ilə mübarizə əsrimizin son illərində dünyada ümumbəşəri bir problem olmuşdur. Bu mübarizə hər bir ölkənin, xalqın, millətin, fiziki və şüuru sağlamlığı uğrunda mübarizədir.

***

Mən həyatım boyu bu hallarla mübarizə etmişəm. Bu gün də mübarizə edirəm və həyatımın sonuna qədər mübarizə edəcəyəm. Bilin, bu, təkcə mənim istəyim deyil, bu cəmiyyətin istəyidir. Cəmiyyət bunu tələb edir, insanlar bunu tələb edir. Bu hallar – korrupsiya, rüşvətxorluq, vəzifədən sui-istifadə bizim mənəviyyatımıza zidd olan hallardır. İnsanları bizdən, nə təhər deyərlər, incidir və heç kəs bu hallara haqq qazandıra bilməz.

***

Bizim tələblərimiz isə qanundur, qanundur, qanunun aliliyidir.

***

Kiməsə ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır.

Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, şübhəsiz ki, insanlara təşəbbüs göstərmək imkanı verir, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaradır. Lakin bütün bunlar oğurluq, əyrilik, fırıldaq, başqasının dövlətini, xalqın malını oğurlamaq yolu ilə deyil, qanun çərçivəsində, doğru-düzgün yolla, ədalət yolu ilə olmalıdır.

***

Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün qayda-qanun möhkəmləndirilməlidir, qanun tətbiq olunmalı, hər bir cinayətkar cəzasını almalıdır.

***

Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından-sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır: adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də.

***

Biz bu cür cinayətkarların qarşısını alarkən, dövləti qoruyarkən hər bir vətəndaşı qoruyuruq.

***

Rüşvətxorluq halları, korrupsiya əgər aşağı pillələrdə varsa və onlarla mübarizə etməliyiksə, yuxarı mərtəbələrdə bunların qarşısı alınmasa, bunlarla mübarizə kəskinləşməsə, belə şəxslər, insanlar öz cəzalarını almasalar, vəzifələrindən kənar olunmasalar biz, ümumiyyətlə, cəmiyyətimizdə belə halların, bu bəlanın qarşısını ala bilmərik.

Bütün dövlət orqanlarından tələb olunan prinsiplər, mənəvi saflıq, dövlətin qanunlarına riayət etmək, öz işinə sədaqətdir.

***

Respublikanın mövcud sərvətlərini qoruyub saxlamaq, dağıntının qarşısını almaq, dağıntıya yol verməmək, ölkənin mülkiyyətini qoruyub saxlamaq yolu ilə islahatları həyata keçirib, dövlət mülkiyyətini xalqın, vətəndaşların mülkiyyətinə çevirmək lazımdır. Bu prosesdə dağıntının, özbaşınalığın qarşısı alınmalıdır.

***

İndi artıq aydın görunur ki, hər bir vətəndaşın həyatı naminə respublikadakı bu cinayətkarların qarşısının alınması, ayrı-ayrı silahlı dəstələrin zərərsizləşdirilməsi, ayrı-ayrı qrupların aradan götürülməsi nə qədər lazım imiş. İndi insanlar rahat işləyirlər, yaşayırlar, istirahət edirlər.

***

Xalqın, millətin mənafeyini hər bir kəsin mənafeyindən üstün tutmaq lazımdır. Əgər xalqın, millətin mənafeyinə görə mən də cəzalanmalıyamsa, cəzalanmalıyam.

***

Azərbaycan dövlətçiliyinə qəsd edən hər bir kəs öz cəzasını alacaqdır. Heç bir terrorçu Azərbaycanda öz istəyinə nail ola bilməyəcəkdir. Ona görə ki, Azərbaycanın xalq tərəfindən seçilmiş Prezidenti var və Azərbaycan Prezidenti Azərbaycan dövlətçiliyinin, xalqın keşiyində durubdur. Ona görə ki, Azərbaycan xalqı ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi vardır.

Heç kəs hesab etməməlidir ki, əldə olunan nailiyyətlər, görülən işlər kiməsə vəzifəsindən sui-istifadə etməyə hüquq verir, qanun pozmağa hüquq verir, rüşvət almağa hüquq verir.

***

Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir.

***

Təbiidir ki, vətəndaşlarımız içərisində cinayət edənlər də var, qanunu pozanlar da var, başqalarının hüquqlarına təcavüz edənlər də var, ümumiyyətlə, qanuna, hüquqa riayət etməyənlər də vardır. Hakimiyyət orqanlarının, vəzifəli şəxslərin vəzifəsi bütün bunlarla mübarizə aparmaqdır. Ancaq bu mübarizəni apararkən qanuna riayət etmək, qanun çərçivəsində hərəkət etmək, qanun əsasında fəaliyyət göstərmək lazımdır.

***

Vəzifəli adamlar başa düşməlidirlər ki, onlar dövlətdən etimad alıblar, dövlət orqanlarında vəzifə daşıyırlar. Onlara vəzifələri ona görə verməyiblər ki, xalqın qanını sorub, şəxsən varlanmaqla məşğul olsunlar. Bu vəzifələr ona görə verilib ki, onlar ayrı-ayrı sahələri idarə etsinlər.



# MƏDƏNİYYƏT HAQQINDA

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

***

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir.

***

Xalqımız zəngin mədəniyyətə malikdir. Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.

***

Hər bir xalqın mədəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mənəviyyatını zənginləşdirir.

***

Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər.

***

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

***

İnsanlar bu mədəniyyəti – demokratiya mədəniyyətini, iqtidar mədəniyyətini mənimsəməlidirlər. Bunun üçün zaman və bir də istək lazımdır.

Xalqımızın içində böyük bir mədəniyyət potensialı, fitri istedad potensialı vardır.

***

Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır.

***

Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

***

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

***

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

***

Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır.

***

Mədəniyyətimizin, elmimizin, təhsilimizin insanların mənəviyyatını daha da yüksəklərə qaldırması üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vasitələrdən biridir.

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***

Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır.

***

Ədəbiyyatımız, incəsənətimiz, rəssamlıq məktəbimiz, musiqimiz, teatr mədəniyyətimiz dünya səviyyəsində yüksək zirvələrə qalxmışdır.

***

Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.

***

Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik!

***

Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.

Bizim böyük və dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkir adamlarımız, dünya mədəniyyətini zənginləşdirmiş insanlar xalqımızın öz kökü, öz geni ilə böyük mədəniyyətə malik olduğunu sübut edir.

***

Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, vətəndaşlıq hissini, azərbaycançılıq hissini yüksəldərik.

***

Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin böyük nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltəraşlarımızın, memarlarımızın yetişməsi və onların yaratdıqları əsərlərdir.

***

Xalqımız zəngin mədəniyyətə malikdir.

***

XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçibdir. Xüsusən, incəsənətimizin böyük bir sahəsi olan musiqidə professional musiqi yaranıbdır. Bu sahədə də, dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda, fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır.

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

***

Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.

***

Yeni-yeni təhsil ocaqlarının, ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur.

***

Xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini qoruyub saxlamış, zənginləşdirmiş, və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir.

***

Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mənəviyyat sahibi olması – bunlar hamısı XX əsrdə alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur.

Əgər Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə 1837-ci ildə milli teatr yaratmış və dünya mədəniyyətinə qovuşmuşsa, bu xalqın nə qədər böyük mənəviyyatı var. O nə qədər böyük mədəniyyətə, nə qədər yüksək intellektə malikdir və onun nə qədər böyük daxili qüdrəti var! XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçibdir. Xüsusən, incəsənətimizin böyük bir hissəsi olan musiqidə professional musiqi yaranıbdır.

***

Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.

***

Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

***

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir.

***

Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar.

İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da, xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində, bizdə milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni, bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik.

***

Bizim musiqimiz – xalq musiqisi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir.

***

Dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda, fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır.

***

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə öyünməyə haqqı var.

***

Maarifçilik hərəkatının genişlənməsi Azərbaycanı xarici ölkələrə ali təhsil almağa gedənlərin sayının getgedə artmasına gətirib çıxartdı. Xaricdə ali təhsil aldıqdan sonra Vətənə qayıdan ziyalılar... Azərbaycanda maariflənmə meyllərini dəstəkləyən qüvvələri öz ətrafında birləşdirdilər, milli mətbuat və milli teatrın yaranması üçün zəmin yaratdılar.

Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir.

***

Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.

***

Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər də, ali məktəblər də inkişaf etməlidir. Ancaq bunlarda qayda-qanun olmalıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün istiqamətləri inkişaf edəcəkdir.

***

Xalqı həmişə mədəniyyət birləşdirir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir.

***

Mədəniyyətimizin xalqa verdiyi töhfələr, göstərdiyi xidmətlər bəlkə o qədər də gözə çarpmır, ancaq onun qiyməti çox böyükdür. Ona görə də mən sizin hər birinizin xidmətini bir vətəndaş kimi, tamaşaçı, eyni zamanda prezident kimi yüksək qiymətləndirirəm.

***

Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

***

Azərbaycan mədəniyyətinin yüksəlməsi və Azərbaycanın da Avropanın ən qabaqcıl ölkələrinin yüksək dünyəvi mədəniyyəti səviyyəsinə çatması bizim XX əsrdə əldə etdiyimiz nailiyyətdir.

***

“Kitabi-Dədə Qorqud”un yubileyinin lazımi səviyyədə keçirilməsi Azərbaycan xalqının, türk dünyasının düşmənlərinə, bizi heç bir keçmişi olmayan köçərilər adlandıraraq tariximizi dananlara tutarlı cavabdır.

"Dədə Qorqud" dastanı bu gün türk xalqlarını yaxınlaşdırır, birləşdirir, buna bizim ehtiyacımız vardır və bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq.

***

Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz vardır. Çünki bu gün sərbəstlik, azadlıq, müstəqillik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik.

***

Ötüb keçən yüzillikdə Azərbaycan xalqı sözün həm hərfi, həm də məcazi mənasında işığa, nurlu bir aləmə çıxmışdır. Bu gün Azərbaycan təhsili, mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir.

***

Biz nadir bir irsin varisləriyik, hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

***

Mədəniyyətimizin, elmimizin, təhsilimizin insanların mənəviyyatını daha da yüksəklərə qaldırması üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir.

...1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə həyata keçirməyə çalışaraq həmişə hesab etmişəm, indi də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrində işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır.

***

Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

***

Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.

***

Azərbaycanın mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

***

Biz öz hərəkətlərimizlə, öz münasibətimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son illərdə cəmiyyətimizdə olan əcaiblikdir. Biz bunlara son qoymalıyıq.

Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq.

***

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***

Biz o quruluşda, o həyatda, o dövlətdə, o şəraitdə yaşamışıq, təhsil almışıq, böyümüşük və respublikamızı, xalqımızı yaşatmışıq. Ona görə də o dövrlərdə əldə olunan nailiyyətləri inkar etmək olmaz – bu, cinayət olardı. Onu unutmaq da olmaz. Mən hesab edirəm ki, o dövrdə çoxlu işlər görülübdür. Əgər o dövrlər olmasaydı, bu gün burada, bu salonda Yazıçılar Birliyinin 500-dən artıq üzvü, yaxud da nümayəndəsi iştirak etməzdi.

***

Mən «Qobustan» jurnalını xatırlayıram. O, yaranında əleyhinə nə qədər hərəkətlər oldu. Xatirimdədir, biri gəlirdi ki, nə bilim millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyaları yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdilər. Mən də görürdüm, baxırdım bu «Qobustan» jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də «Qobustan» jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm – «Qobustan» jurnalı o vaxt çox böyük işlər gördü. Təkcə «Qobustan» jurnalı deyildi, «Azərbaycan» jurnalı, «Ulduz» jurnalını götürün. Burada heç bir məhdudiyyət yox idi.

Azərbaycanda dissident olmayıbdır. Amma sizin çoxlarınız yaxşı mənada dissident olmusunuz. Yaxşı ki, dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni qaldıra bilməzdiniz. ...Əgər o vaxtlar milli ruhlu yazarlarımız təqib olunmayıbsa, onları nədənsə məhrum etməyiblərsə, demək, bu da bizim nailiyyətimizdir, bu, bizim o vaxtlar, çətin dövrdə apardığımız düzgün siyasətin nəticəsidir.

***

Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir.

***

Bizim musiqimiz – xüsusi musiqi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir.

***

Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək hər birimizin üzərinə düşən çox məsuliyyətli bir yükdür.

Azərbaycan Respublikasından kənarda on milyonlarla soydaşımız yaşayır. Onların içərisində çoxlu məşhur elm və mədəniyyət xadimləri, iş adamları, yüksək mənsəb sahibi olan insanlar vardır. Onları dünyada və Azərbaycanda tanıtmaq hamımızın borcu olduğu kimi, bizim də onlardan öz tarixi vətənləri, doğma ata-baba yurdlarına münasibətdə qayğıkeş və təəssübkeş olmağı tələb etməyə haqqımız var.

***

Hal-hazırda qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

***

Musiqi xalq arasında ən geniş yayılan incəsənət növlərindən biridir, buna görə də musiqinin insanların şüurunun yüksəlməsinə təsirini artırmaq, mənəvi, estetik tərbiyə problemlərinin həllinə onun təsirini gücləndirmək, musiqinin geniş kütlələrə emosional təsirini qüvvətləndirmək sizin borcunuzdur.

***

Elmi-tədqiqat əsərində ifadə edilmiş hər bir fikir və ya mülahizə hamı üçün anlaşıqlı olmalı, onun əlavə izahına, nəyinsə təkrar surətdə aydınlaşdırılmasına ehtiyac qalmamalıdır.

Keçmişə nəzər salsaq, «Leyli və Məcnun» mövzusu Şərq aləminə məxsus olan mövzudur. Ancaq bu mövzu Azərbaycanın dahi şəxsiyyətlərinin yaradıcılığı nəticəsində əsərlərdə öz əksini tapıb. Nizami də, Füzuli də «Leyli Məcnun» yazıb. Bəşər tarixində, Şərq aləminin tarixində, İslam aləminin tarixində «Leyli Məcnun» mövzusunda məhz Məhəmməd Füzulinin poeması əsasında dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən opera yazılıbdır. Biz bəzən bunu tariximizdə adi bir hadisə hesab edirik. Ancaq bu, adi hadisə deyildir. Birincisi, ona görə ki, ümumiyyətlə, Şərq aləmində Üzeyir Hacıbəyovdan əvvəl opera yazan olmayıb. Bu operanı yaradan Üzeyir Hacıbəyovdur.

***

Əsas və mühüm məsələ Füzulinin yaradıcılığı və onun qoyub getdiyi irsdir. Onun necə yaşaması, həyatının necə keçməsi o qədər də vacib deyildir. Vacib olan budur ki, o, necə bir irs qoyub və 500 ildən sonra biz bu irsdən nə qədər bəhrələnir və faydalanırıq.

***

Qara Qarayevin «Leyli və Məcnun» simfonik əsəri çox dəyərli bir əsərdir. Mən onu dəfələrlə dinləmişəm. Yadımdadır, biz Qara Qarayevin 60 illik yubileyini qeyd edəndə həm Moskvada, həm də Bakıda məhz bu əsəri ifa etdilər. Ancaq bu mövzuda balet yazmaq lazımdır. Arif Məlikov «Məhəbbət əfsanəsi» adlı çox gözəl bir əsər yaradıb. Bu əsər dünyanın ən böyük teatrlarında tamaşaya qoyulub və bu gün də qoyulur. Ancaq gərək bir başqa bəstəkarlarımız da «Leyli və Məcnun» baleti yaradaydı. Bunu Arif Məlikovun özü də edə bilərdi. Çünki onun yaratdığı birinci balet çox uğurlar qazanıb, bir çox teatrlarda bu gün də uğurla gedir.

Bilirsiniz, Füzulinin Üzeyir Hacıbəyovla bağlanması, 500 il bundan əvvəl yaşamış Füzulinin 100 il bundan əvvəl yaşamış Üzeyir Hacıbəyovla Şərq aləminə xas olmayan opera sənəti əsasında bağlanması tarixi bir hadisədir. Bu, xalqımızın incəsənətdə, mədəniyyətdə, musiqidə nə qədər yüksəklərə qalxdığını göstərir. Biz bununla fəxr edirik və fəxr etməliyik. Bunu adi hadisə kimi qəbul etmək lazım deyil. Bu, qeyri-adi bir hadisədir.

***

Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.

***

Kitabxana – millət, xalq, cəmiyyət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir.

***

Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir – bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir.

500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyəti xəzinəsinə öz böyük töhfələrini veribdir. ...Məhz Füzulinin yaradıcılığı və əsərləri ilə göstəririk ki, xalqımız hansı zənginliyə, hansı mədəniyyətə, hansı mənəviyyata, hansı elmə malikdir.

***

...Biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə də hansı qərar qəbul eləyəcəyiksə, gərək bu, milli mənliyimizə, milli məğrurluğumuza toxunmasın. ... Nizaminin sözləri də bizim üçün əzizdir, Cəlil Məmmədquluzadənin, Mirzə Fətəli Axundovun sözləri də, Sabirin sözləri də bizim üçün əzizdir, hamısı bizim üçün əzizdir.

***

Azərbaycanda türkologiya da çox inkişaf edibdir. Keçmiş Sovetlər İttifaqının ərazisində türkologiyaya, demək olar ki, Azərbaycan qədər fikir verən olmayıbdır. Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə «Türkologiya» jurnalı Azərbaycanda nəşr edilirdi.

***

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

***

Mənəviyyatımızı, ədəbiyyat və incəsənətimizi nə qədər yüksəltsək, cəmiyyətimizdə olan mənfi cəhətlərdən bir o qədər tez xilas olarıq.

Hər bir bədii əsər insanlara təsir göstərir, şübhəsiz ki, müsbət təsir göstərir, onların xarakterinin formalaşmasına, inkşaf etməsinə, mədəni səviyyəsinin artmasına böyük təsir göstərir. Amma musiqi əsərinin vasitəsilə göstərilən təsir bütün o biri əsərlərin təsirindən yüksəkdir.

***

Azərbaycanın klassik, professional musiqisi, bəstəkarlarımızın yaratdığı bu əsərlər Şərq aləmində demək olar ki, ilk professional, klassik musiqi nümunələridir və burada Azərbaycan birinci yerdədir.

***

Bizim böyük və dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkirlərimiz, dünya mədəniyyətini zənginləşdirmiş insanlarımız xalqımızın nə qədər böyük mədəniyyətə malik olduğunu açıb göstərmişdir.

***

Azərbaycan dünya sivilizasiyasına mədəniyyət tarixində, hərb sənətində, dövlətçilik işlərində böyük təcrübəyə malik görkəmli şəxsiyyətlər bəxş etmişdir. Dahi Nizami, Füzuli, Bəhmənyar, Nəsrəddin Tusi və başqaları öz yaratdıqları incilərlə təkcə Azərbaycanın deyil, ümumdünya mədəniyyətinin qızıl fonduna daxil olmuşlar. Şəmsəddin Eldəgizin, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayılın, digərlərinin yaratdığı dövlətlər və 1918-ci ildə qurulmuş Azərbaycan Demokratik Respublikasının mövcudluğu Azərbaycanda qədim dövlətçilik ənənələrinin olmasının bariz nümunəsidir.

Televiziya işçilərinə qarşı çox böyük tələblər də var. Onlar gərək ekranda hər bir vətəndaş üçün nümunə olsunlar – həm özlərinin danışığı ilə, həm görünməsi ilə, həm ekranda özlərini aparmaları ilə.

***

Azərbaycan xalqını yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti vəziyyətinə çatdırmaq, qabaqcıl elmli, bilikli adamların fəaliyyəti nəticəsində olur. Belə adamları üzə çıxarmaqla tükənməz imkanlara malik olan qüvvə təhsildir.

***

Bizim təhsilimiz də, mədəniyyətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir.

***

Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır.

***

Bizim şairlərə və sənət xadimlərinə ilham bəxş edən Azərbaycan qadınları bizim doğma dilimizi, ənənələrimizi, xalq yaradıcılığımızın ən gözəl abidələrini qorumuş, hifz etmişlər və bununla da bizim milli mədəniyyətimizin inkişafında misilsiz xidmətlər göstərmişlər. Həqiqətən də bütünlükdə milli mədəniyyət öz mahiyyəti etibari ilə zərif qadın qəlbini, qadın zəkasını və nadir qadın müdrikliyini əks etdirən bir güzgüdür...

1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxılıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunmuşdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar.

***

Biz yeni əlifbaya-latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun.

***

Biz müstəqil ölkəmizdə öz elmimizi, mədəniyyətimizi, nailiyyətlərimizi və tarixi keçmişimizi daha geniş təbliğ etməliyik. Azərbaycan televiziyası bu prosesin önündə getməlidir.



# TARİX HAQQINDA

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

***

Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

***

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz.

***

20 Yanvar hadisəsinin tariximizdəki yeri, qiyməti ayrı-ayrı insanların taleyi ilə məhdudlaşdırıla bilməz. Bu ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir.

***

Tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır.

***

Yaxşı da olsa, pis də olsa yaşadığın illəri kiminsə, nəyinsə xatirinə silib atmaq olmaz. Çünki o tarixdir. Tarixi silmək isə heç kəsə müyəssər olmayan bir işdir.

İnsan həmişə öz tarixi, öz keçmişi ilə, öz tarixi kökləri ilə, müasir nailiyyətləri ilə fəxr edir. Bunu bizim xalqımız bilsin.

***

Azərbaycan nadir bir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi, bir ölkə kimi və Azərbaycan xalqı bir xalq kimi böyük tarixi proseslərin iştirakçısı olubdur.

***

Gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq.

***

Keçmiş nəsillər bizi bu günlərə gətirib çıxarıbdır. Əgər belə olmasaydı, indi nə Azərbaycan var idi, nə Azərbaycan xalqı var idi, nə də Azərbaycanın milləti var idi.

***

Tarixi təhrif etmək xəstəliyi aradan götürülməlidir.

***

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq.

***

Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.

***

Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

***

O illərin (keçmiş Sovet dövrü) ağırlıqları, çətinlikləri ilə yanaşı, böyük nailiyyətlər də olmuşdur. Ən böyük nailiyyət bundan ibarət olmuşdur ki, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır.

***

Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk.

Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir.

***

Əsrlər boyu xalqımız böyük tarixi yol keçibdir. Tariximizin hər səhifəsi bizim üçün əzizdir. Şübhəsiz ki, tariximizin parlaq səhifələri də qaranlıq səhifələri də var, təntənəli səhifələri də, faciəli səhifələri də var.

***

Xalqımız keçmişdən nəticə çıxarmalıdır.

***

1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 yanvar hadisələrinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Ancaq faciə hansısa səbəbdən baş vermir, bu, ola bilər təbii fəlakət olsun. Amma cəmiyyətdə baş verən hadisənin şübhəsiz ki, səbəbi olur. Ona görə də bu hadisələrə geniş mənada yanaşmaq lazımdır. Getdikcə bu hadisələrin daha geniş mənasını dərk edirik.

***

Tarix həmişə hər şeyi öz üzərinə götürür.

***

1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında toplanmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir.

***

Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır.

***

Biz azərbaycanlılar öz tariximizlə, milli mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

***

Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o türkdür. Biz deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazaxlar, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun. Tarixə bəşəri şəxsiyyət kimi düşsün.

***

Biz keçmiş partiya nomenklaturası sisteminə qayıtmırıq və qayıtmayacağıq.

Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımıdır. Bu bizim tariximizdə belə də həkk olmalıdır. Bu soyqırımın nə qədər vəhşiliklə edildiyini və nə qədər insaniyyətdən kənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Və zaman keçdikcə əksinə bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda xalqımız öz azadlığı, öz vətəni, öz torpağı yolunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir.

***

70-80-ci illərdə dəfələrlə müraciət etmişdim ki, bizim qədim, orta əsrlər, son dövrlər tariximiz istənilən səviyyədə yazılmayıb.

***

Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. Və nəhayət, XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr – 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf keçmişdir.

Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar.

***

İnsan həmişə öz tarixi, öz keçmişi ilə, öz tarixi kökləri ilə fəxr edir.

***

Biz nadir bir irsin varisləriyik, hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

***

İkinci Dünya müharibəsində Azərbaycan övladlarının böyük bir hissəsi misilsiz qəhrəmanlıqlar göstərmiş və ən yüksək mükafatlara layiq olmuş, Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ad almışlar.

***

Biz keçmiş partiya nomenklaturası sisteminə qayıtmırıq və qayıtmayacağıq. Amma yerli hakimiyyət orqanları, icra hakimiyyətinin başçıları öz ərazilərində bütün işlərə cavabdehdirlər. Odur ki, müvafiq respublika təşkilatları bu məsələləri yerli təşkilatlarla birlikdə həll etməlidirlər.

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır.

***

Daxilimizdə olan təxribatlar nəticəsində kəndlərimizin, şəhərlərimizin əldən getməsi ilə, yaxud bunun təhlükəsi ilə əlaqədar olaraq biz Ermənistanın rəhbərliyi ilə bilavasitə əlaqə saxlamışıq, ayın 23-ə qədər, yəni bax, bu günə qədər atəşin kəsilməsi və danışıqlar aparılması məsələsini irəli sürmüşük. Bəli, biz bu yola getmişik və mən hesab edirəm ki, düzgün etmişik.

***

İnsanlarımız qırılır, kəndlərimiz dağılır, içimizdə olan təxribatçılar öz çirkin niyyətlərini həyata keçirmək üçün xalqa, millətə, torpağa xəyanət edirlər. Biz danışıqlar aparıb müəyyən bir sazişə gəlməyi qərara almışıq.

***

Azərbaycan xalqı özünün tarixi qəhrəmanlıq ənənələrini uca tutaraq Vətənini, torpağını, Azərbaycan Respublikasının müstəqilliyini qorumağa qadirdir.

***

Müstəqilliyi görmək özü həmin dövrdə yaşayan insan üçün tarixi zərurət, böyük xoşbəxtlikdir və onu bizim bugünkü nəsil, bugünkü insanlar gördülər. Müstəqilliyi yaşamaq, dönməz və sarsılmaz etmək böyük vəzifədir.

Bizim keçmişdə yaranmış adət-ənənələrimiz çox gözəldir və biz onları itirməməliyik, saxlamalıyıq, onlardan bu gün də, gələcəkdə də istifadə etməliyik. «Keçmişdə nə vardısa hamısını pozmaq, yenidən yaratmaq lazımdı» kimi cılız fikirlər fəlakətdən başqa heç bir şey gətirə bilməz.

***

O illərdə – 80-ci illərin ortalarında biz ayrı-seçkiliyə məruz qalırdıq. Mən həm Azərbaycanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam. İndi məhz bunu xatırlamağa lüzum var ki, o illərdə xalqların, o cümlədən Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtında son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazilərini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin – artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi.

***

1988-ci ildə Ermənistanın millətçi dairələri Dağlıq Qarabağda olan, separatçı əhval-ruhiyyə ilə yaşayan bəzi insanları qızışdırıb bu məsələni ortaya atandan sonra Azərbaycanın o vaxtkı rəhbərləri bunun qarşısını ala bilmədi. Xalq o vaxt ayağa qalxdı. Xalq Azərbaycana qarşı olan ədalətsizliyə qarşı etirazlar etdi, meydanlara çıxdı. Ancaq xalqla Azərbaycanı idarə edənlərin arasında birlik olmadı. Bu xalqın gücündən istifadə edib o münaqişənin qarşısını almaq əvəzinə onların bəziləri daxili intriqalarla, öz şəxsi işləri ilə məşğul idilər.

... Azərbaycan oktyabr ayının 18-də «Müstəqillik haqqında» Konstitusiya Aktı qəbul etdi. Ancaq təəssüflər olsun ki, Azərbaycanı o vaxt idarə edənlər bundan sonra da müstəqilliyə inanmırdılar. Düşünürdülər ki, bu, bəlkə hələ müvəqqəti bir şeydir, SSRİ yenə də bərpa olunacaqdır. Ancaq xalq müstəqilliyə inanır, müstəqilliyi istəyirdi.

***

1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi. Azərbaycanın cənubunda yeni bir cümhuriyyət yaratmağa çalışdılar. Şimalında yeni hərəkat başladı, separatçılıq meyilləri artıq özünü göstərdi... Ancaq xalq yenə də müdrikliyini göstərdi. Xalq bu böyük sınaqdan çıxdı. Azərbaycanı dağıtmaq, məhv etmək istəyən qüvvələrin qarşısı alındı.

***

Təsəvvür etmək olar ki, xalqımız o illər necə əzab-əziyyətli dövr yaşadı. Amma yaşadı. Yaşadıq inanaraq ki, biz bu ağır dövrü keçəcəyik.

***

On il, tarixi nöqteyi-nəzərdən az bir zamandır. Xalqımızın tarixi əsrlərlə, minilliklərlə ölçülür. Ona nisbətən on il, əlbəttə ki, az bir zamandır. Ancaq bu on ildə Azərbaycanın müstəqilliyini qorumağa qadir olması, onu qoruması və müstəqil dövlət kimi qarşısında qoyulmuş vəzifələri yerinə yetirməsi və dünya birliyində müstəqil dövlət kimi yaşaması, təbiidir ki, böyük bir hadisədir. Bütün keçmiş dövrlərə nisbətən bu hadisənin qiyməti ən yüksəkdir.

Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq. Xalq çox tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir.

***

Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»lərin doğurduğu gərginliklə, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır.

***

Biz müstəqillik əldə etdikdən sonra islam dinini özümüzə qaytardıq.

***

Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş bir təzahürüdür...

1990-cı ildə 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün böyük bir bəla olmuşdur. O vaxt xalqın səsini boğmaq üçün çox dəhşətli üsullara əl atılmışdır. Azərbaycana hərbi təcavüz edilmişdir və bu təcavüz əməliyyatları içərisində Azərbaycan televiziyasının enerji blokunun partladılması həmin o ağır günlərdə, mübarizə günlərində Azərbaycan xalqının iradəsini sındırmaq üçün, onu məlumatsız qoymaq üçün belə bir cinayət törədilmişdir. Bu Azərbaycan televiziyasının tarixində önəmli yer tutur. Həm də tək Moskvada yox, Azərbaycan daxilində, Azərbaycan rəhbərliyində cinayətkar qüvvələr Azərbaycan televiziyasının enerji blokunu partlatmışlar.

***

Bugünkü müstəqil Azərbaycanı yaşatmaq, onun varlığını göz bəbəyi kimi qorumaq və qüdrətli, vahid, bütöv Azərbaycana çevirmək hər birimizin müqəddəs məramı, məqsədi olmalıdır. Çünki Azərbaycan Respublikası Azərbaycanın 5 min illik tarixə malik dövlətçilik ənənələrinin varisidir. Biz hamımız əmin olmalıyıq ki, gələcəyin güclü, qüdrətli, böyük Azərbaycanı bu günlərimizdə əsası qoyulan dünya azərbaycanlılarının həmrəyliyinin möhkəm bünövrəsi üzərində yüksələcəkdir.




# MƏNƏVİ TƏRBİYƏ HAQQINDA

İnsan mənəviyyatı üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır. Xalqımız öz mənəviyyatına, dininə və ənənələrinə sadiqdir.

***

Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.

***

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə dəvət etmişdir.

***

Ələbaxımlılıq mənəviyyatı pozur, ailə, torpaq təşəbbüsünü heçə endirir.

***

Şəxsən təmiz olmaq və şəxsən çiyrinmək hələ vətəndaşlıq ləyaqəti deyildir. Vətəndaşlıq fəallıq deməkdir, şərə qarşı mübarizə aparmaq bacarığı və arzusu deməkdir.

***

Azərbaycanda islamşünaslıq sahəsində XX əsr demək olar, tamam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır.

Cəmiyyətimizdə saf mənəviyyatı bərqərar etmək, inkişaf etdirmək, bütün mənfi hallara qarşı mübarizəni gücləndirmək əsas vəzifəmizdir.

***

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.

***

Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.

***

Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz.

***

Ana hər bir insan üçün müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də Ana Vətən deyirik, torpağa da.

***

Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü insanlar yetirmişdir.

Adamların mənəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır.

***

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.

***

Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.

***

Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir.

***

Milli - mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

***

Mənəvi paklıq, saflıq həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir. Ola bilər, belə insanlar əziyyət, zillət içində yaşayıblar. Ola bilər, cürbəcür məhrumiyyətlərə məruz qalıblar. Ancaq mənəvi ucalıq onlar üçün hər bir şeydən qiymətli olubdur.

Mən istərdim ki, hər bir şəxs öz mənəviyyatını hər şeydən üstün tutsun. Qeyri-qanuni toplanan sərvət, mal – bunlar heç vaxt insanlara şöhrət gətirməyib.

***

Əgər mənəviyyat pozulmuşdursa, hər şey pozulacaqdır. Mənəviyyatdakı pozğunluq cəmiyyətimizi belə ağır vəziyyətə, o cümlədən rüşvətxorluğa gətirib çıxarmışdır.

***

İslam dini əsrlər boyu mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.

***

Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.

***

Mən hər bir kəsə tövsiyə edirəm ki, göstərilən etimadı qiymətləndirsin, etimada sədaqətlə xidmət etsin.

***

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər adama lazımdır.

***

Dünən kim nə cinayət edibsə, ona cavabdeh olmalıdır. Hansı səhvi edibsə, onu təhlil edib, bir də belə səhv buraxmamalıdır.

Rəhbər işçinin mənəvi siması, mənəvi nümunəsi adamların tərbiyəsində mühüm amildir.

***

İnsanlar bir-birinə doğrudan da səmimi münasibət bəsləyirlərsə, bu münasibət daimi olmalıdır.

***

Hər bir insan həyatda yaşamalı, inkişaf etməlidir, öz yerini tapmalıdır. Amma öz yerini, özünəməxsus olan yeri tapmalıdır. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur.

***

Ailə – xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır.

***

Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən betərdir.

***

Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət nümunəsi göstərmək və başqaları üçün nümunə olmaqdır.

Həyatımız nə qədər çətin, ağır olsa da, uşaqlara qayğı, diqqət heç vaxt azalmamalıdır. Çünki onlar bizim sabahımızdır.

***

Biz bütün qüvvələrimizi toplasaq, ziyalılardan, din xadimlərindən, alimlərdən, hörmətli adamlardan istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək tərbiyə, əxlaq, mənəviyyat məsələlərini döyüşçülərə aşılaya bilsələr, bu, bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu işlər nəzəri şəkildə deyil, mütəşəkkil aparılmalıdır.

***

Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər.

***

Adamların mənəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır.

***

Müharibədə vuruşan qəhrəman cəsur Azərbaycan övladlarını boya-başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar.

***

Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli, saf əxlaqlı bir xalq kimi bütün dünyada tanınıb.

Azərbaycan qadını tarix boyu ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır.

***

Heç kim əbədi qalib ola bilməz.

***

Bu xəstəlik, yəni bir-birinə mane olma, bir-birinə zərər vurmaq, bir vəzifəni tutmaqdan ötəri həmin vəzifədə olan adamın ayağının altını qazmaq xəstəliyi bizdə keçmişdə də olubdur, təəssüf ki, sonralar da olubdur.

***

Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur.

***

Ancaq bəziləri, təəssüflər olsun – indi mən belə fikrə gəlməyə məcburam – nə xalq, nə millət, nə də mədəniyyət haqqında düşünürlər. Yəqin ki, onlar bu yollarla hansısa qazanc əldə etmək məqsədi daşıyırlar. Belə qazanılan vəsait də, təbii ki, halal olmaz, bizim millətin gözəl sözü var – haram olar.

***

Əgər yaxşı şəraitdə münasibət varsa və ağır şəraitdə həmin münasibətlər qırılırsa, bu insanların yüksək keyfiyyətə malik olmadığını göstərir.

Bakıda bir ağac əkib böyütmək bir övlad böyütməyə bərabərdir.

***

Bu (rüşvətxorluq) bizi içimizdən yeyir, dağıdır. Cəmiyyətdə əxlaqı pozur, insanların mənəviyyatını pozur. Bunların hamısı da həm iqtisadi islahatların aparılmasına, həm ümumi işimizin getməsinə maneçilik törədir, həm də cəmiyyətimizdə zərərli ünsürlərin baş qaldırmasına şərait yaradır. Ona görə də rüşvətxorluqla mübarizə, belə halların qarşısının alınması, bu sahədə ciddi tədbirlərin görülməsi bizim əsas vəzifələrimizdəndir.

***

Bütün dövlət orqanlarından tələb olunan prinsiplər: mənəvi saflıq, dövlətin qanunlarına riayət etmək, öz işinə sədaqət.

***

İnsanlar həyatdan gedəndən sonra qiyməti daha da artır, obyektivləşir.

***

Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha da üstündür.

***

Öz fəaliyyətinə tənqidi qiymət vermək qabiliyyətini itirən, kütlələrdən ayrı düşən, yaltaqlara yol açan adam rəhbər ola bilməz.

Ailə – əxlaqın ən yüksək meyarı, məhəbbətlə vətəndaşlıq borcunun vəhdətindədir.

***

Sizinlə açıq danışıram, – o vaxt deyə bilmirdim ki, bu, islam dininin mənəvi dəyərləridir. Çünki biz hamımız o vaxtlar islam dinini qadağan edən adamlar idik. Amma bu gün deyirəm ki, bu, həqiqətən islam dininin bəşəriyyətə və islam aləminə bəxş etdiyi çox yüksək dəyərlərdir.

***

İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir. Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir.

***

Din, xüsusən bizim İslam dini çoxəsrlik tarixi boyu özündə elə xüsusiyyətlər formalaşdırmışdır ki, bizim üçün müqəddəs olan Qurani-Kərim, Həzrəti Məhəmməd Peyğəmbərin müsəlmanlara göstərdiyi yol və verdiyi tövsiyələr insanların daxili mənəviyyatına o qədər uyğun olmuşdur ki, insanlar üçün o qədər faydalı olmuşdur və insanların həyatında o qədər müsbət rol oynamışdır, insanları o qədər səadətə çatdırmışdır ki, bu adət-ənənələr, bu dini qanun-qaydalar nəsildən-nəslə yaşamış və heç bir məhdudiyyət bunun qarşısını ala bilməmişdir.

20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək uğrunda göstərdiyi qəhrəmanlıq nümunəsidir.

***

Bizim üçün maddi nemətlər son məqsəd deyil, şəxsiyyətin hərtərəfli inkişafı üçün ilkin şərtlərdir.

***

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu xalqın ən böyük faciəsidir.

***

Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.

***

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlığı hər bir kəs özü seçir.

***

Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.

***

Biz islam mədəniyyətini, islam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın.

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

***

Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.

***

Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

***

Faşistliyin, vəhşiliyin dərəcəsi yoxdur. Erməni işğalçılarının hərəkətləri məhz bunu sübut edir.

***

İslam dini Qafqazın, demək olar ki, əksər hissəsini əhatə edib və bu gün də əhatə edir və islam mədəniyyəti hər yerdə öz izlərini buraxıbdır. Kimlərsə bu izləri dağıtmaq, pozmaq istəsə də bəşəriyyət buna yol verməməlidir və verməyəcəkdir.

***

Demokratiya – yüksək mədəniyyət deməkdir. Demokratiya – yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yüksək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarla tərbiyələndirmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

Biz azərbaycanlılar öz tariximizlə, milli mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

***

İnsan mənəviyyatı üçün yaşamalıdır.

***

Rüşvətxorluq, korrupsiya, vəzifədən sui-istifadə bizim mənəviyyatımıza zidd olan hallardır.

***

Bizim millətimizdə, xalqımızda, azərbaycanlılarda namus-qeyrət ən mühüm keyfiyyət hesab olunubdur.

***

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

***

Biz nadir bir irsin varisləriyik. Hər bir azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

Ailə əxlaqının ən yüksək meyarı məhəbbətlə vətəndaşlıq borcunun vəhdətindədir.

***

Ailə – xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır.

***

Gəncliyimizin mətanətli, qüdrətli, məqsədyönlü xarakteri onların vətən məhəbbətinə, əməyə vicdanlı münasibətində və xalqın düşmənlərinə qarşı barışmazlığında təcəssümünü tapır.

***

Vəzifə insana heç bir şey vermir, sadəcə olaraq səlahiyyət verir, qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır.

***

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.

***

Rüşvətxorluqla mübarizə, belə halların qarşısının alınması, bu sahədə ciddi tədbirlərin görülməsi bizim əsas vəzifələrimizdəndir.

Rüşvətxorluq bizi içimizdən yeyir, dağıdır. Cəmiyyətdə əxlaqı pozur, insanların mənəviyyatını pozur. Bunların hamısı da həm iqtisadi islahatların aparılmasına, həm ümumi işimizin getməsinə maneçilik törədir, həm də cəmiyyətimizdə zərərli ünsürlərin baş qaldırmasına şərait yaradır.

***

Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət deməkdir.

***

Mən dəfələrlə demişəm, heç kəsə damğa vurmaq olmaz. Əgər bir adam dünən səhv etmişdirsə, yolunu azmışdırsa və bu gün düz yolla gedirsə, xalqla birlikdədirsə, qanuna riayət edirsə, – buna söz yoxdur.

***

Bir tərəfdən camaatımız aclıq içərisindədir, kasıblar, qaçqınlar, duz-çörəyə möhtac olan adamlar var. Digər tərəfdən isə vəzifə tutan adamlar hər vasitəyə əl ataraq, rüşvətxorluqla məşğul olub varlanmaq istəyirlər.

***

Rüşvətxorluq halları, korrupsiya əgər aşağı pillələrdə varsa və onlarla mübarizə etməliyiksə, yuxarı mərtəbələrdə bunların qarşısı alınmasa, bunlarla mübarizə kəskinləşməsə, belə şəxslər, insanlar öz cəzalarını almasalar, vəzifələrindən kənar olunmasalar, biz ümumiyyətlə, cəmiyyətimizdə belə halların, bu bəlanın qarşısını ala bilmərik.

Xalqımızın milli mənafeyini, kimliyindən asılı olmayaraq, ayrı-ayrı adamların şəxsi mənafeyinə qurban vermək olmaz. Milli mənafeyimiz, xalqın aqibəti bizim üçün hər şeydən əzizdir, hər şeydən üstündür. Kim günahkardırsa, o bilinməli, cəzalanmalı, onun haqqında ölçü götürülməlidir.

***

Xalq üçün, millət üçün rüşvətxorlardan xain düşmən yoxdur.

***

Yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımıza, bacı-qardaşlarımıza həm öz imkanlarımızdan qayğı göstərməliyik, kömək etməliyik, həm də xaricdən gələn humanitar yardımları onlara vaxtı-vaxtında çatdırmalıyıq. Belə yardımlar gəlir, lazımdır ki, bunlardan yalnız bu kontingent istifadə etsin. Ayrı-ayrı adamlar – vəzifəsindən sui-istifadə edib bunları dağıtmaqla, satmaqla, özlərinə sərvət yığmaqla məşğul olanlar, yenə də deyirəm, ən qatı cinayət edirlər. Belə adamlar cəzalandırılmalı, məsuliyyətə cəlb olunmalıdırlar.

***

Müdriklik təkcə insanların elmi biliyi, təhsili ilə bağlı deyil. Müdriklik insanın fitri istedadıdır, müdriklik həm də insanın həyatını dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan özü üçün lazımi faydalar götürə bilməsidir. Müdriklik insanın kökündə, əməllərindədir.

Öz şəxsi məqsədlərinə nail olmaq üçün milləti ləkələmək, millətə böhtan atmaq lazım deyil. Milli mənafe hər şeydən üstün olmalıdır. Birinci milli mənafedir, sonra şəxsi mənafe.

***

Müxalifət düzgün hərəkət etməlidir, qanun çərçivəsində hərəkət etməlidir, iqtidara qarşı düşmənçilik nümayiş etdirməməlidir və düşmənçilik fikrində olmamalıdır. Müxalifət iqtidarı tənqid edə bilər, etməlidir, iqtidarın səhvlərini göstərməlidir, iqtidarın fikrindən fərqli olan öz fikrini bildirməlidir, – bunlar təbii haldır. Ancaq düşmənçilik etməməlidir.

***

Heç kəs hesab etməməlidir ki, əldə olunan nailiyyətlər, görülən işlər kiməsə vəzifəsindən sui-istifadə etməyə hüquq verir, qanun pozmağa hüquq verir, rüşvət almağa hüquq verir.

***

Nə qədər var-dövlət olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

***

Hamı öz yerində, öz vəzifəsinə uyğun məsuliyyət daşıyır. Hamı təvazökar olmalıdır. Heç kəs vəzifəsindən sui-istifadə etməməlidir. Heç kəs xüsusi status iddiasında olmamalıdır.

***

Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir.

Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var-dövlət olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır.

***

Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.

***

Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır.

***

Şəhid olmaq hər bir insan üçün ən yüksək zirvəyə çatmaqdır. Ancaq istəməzdik ki, bizim gənclərimiz şəhid olsunlar. O qəhrəmanlar ki, o insanlar ki, vuruşlarda, döyüşlərdə şəhid olublar, canlarını qurban veriblər, onlar bizim ordumuz üçün, hər bir əsgər üçün örnək olmalıdır.

Başqalarının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.

***

Bizim qarşımızda duran bir vəzifə də var. O da şəhid ailələrinə qayğı göstərmək, döyüşlərdə xəsarət almış, əlil olmuş insanlara qayğı göstərməkdir.

***

Azərbaycan dövləti, Azərbaycan xalqı heç vaxt vətən yolunda, torpaq yolunda, müstəqillik yolunda şəhid olmuş vətəndaşlarımızı unutmayacaqdır.

***

Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

***

Vətənin müdafiəsində iştirak etmiş insanların hamısı cəmiyyətimizin diqqət mərkəzində olmalıdır, dövlət orqanları onlara qayğı göstərməlidir. Onlar cəmiyyətdə həmişə hörmətlə qarşılanmalıdırlar. Şəhid ailələri bizim hamımızın – həm dövlətin, hökumətin, həm də cəmiyyətin daimi qayğısı altında olmalıdır.

***

Müəllim vəzifəsi ona görə şərəflidir ki, o cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayır.

Vətən yolunda həlak olmaqdan şərəfli bir həyat ola bilməz. Biz onların xatirəsinə daim hörmət etməliyik.

***

İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.

***

Sosial cəhətdən köməyə ehtiyacı olan adamlar təkcə döyüşlərdə şikəst olmuş insanlar deyil, başqa təbəqədən əlil olanlar da çoxdur. Biz bütün bu təbəqələrdən olan insanların yaşayışını nəzarət altında saxlamalıyıq, onların hər birinin sosial təminatını günü-gündən yaxşılaşdırmağa çalışmalıyıq.

***

Heç kəs yerində donub dura bilməz. Kim ki donur, o, artıq cəmiyyət üçün o qədər də lazım deyildir. Hər kəs inkişafda olmalıdır. Hesab edirəm, elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xatalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə, bizim partiyaya sədaqətli yol ilə getməlidirlər.

***

Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

O insanlar ki, sədaqətlidirlər, saf mənəviyyatla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar– belə adamlar həmişə mənim silahdaşlarımdır.

***

Biz fəxr edirik ki, azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaqdır.

***

Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda şəhid olmuş övladlarımızın qəhrəmanlıq nümunələri bizim qəlbimizdə əbədi yaşayacaqdır və ordumuzun bugünkü əsgərləri, gələcək döyüşçülər üçün nümunə, örnək olacaqdır.

***

Orduda gərək hər kəs Azərbaycan dövlətçiliyinə, Ali Baş Komandana tam sədaqətli olsun. Burada ikili mövqe tutmaq olmaz. Hamımız Azərbaycan, onun gələcəyi haqqında düşünməliyik.

***

Xalqımız beş il, on il, bəzən əsrlərlə əsarətə, əziyyətə, məhrumiyyətə dözüb, ancaq mənliyini, inamını, milli qürurunu itirməyib.

Biz xalqımızı həmişə saflığa, paklığa dəvət etmişik, ona görə Allah da bizə yar olacaq.

***

Mən, sən, biz – hamımız həyatda müəllimlərə borcluyuq.

***

Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.

***

Azərbaycan xalqı dərin mənəviyyata malik xalqdır, qəhrəman xalqdır.

***

Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

***

Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır.

***

Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daim yaşayacaqdır.

İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində alman faşizminə qarşı döyüşlərdə Azərbaycan oğulları, xalqımızın övladları, azərbaycanlılar da döyüşmüş, vuruşmuş, alman faşizmi üzərində qələbəyə öz payını vermişlər.

***

Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

***

Mən əvvəllər, 70-ci illərdə də Azərbaycanın rəhbərliyində olanda həmişə fəaliyyətimin əsası ondan ibarət olmuşdur ki, xalqımızda yüksək mənəviyyat bərqərar olsun. Çünki insan üçün mənəviyyatdan yüksək heç bir şey ola bilməz; nə mal, nə dövlət, nə pul, nə villa, nə milyon – heç bir şey olmaz. Bunlar hamısı dünyada gəldi-gedər şeylərdir. İnsanı yüksəldən, insanı insan edən, adamı adam edən və insanı vətəndaş edən onun mənəviyyatıdır.

***

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

***

İnsan səhv edər, onu düzəldər də, onu bu səhvinə görə bağışlamaq olar, amma mənəviyyata zidd olan səhvi bağışlamaq olmaz. Harada oluram-olum, harada işləyirəm-işləyim, mənəvi cəhətdən nöqsanlı adamlara qarşı həmişə bu mövqedə dayanacağam.

Biz öz milli-mənəvi və əxlaqi dəyərlərimizi, adət-ənənələrimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

***

Böyük siyasət aparmaq üçün bilik və təcrübə lazımdır. Böyük siyasətdən bixəbərlərin bu siyasət aləminə atılmaları faciələr doğurur.

***

Gərək insanın insafı olsun. Əgər xalqına bir köməklik edə bilmirsənsə, heç olmasa, xalqın vəziyyətini ağırlaşdırma, yarada bilmirsənsə, yaradılanı dağıtma.

***

Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir.

***

İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir. İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir.

***

Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz din – İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir.

Azərbaycanda hakimiyyət iddiası ilə yaşayaraq, Azərbaycanın müstəqilliyini, suverenliyini, bütövlüyünü, Azərbaycanın vəziyyətini öz şəxsi ambisiyalarına qurban verən adamlar özlərini Azərbaycan vətəndaşı hesab edə bilməzlər.

***

Mən heç kəsin həyatda pis olmasına, yaxud da itib-batmasına razı deyiləm. Yaranan hər bir insan həyatda yaşamalıdır. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o həmişə məğlub olur.

***

... Biz gərək milli mənliyimizi həmişə saxlayaq. Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək.

***

Bizim hər birimiz – mən bunu özüm üçün də hesab edirəm, daim xalqımız qarşısında borcluyuq. Əgər xalq, dövlət bizim hər birimizə bu etimadı göstəribsə və biz bu salonda yığışıb, Azərbaycan Respublikasının, Azərbaycan xalqının ən mühüm məsələlərini müzakirə ediriksə, demək, biz anlamalıyıq ki, xalqın qarşısında bizim nə qədər borcumuz var. Mən hesab edirəm ki, ömrümün sonuna qədər bu borcdan çıxa bilməyəcəyəm. Amma bəziləri hesab edirlər ki, bilirsiniz, hələ xalq ona borcludur, o, xalqa borclu deyil.

Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.

***

Vəzifədən sui-istifadə etmək halları, rüşvətxorluq, korrupsiya, – bu, bizim cəmiyyətimizin ən böyük bəlasıdır.

***

Mən hər bir kəsə tövsiyə edirəm ki, göstərilən etimadı qiymətləndirsin, etimada sədaqətlə xidmət etsin.

***

«Qurani-Kərim»in bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.

***

Adamların mənəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır.

***

Göstərilmiş köməyin nəticəsini görməyəndə həmin adama ikinci dəfə kömək göstərməyə həvəsin olmur. Ancaq bu köməyin ikiqat səmərəsini hiss edəndə onu daha da artırmaq istəyirsən. Ümumiyyətlə, işgüzar adama kömək etmək lazımdır.

***

Qanuna xidmət edən hər bir adam aydın zəkaya, təmiz əllərə və alovlu qəlbə malik olmalıdır.

Sizin nailiyyətləriniz müvəffəqiyyətlərdən baş gicəllənməsinə, arxayınçılığa, lovğalığa səbəb olmamalıdır. Gərək heç vaxt təvazökarlığı itirməyəsiniz. Atalar da yaxşı deyib: «Ağac bar verdikcə başını aşağı dikər».

***

Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir.

***

Dünyada hər şey halallıq istəyir, təmizlik, düzlük istəyir. Hər kəs öz tərbiyəsinin, öz mədəniyyətinin səviyyəsinə uyğun olaraq hərəkət etməlidir.

***

Biz İslam mədəniyyətini, İslam mənəvi dəyərlərini müqəddəs kitabımız «Qurani-Kərim»də olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır.

***

Azərbaycan İslam mədəniyyətinin, İslam milli- mənəvi ənənələrinin ümumbəşəri dəyər vəhdətindən doğulan bugünkü Azərbaycandır.

Başqa dinlərlə dözümlülük, dinc yanaşı və anlaşma şəraitində yaşamaq İslam dininin nəcib xüsusiyyətlərindəndir. Bu, tarix boyu Qafqazda da, Azərbaycanda da öz əməli ifadəsini tapmışdır. Biz iftixar hissi ilə deyə bilərik ki, bölgəmizdə dini zəmində heç vaxt qarşıdurma halları olmamışdır.

***

Biz fəxr edə bilərik ki, xalqımız çox dəyanətli xalqdır və zaman-zaman əsrlər boyu cürbəcür məhrumiyyətlərə məruz qalaraq bütün bu adət-ənənələrini unutmayıb.

***

Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

***

Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli, saf əxlaqlı bir xalq kimi bütün dünyada tanınıb.

***

Əgər mənəviyyat pozulmuşdursa, hər şey pozulacaqdır.

***

Heç kəsin payı inkar olunmamalıdır. Hər şey düzgün, doğru, obyektiv olmalıdır.

***

Oxuyun ki, daha çox biləsiniz, oxuyun ki, daha çox bacarasınız, oxuyun ki, ürəyinizcə, qəlbinizcə olan dəyərləri qoruyub saxlaya biləsiniz, oxuyun ki, bu dəyərlər uğrunda mübarizə aparasınız.

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir.

***

Şəhidlərimizin ruhu məni ağrıdır. Həlak olan Azərbaycan vətəndaşlarının surəti hər gün gözümüzün qarşısına gəlir. Lakin torpaqların, vətənin müdafiəsi hər birimiz üçün ülvi, ən müqəddəs vəzifədir. Bu müqəddəs vəzifənin yerinə yetirilməsində şəhid olanlar cənnətə gedirlər, onların qəhrəmanlığı xalqın xatirəsində daima yaşayacaqdır.

***

Biz müstəqillik əldə etdikdən sonra islam dinini özümüzə qaytardıq.

***

Şəxsiyyət həmişə imkan deməkdir.

***

Azərbaycan mənim gələcəyimdir, Azərbaycan mənim nəfəsimdir. Azərbaycan həyatımdır. Azərbaycan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatla dolu olubdur. Bu hissiyyatları sözlə demək mümkün deyildir, hətta böyük şairimiz Səməd Vurğunun dediyi sözlər də bunun hamısını əhatə etmir.

Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş bir təzahürüdür..

***

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***

Hər bir vətəndaş gərək ölkənin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

***

Yaşayırıq ona görə ki, torpaqlarımıza, dilimizə, dinimizə, mədəniyyətimizə, milli ənənələrimizə sadiq olaq.

***

Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.

***

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.

Gəncliyimizin mətanətli, qüdrətli, məqsədyönlü xarakteri onların vətənə məhəbbətində, əməyə vicdanlı münasibətlərində və xalqın düşmənlərinə qarşı barışmazlığında təcəssümünü tapır.

***

Sizin çoxunuz atanızı, ananızı itirmisiniz, çoxlarınızın atası vətənimizi, torpağımızı, müstəqil Azərbaycanı müdafiə edərkən şəhid olub, canını qurban verib, qəhrəmanlıq nümunələri göstərib, həyatı qəhrəman kimi tərk ediblər. Ancaq onlar sizin də, bizim də, bütün Azərbaycan xalqının qəlbində qəhrəman kimi yaşayırlar, onlar həyatdan getməyiblər, bizimlədirlər, qəlbimizdədirlər, onlar bu gün bu salondadırlar, sizin şən, xoşbəxt gününüzü görür, daha da sevinirlər, ona görə də siz özünüzü heç də valideynsiz hesab etməyin.

***

Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir.

***

Gənclər ölkəmizin gələcəyi, onun iftixarı, onun ümididir.

***

Mənim üçün ən əziz nemət Azərbaycan uşaqlarıdır, Azərbaycan gəncləridir. Çünki Azərbaycan prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də gənclərdən və uşaqlardan asılıdır.

Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz.

***

Hər bir insanın, ailənin, uşağa, övlada, gəncliyə göstərdiyi münasibətdən dövlətin, ölkənin gəncliyə göstərəcəyi münasibət doğur.

***

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gəncliyimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

***

Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar.

***

Gənclərimizin təlim-tərbiyəsi işinə, təhsilə diqqətinizi azaltmayın. Əksinə, belə bir şəraitdə diqqət, qayğı daha da artmalıdır. Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəkdir.

Ötüb keçən yüzillikdə Azərbaycan xalqı sözün həm hərfi, həm də məcazi mənasında işığa, nurlu bir aləmə çıxmışdır. Bu gün Azərbaycan təhsili, mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir.

***

Gənclərin daha da yaxşı oxuması, təhsil alması üçün tələbkarlıq artırılmalıdır. Əgər bu olmasa, bu rəqəmlər təbiidir ki, istənilən mənanı verə bilməz.

***

Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda, təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Amma keçid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar.

***

Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa bir müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar.

Azərbaycan təhsil sistemində islahatlar inqilabi yolla yox, təkamül yolu ilə aparılmalı, xalqımızın milli-mənəvi dəyərlərinə söykənməli, ümumbəşəri dəyərlərdən bəhrələnməli, inkişaf etməli, dünya təhsil sisteminə inteqrasiya oluna bilməli və insanların daim inkişafını nəzərdə tutmalıdır.

***

Sovet hakimiyyətinin təhsil sahəsində olan bütün təlimatları, əmrləri, göstərişləri hər bir respublikada hər bir millət üçün eyni idi. Demək, burada hər millətin milli ənənələri, dəyərləri, xüsusiyyətləri nəzərə alınmırdı. Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz.

***

Hamımız sağlamlığımızın keşiyində duran təmənnasız həkimlərə borcluyuq.

***

Öz ağırlığına, miqyasına və nəticələrinə görə xalqımızın başına gətirilən müsibətlər həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır, hamı əmin olmalıdır ki, müasir dünyada «Günəş altında daha geniş yer» axtaranlar, «Böyük Ermənistan» xülyası ilə başqa xalqlara nifrət və total müharibə ideologiyasını təbliğ edənlər, qonşularına qarşı təcavüzkar siyasət yeridənlər nə zamansa tarix və bəşəriyyət qarşısında cavab verməli olacaqlar.

Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

***

Səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidir.

***

Qadınların adları və xidmətləri bizim tariximizin səhifələrində qızıl hərflərlə yazılmışdır. Ancaq XX əsrdə Azərbaycan qadınının əldə etdiyi nailiyyətlər həqiqətən dünya miqyasında bizim üçün iftixar mənbəyinə çevrilmişdir.  ...İndi biz hədsiz iftixar hissi ilə deyə bilərik ki, cəmiyyətimizin hər bir sahəsində qadınlar böyük rol oynayır.

***

Bizim ən böyük amalımız qadınları azad, xoşbəxt, fəal və nikbin, uşaqlarımızı sağlam, gümrah, şən və hər cəhətdən təmin olunmuş görməkdən ibarətdir.



# VƏTƏNPƏRVƏRLİK HAQQINDA

Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.

***

Dövlət xalqın işi olmalıdır.

***

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

***

Xalqın, Vətənin taleyi hər insanın taleyinə çevrilməlidir.

***

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba ocağıdır!

***

Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!

***

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

***

Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daim yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır.

Hər bir vətəndaş Vətənimizin, xalqımızın taleyi ilə yaşamalıdır.

***

İnsan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz vətəndir.

***

Gəncliyimizin mətanətli, qüdrətli, məqsədyönlü xarakteri onların vətən məhəbbətində, əməyə vicdanlı münasibətlərində və xalqın düşmənlərinə qarşı barışmazlığında təcəssümünü tapır.

***

Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlidir.

***

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar bugünkü və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar. Biz Bakı şəhəri – ölkəmizin paytaxtı ilə haqlı olaraq fəxr edirik. Onun bütün xüsusiyyətlərinə görə fəxr edirik. Eyni zamanda, onun təbii gözəlliyinə, memarlıq gözəlliyinə görə fəxr edirik.

***

Azərbaycan xalqı özünün tarixi qəhrəmanlıq ənənələrini uca tutaraq Vətənini, torpağını, Azərbaycan Respublikasının müstəqilliyini qorumağa qadirdir.

Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

***

Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün, müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır.

***

Şəhidlik zirvəsinə çatmış insanların qəhrəmanlığı bizdə qürur hissi, iftixar hissi doğurur.

***

Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq.

***

Respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin.

***

Bütün Azərbaycan xalqı adından bəyan edirəm ki, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daim yaşayacaqdır. Onların qəhrəmanlığı, şəhidliyi Azərbaycan Ordusunun əsgərləri üçün böyük örnək olacaqdır.

Azərbaycanlılar! Azərbaycan Respublikasının bu gününü və gələcəyini qoruyun!

***

Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

***

Biz fəxr edirik ki, azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaqdır!

***

Azərbaycan xalqı əyilməzdir, yenilməzdir, qəhrəmandır.

***

Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik.

***

Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

***

Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

***

Azərbaycanın mərd, igid oğulları, vətənpərvər insanları, respublikamızın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumuş, qoruyub saxlamaq üçün mübarizə etmiş və canlarını qurban vermişlər.

***

İnsanın öz taleyinin ağası, öz ölkəsinin sahibi olduğu bir cəmiyyətdə özgə sevinci və özgə kədəri ola bilməz.

***

Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq və Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik.

***

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır. Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq qayğıları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imtiyazların yaradılmasına səy göstərir.

Biz nadir bir irsin varisləriyik, hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

***

İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın amillərindən birinə çevrilməkdədir.

***

Bizim güclü ordumuz olmalıdır, hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini şərəf bilməlidir.

***

Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar müharibə gedən yerlərdə baş verən faciəli hadisələrə biganə qalmamalıdır. Silahlı münaqişənin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasına nail olmaq üçün kollektiv səylərlə hər şey etmək lazımdır.

***

Düşmənin Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının bir məqsədi olmalıdır.

Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

***

Bizim hamımızın bir vətəni var – bu, Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq – bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir!

***

İnsan harada olsa yaşayacaqdır. Şərt o deyil. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir. Şərt budur.

***

Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər.

***

Azərbaycan öz oğullarına – təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər.

Bizim güclü ordumuz olmalıdır, hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini şərəf bilməlidir.

***

Gərək orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun. Gərək bizim orduda Azərbaycan dövlətçiliyinə, dövlətinə, Azərbaycan Ali Baş Komandanına daim sədaqət olsun.

***

Hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir, Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır.

***

Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

***

Azərbaycan vətəndaşlarının, xalqın tam əksəriyyəti vətənpərvərlik, Vətəni müdafiə etmək, Vətənə sədaqət əhval-ruhiyyəsi ilə yaşayır və Vətən, torpaq yolunda şəhid olmağa hazırdır.

Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun. Vətəni qoruyun. Xalq, Vətən sizin şücaətlərinizi layiqincə qiymətləndirəcək və heç vaxt unutmayacaqdır.

***

Qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır. Təəssüf ki, buradakı əsərlərin arasında mən belələrini görmədim. («Qanlı Yanvar» rəssamlıq sərgisindən söhbət gedir). Ola bilər bu ondan irəli gəlir ki, biz Yanvar hadisələri baş verəndən indiyədək bununla əlaqədar ancaq ağlayırıq. Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər.

***

Azərbaycan xalqının çoxəsrlik tarixində nailiyyətlər də olubdur, ağır dövrləri də olubdur, qələbələri də olubdur, məğlubiyyətləri də olubdur. Ancaq bizim xalqımızın tarixində, ölkəmizin tarixində dövlət müstəqilliyini əldə etmək kimi bir nailiyyət olmayıbdır. İndiyə qədər hər bir azərbaycanlı üçün bu qədər böyük xoşbəxtlik – dövlət müstəqilliyi kimi böyük bir xoşbəxtlik olmayıbdır. Bunu dərk etmək lazımdır və bunu qorumaq lazımdır, bunu saxlamaq lazımdır. Bu gün mən sizi, bütün Azərbaycan gənclərini, Azərbaycanın gələcəyini əmin etmək istəyirəm ki, biz, o cümlədən bir Prezident kimi mən Azərbaycanın dövlət müstəqilliyini, Azərbaycan xalqının Milli azadlığını daim qoruyacağıq və onu əbədi edəcəyik.

Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda qurban vermiş şəhidlərinin məzarları Azərbaycan Respublikasının, Azərbaycan torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir.

***

Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir.

***

Sizin qarşınızda çox böyük vəzifələr durur, qarşınızda böyük yol var. Yol hamar deyil, asfalt deyil, yol uzun yoldur, cürbəcür maneələrlə bağlı olan yoldur, o yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.

***

Hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır.

Heç bir qüvvə bizi bu müstəqillik yolundan çəkindirə bilməz, heç bir qüvvə Azərbaycanın dövlət müstəqilliyini əlindən ala bilməz. Biz bundan sonra daim azad, müstəqil Azərbaycanda yaşayacağıq. Buna əmin ola bilərsiniz.

***

Azərbaycançılıq hissiyyatını gənclərdə yaratmaq lazımdır. Azərbaycanı sevmək azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşdur. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlar da azərbaycançılıq hissləri yaşamalıdır, onlar da özlərini azərbaycanlı kimi hiss etməlidirlər, onlar Azərbaycanla bağlı olmalıdırlar.

***

1993-cü ilin noyabrından sonra gedən döyüşlərdə Azərbaycan ordusu, igidlərimiz, oğullarımız xüsusi qəhrəmanlıq nümunələri göstəriblər. Sübut ediblər ki, Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var. Mən əminəm ki, xalqımızın çoxəsrlik tarixinə həkk olunmuş qəhrəmanlıq, rəşadət ənənələri əsasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, torpaqlarımızın müdafiəsi uğrunda nümayiş etdirilmiş qəhrəmanlıq ənənələri əsasında milli ordumuz günü-gündən möhkəmlənəcək, güclənəcək, qüdrətlənəcək və Vətənimizin müstəqilliyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməyə qadir olacaqdır.

Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır.

***

Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır.

***

Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gənclərimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir.

***

Xalqımızın, Vətənimizin, Respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir!

***

Vətəni qorumaq ən yüksək, şərəfli vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır.

Bizim vətənimiz, müstəqil Azərbaycan Respublikası indi elə vəziyyətdədir ki, biz gərək qəhrəmanlıq nümunələri göstərək, hər bir vətəndaş öz vətəndaşlıq borcunu vicdanla yerinə yetirsin ki, Azərbaycanın işğal olunmuş torpaqlarını geriyə qaytara bilək.

***

Hər kəs Azərbaycanın müstəqilliyini sevirsə, həqiqətən azərbaycanlıdırsa, həqiqətən Azərbaycanda fəaliyyət göstərmək istəyirsə, o öz doğma ana dilini – Azərbaycan dilini bilməlidir, o dildə yazıb-oxumalıdır və qəbul olunmuş latın əlifbasını mənimsəməlidir.

***

Hərbi vətənpərvərlik ruhu hər bir insanın qəlbində yaşamalıdır. Əgər vətənpərvərlik hissiyyatı olmasa, o, ölkəsinin vətəndaşı ola bilməz.

***

Hərbi vətənpərvərlik hissiyyatı olmasa, bizim xalqımız bu ağır vəziyyətdən çıxa bilməz.

***

Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir.

***

Hər bir vətəndaşın borcu Azərbaycanın dövlət müstəqilliyinə, öz ölkəsinə, millətinə, dövlətinə, xalqına sadiq olmaqdan ibarətdir.

Torpağı qorumaq, torpaq uğrunda həlak olmaq insan üçün böyük sərvətdir.

***

Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən şərəflidir.

***

Ölkəmizdə hazırki ictimai-siyasi sabitlik insanların əksəriyyətində vətənə sədaqət, əldə olunmuş nailiyyətlərə yüksək qiymət vermək inamı və belə bir şəraitin daha da yaxşılaşdırılması arzusu yaranıbdır. Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər.

***

Orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olmalıdır.

***

Torpağı hər kəs, hər bir vətəndaş, hər bir azərbaycanlı müdafiə etməlidir.

***

Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq.

Hər bir vətəndaş hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur. Bütün qalan problemlər sonra həll ediləcəkdir. Bütün digər problemlər ikinci, üçüncü sıraya keçməlidir. Ön sırada birinci növbədə bu problem durmalıdır. Hamı onun ətrafında birləşməlidir.

***

Hər bir azərbaycanlı düşünməlidir ki, o yaşadığı ölkənin layiqli vətəndaşı olmaqla yanaşı, həm də Azərbaycanı, onun mədəniyyətini, milli xüsusiyyətlərini təmsil edir.

***

Bütün azərbaycanlılar müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun azad, firavan, daha da güclü və qüdrətli olması üçün əllərindən gələni etməlidirlər.

***

Azərbaycan vətəndaşı yüksək mənada vətəndaş, yüksək əxlaqa malik olan vətəndaş, dövlətçiliyə sədaqətli olan vətəndaş, vətənpərvər vətəndaş olmalıdır.

***

Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur.

Doğma respublikamızın indiki ağır vəziyyətdən çıxması üçün hər bir vətəndaş öz səyini əsirgəməməlidir.

***

Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir.

***

Xalqımız bilməlidir ki, biz özümüz-özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik.

***

Azərbaycanın mərd, igid oğulları, vətənpərvər insanları, respublikamızın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumuş, qoruyub saxlamaq üçün mübarizə etmiş və canlarını qurban vermişlər.

***

Şəhidlər vətənini sevən əsl Azərbaycan gəncləri olublar.

***

Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

***

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli !

Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir.

***

Kim Azərbaycanı sevirsə, kim Azərbaycan xalqının müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.

***

Hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqillıyinin daimi, dönməz olması üçün səy göstərməlidir.

***

Müstəqil Azərbaycan dövlətinə xidmət edərək, müstəqil Azərbaycan torpağının keşiyində duraraq, xalqınızı sevərək, vətənpərvərlik hissi ilə yaşayaraq, özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız.

***

Bizim hamımızın bir Vətəni var. Bu, Azərbaycandır.

***

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır.

Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir.

***

Torpağı hər kəs, hər bir vətəndaş, hər bir azərbaycanlı müdafiə etməlidir.

***

Hamımız Azərbaycan, onun gələcəyi haqqında düşünməliyik.

***

Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Gərək dövlətinə sadiq, xalqına sadiq vətəndaş olsun!

***

Xalqımız layiq olduğu firavan həyata və rifaha qovuşacaqdır. Bunun üçün ölkənin hər bir vətəndaşından əsl vətənpərvərlik, sarsılmaz birlik, milli-mənəvi dəyərlərə və müstəqillik ideallarına daim sədaqətli olmaq tələb edilir.

***

Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun.

Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir.

***

Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

***

Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.

***

Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

***

Mən qələbəmizə inanıram. Qələbəni biz birlikdə təmin etməliyik. Bu nurlu günün yaxınlaşmasına, ordumuza hər kəs əlindən gələn köməyi göstərməlidir. Hər birimiz, sizinlə birlikdə mən də Vətən yolunda, xalqımızın gələcəyi naminə özümüzü qurban verməyə hazır olmalıyıq.

Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.

***

Ana hər bir insan üçün müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də ana Vətən deyirik, torpağa da. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü insanlar yetişdirmişdir.

***

Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırım sİyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırım siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.

***

Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır... Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır.

***

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhrumiyyətlərə düçar olsa da, qurbanlar versə də, mətin iradəsi sarsılmamışdır.

Azərbaycan vətənpərvərliyi, müstəqil Azərbaycana sədaqət – bunlar hər bir gəncin ümdə vəzifəsidir. Bizim təhsil ocaqlarında – həm orta məktəblərdə, həm ali məktəblərdə – hər yerdə insanları təhsilləndirən ənənələrin hamısı bu yolla getməlidir. Kim bizim gənclərimizi bu yoldan sapdırmaq istəyirsə, onların qarşısı alınmalıdır.

***

Biz dərk etməliyik ki, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Bunu qiymətləndirmək, qorumaq, möhkəmləndirmək, gücləndirmək lazımdır. Bunun üçün əsas şərtlərdən biri insanlarda yüksək mənəvi keyfiyyətləri tərbiyə etmək, inkişaf etdirmək, insanlarımızda, cəmiyyətimizdə yüksək mənəviyyatı təmin etməkdir.

***

Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.

***

Müvəffəqiyyət heç zaman öz-özünə yaranmır, müvəffəqiyyətə nail olmaq üçün böyük, düşünülmüş, ardıcıl və müntəzəm iş aparmaq lazımdır.

Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.

***

Bakıda bir ağac əkib böyütmək bir övlad böyütməyə bərabərdir.

***

Ötən on il hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının nailiyyətidir. Birincisi, bu bütün xalqımızın əvəzsiz milli sərvətidir, ikincisi isə burada hər bir insanın öz payı vardır. Heç kəsin payı inkar olunmamalıdır. Hər şey düzgün, doğru, obyektiv olmalıdır.

***

Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq və Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik.

***

Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq qayğıları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imtiyazların yaradılmasına səy göstərir.

***

Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək, Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır.

***

Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir.

***

... Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar müharibə gedən yerlərdə baş verən faciəli hadisələrə biganə qalmamalıdır. Silahlı münaqişənin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasna nail olmaq üçün kollektiv səylərlə hər şey etmək lazımdır.

***

Hamımız üçün bir böyük məfhum var. Azərbaycan respublikası – Azərbaycan xalqı. Bu məfhum ətrafında hamı sıx birləşməlidir.

***

Hər bir vətəndaş gərək ölkənin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

***

Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.

Şəhidlərimizin ruhu məni ağrıdır. Həlak olan Azərbaycan vətəndaşlarının surəti hər gün gözümüzün qarşısına gəlir. Lakin torpaqların, vətənin müdafiəsi hər birimiz üçün ülvi, ən müqəddəs vəzifədir. Bu müqəddəs vəzifənin yerinə yetirilməsində şəhid olanlar cənnətə gedirlər, onların qəhrəmanlığı xalqın xatirəsində daima yaşayacaqdır.

***

Hər bir valideyn – ata, ana anlamalıdır ki, əgər istəyirsə onun oğlu həqiqi vətəndaş olsun, istəyirsə onun oğlu gələcəkdə bütün çətinliklərdən keçə bilsin, uğurlu həyat yaşaya bilsin, o özü oğlunu orduya göndərməlidir və məcbur etməlidir ki, orduya getsin, xidmət etsin.

***

Siyasi baxışından və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır.

***

Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq bu hələ azdır. Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun.

Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

***

Hər bir gənc orduda xidmət etməyi özünün ən böyük vətəndaşlıq və vətənpərvərlik borcu kimi qəbul etməlidir.

***

Hər bir azərbaycanlı gənc orduda xidmət etməkdən şərəf hissi duymalı, fəxr etməlidir ki, ona müstəqil dövlətçiliyimizi və torpaqlarımızın toxunulmazlığını qorumaq kimi ən şərəfli vəzifə etibar olunub.

***

Gələcəyimiz olan gənclər ölkəmizə, millətimizə, dövlətimizə sədaqətlə xidmət etməlidirlər.

***

Respublikamızın müstəqilliyini qoruyub saxlamaq üçün lazım olan tədbirləri görərək daim gənclərə arxalanırıq, güvənirik.

***

Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir.

Gəncləri birinci növbədə Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etmək lazımdır.

***

Azərbaycanı qorumaq, Azərbaycan dövlətinin müstəqilliyini daim saxlamaq üçün güclü ordumuz olmalıdır. Ordumuz işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün lazım gələrsə, döyüşə hazır olmalıdır.

***

Hər bir vətəndaş Azərbaycanın Milli Ordusunda xidmət etməyi özü üçün ən şərəfli vəzifə hesab etməlidir.

***

Orduya çağrılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar.

***

Hər bir gənc ailəsindən, ata-anasından, tutduğu vəzifəsindən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq, Azərbaycan milli ordusunda xidmət etməlidir.

***

Əziz gənclər! Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Siz müstəqil Azərbaycanımızı XXI əsrdə yaşadanlar, quranlar və inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini sizə etibar edib, tapşıracağıq. Ona görə də Azərbaycan dövlətini yaşatmaq və inkişaf etdirmək üçün hazır olun. Azərbaycanın gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdən asılıdır.

Həyatımız nə qədər çətin, ağır olsa da, uşaqlara qayğı, diqqət heç vaxt azalmamalıdır. Çünki onlar bizim sabahımızdır.

***

Gənclər tariximizin bütün mərhələlərində öz xidmətlərini göstəriblər. Əminəm ki, gənclər Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında, saxlanmasında, inkişaf etməsində bu gün də öz xidmətlərini göstərəcəklər.

***

Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz.

***

...Cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir

***

İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib, onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən ali məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin layiqli üzvünü hazırlamaqdır.

Bizim hamımızın bir vətəni var – bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daima Azərbaycanla bir vurmalıdır.

***

Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır. Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır.

***

Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək hər birimizin üzərinə düşən çox məsuliyyətli bir yükdür. Azərbaycan Respublikasından kənarda on milyonlarla soydaşımız yaşayır. Onların içərisində çoxlu məşhur elm və mədəniyyət xadimləri, iş adamları, yüksək mənsəb sahibi olan insanlar vardır. Onları dünyada və Azərbaycanda tanıtmaq hamımızın borcu olduğu kimi, bizim də onlardan öz tarixi vətənləri, doğma ata-baba yurdlarına münasibətdə qayğıkeş və təəssübkeş olmağı tələb etməyə haqqımız vardır.

***

Qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

Bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir. Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı müstəqilliyin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlılarda vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamının ümdə vəzifəsidir. Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır.

***

Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.

***

Azərbaycan Respublikası bütün dünya azərbaycanlıları üçün istinad və cazibə mərkəzi, onların ümid və məhəbbətlə üz tutduqları müqəddəs məkandır.

***

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba ocağıdır.

***

Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli–mənəvi dəyərlərini yaşatmalıyıq.

***

Bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir.

***

Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı müstəqilliyinin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlılarda, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxsə azərbaycanlılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir.

***

Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır.

***

Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulubdur. Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq, Azərbaycançı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik ki, bunun kökü nədir, onun kökü nədir. Azərbaycanda yaşayan insanların hamısı həmişə özünü azərbaycanlı hesab edirlər. Hamımızın birlikdə ən əsas məqsədimiz Azərbaycançılığı möhkəmləndirmək, qorumaq, bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir.

***

Bizim vətənimiz Azərbaycandır, o bizim doğma torpa ımızdır. Bu vətən nə dünən, nə də ki, bu gün meydana gəlibdir. Bu vətən çoxəsrlik tarixə malikdir, bu vətən çoxəsrlik zəngin mədəniyyətə malikdir, bu vətəndə zəngin ənənələri, adətləri, öz xarakteri olan xalq yaşayır. Bu, xalqın xüsusiyyətidir, millətin xüsusiyyətidir. Bu olmasa, millət də olmaz. Millət isə olmasa, insan nə dərəcədə ağıllı olsa da, hər halda naqis insandır.

***

Vətənimizin intellektual baxımdan daha zəngin, iqtisadi cəhətdən daha zəngin etmək üçün və vətənimizin daha çox tanınması üçün vətənimizin dünyada, hər yerdə məşhur olması üçün insanlar vətənin hüdudlarından uzaqlara getməli və istədikləri yerdə məkan salmalı, istədikləri yerdə yaşamalı, istədikləri yerdə işləməlidir, ancaq vətənlə əlaqələri kəsməməli, vətəni unutmamalı və öz milli köklərini unutmamalıdır.

Xalqımız 5 il, 10 il, bəzən əsrlərlə əsarətə, əziyyətə, məhrumiyyətə dözüb. Ancaq mənliyini, inamını, milli qürurunu itirməyib.

***

Azərbaycan torpaqlarının keşiyində duran, onların qorunması uğrunda döyüşən, çalışan, vuruşan insanların həyatının döyüş səhnələrinin televiziya ilə təbliğ edilməsi, əhaliyə çatdırılması bizim həyatımızda onların böyük xidmətidir.

***

Hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir, Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır.



# DİL HAQQINDA

Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.

***

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycanın dilini əbədi edib və bu gün ana dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun.

***

Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

***

Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir.

***

Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik!

İnkişaf etmiş zəngin dil mənbəyinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə, xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir.

***

Azərbaycan dili bizi keçmişdə də, indi də, gələcəkdə də birləşdirəcəkdir.

***

Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

***

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

***

Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.

***

Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

Cəlil Məmmədquluzadənin ən dəyərli cəhətlərindən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir.

***

Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.

***

Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm.

***

Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvər duyğuları, hissiyyatı olmayacaqdır.

***

Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.

Manasın dili bizim hamımızın dilidir. Biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən fərqlər yaranmışdır. Bir-birimizi qəlbdən duyur, qəlbdən anlayırıq.

***

Öz ana dilini bilməyən adamlar şikəst adamlardır.

***

Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var, şəxsən mən bu dili sevirəm.

***

Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun.

***

Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir.

***

Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.

Hər bir xalqın, insanın ana dilindən əziz heç nə ola bilməz.

***

Bu gün müstəqil bir dövlət kimi ən çox fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Ana dilimiz bizim ən gözəl sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnməyən millət millət ola bilməz. Xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz ana dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik.

***

... Vaxt var idi ki, biz dilimizi bugünkü kimi işlədə bilmirdik. ...Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışmışdım. Dedim ki, əziz qardaşlar, axı burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları bu dildə danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdı. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik. İndi bizim çox gözəl dilimiz var.

Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq, eyni zamanda arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin.

***

1978-ci ildə biz Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük.

***

1978-ci ildə müttəfiq respublikaların konstitusiyaları qəbul edildi. Biz iki-üç ay idi ki, öz Konstitusiyamızın layihəsini hazırlayırdıq. Orada bir maddə yazdıq ki, Azərbaycanda dövlət dili Azərbaycan dilidir. Ancaq nə ilə rastlaşdıq? Moskva buna qəti etiraz etdi və bildirdi ki, bu ola bilməz. SSRİ-də yeganə dövlət dili var və hamı da bu dövlət dilindən istifadə etməlidir. Biz isə çox inadkarlıq etdik. Böyük müqavimətlərin qarşısını aldıq. Hətta mən sizə deyim ki, Moskvada bu məsələ müzakirə olunarkən müttəfiq respublikaların başçıları bizim bu fikrimizi qəbul etmirdilər. Çünki bütün müttəfiq respublikaların başçıları Konstitusiya komissiyasının üzvləri idilər, orada iştirak edirdilər. Onlar bu fikri dəstəkləmirdilər, qəbul etmirdilər. Ancaq buna baxmayaraq biz buna nail olduq.

Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır.

***

Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması barədə ayrıca maddənin mövcudluğu o zamanın şəraitində respublikamızda, ümumiyyətlə ölkəmizin tarixində çox böyük hadisə idi.

***

Mən bu danışdığımız dili – buna hansı dil deyirsiniz deyin – çox gözəl dil hesab edirəm. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı böyükdür.

***

Əlbəttə, ötən dövrün repressiyaları haqqında demək olar, insanlara edilmiş zülm haqqında demək olar, ədalətsizlik haqqında demək olar. Bunları demək olar. Bu, bizim tariximizdir. Tarixi həqiqəti həmişə demək lazımdır. Ancaq bununla yanaşı, əldə olan nailiyyətlərimizi niyə unudursunuz? Bu nailiyyətlərin içərisində – burada deyildi və mən də bunu təsdiq edirəm; bu, şəxsən mənim də fikrimdir, – Azərbaycan dili, indi bunu nə adlandırırsınız adlandırın, Azərbaycan dili bütün tarixi ərzində bu qədər zənginləşməyibdir, nəinki bu 6 ilin içərisində; bu qədər zənginləşməyib, bu qədər inkişaf etməyib.

Dilimizin böyük qrammatikası yaranıbdır. Böyük dərsliklər, əsərlər var. Respublikamızda böyük Dilçilik institutu mövcuddur. Bizim böyük dilçilərimiz var, – yadımdadır, akademik Şirəliyev, Dəmirçizadə,– mən o vaxtkı adamları deyirəm, indi yaşayan alimlər adlarını demədiyimə görə məndən inciməsinlər. Bəli, bizim böyük alimlərimiz var.

***

Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz.

***

Xarici dil bilmək, əlbəttə ki, lazımdır, vacibdir. Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir.

***

Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz.

1978-ci ildə bizim Konstitusiyamızda Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi həkk olundu. Bununla da biz insanlarda milli şüur, milli əhval-ruhiyyə, öz dilimizə doğma münasibət, sevgi hissiyyatları yaratdıq...

***

Mənim xatirimdədir, keçmiş zamanda ədəbiyyat tarixini öyrənərkən fəxr edirdik ki, vaxtilə Lermontov bir müddət Azərbaycanda olmuş, Quba zonasında yaşamışdır. O, öz dostuna yazmışdı ki, mən burada Azərbaycan dilini öyrənirəm. Avropada fransız dili kimi, Qafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir. Hətta Lermontovun belə bir yazısı da var. Biz bunu böyük iftixar hissi ilə qeyd edirdik ki, görün, Lermontov burada yaşayıb, dilimizə belə böyük hörmət edib və bizim dilimizi öyrənməyə çalışıb. Bunun özü tarixdə nadir bir hadisədir.

***

Biz öz dilimizin hörmətini qaldırmalıyıq. Ona görə ki, bizim dilə hörmət edilsin, dilimizi öyrənsinlər, mənimsəsinlər.

***

Başqa ölkələrdə də bizim dilimiz nə qədər geniş yayılsa, öyrənilsə Azərbaycanın ədəbiyyatını, mədəniyyətini ana dilimizdə oxuyanlar, öyrənənlər respublikamızın necə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk edəcəklər...

Biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

***

Hər bir millətin dili onun üçün əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddən artıq əzizdir. Çünki çox illər ana dilimiz həyatımızda geniş yer tuta bilməmişdir. Buna baxmayaraq hər bir azərbaycanlı ana dilinin qorunub saxlanmasında öz xidmətini göstərmişdir.

***

Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan dili böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etmək üçün nə qədər söz ehtiyatına malikdir.

***

Öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır.

***

Bizim ədəbiyyatımız, Ana dilimiz müstəqil Azərbaycan Respublikasının inkişafında çox böyük əhəmiyyət kəsb edir.

Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir.

***

Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur.

***

Azərbaycan dili çox zəngin və ahəngdar dildir. Şəxsən mən öz dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm.

***

Bu gün müstəqil bir dövlət kimi ən çox fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var.

***

Ana dilimiz bizim ən gözəl sərvətimizdir.

***

Xalqı xalq edən, milləti millət edən onun ana dilidir.

***

Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnməyən millət, millət ola bilməz.

Xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz ana dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik.

***

Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvər duyğuları, hissiyyatı olmayacaqdır.



# MİLLİ MÜNASİBƏTLƏR HAQQINDA

Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır.

***

Azərbaycanlı  sözü bizi həmişə birləşdirib.

***

Azərbaycan xalqının çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Çalışacağıq ki, bu sərvətimiz əbədi olsun.

***

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

***

Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən adamlardır.

***

Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır.

Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır.

***

İstər böyük, istər kiçik xalq olsun, fərqi yoxdur, onların özünəməxsus adət-ənənələri, folkloru, dilinin müəyyən ayrılığı yaşayıb və yaşamalıdır. Bu da göstərir ki, onlar yaşamağa qadir olan adət-ənənələrdir.

***

Hal-hazırda qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

***

Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşmədə başlamış türk xalqları yeni dünyanın amillərindən birinə çevrilməkdədir.

Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır.

***

Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

***

Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir.

***

İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın amillərindən birinə çevrilməkdədir.

***

Özünün yeni, yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır.

***

Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bir sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır.

***

Azərbaycan çoxmillətli respublikadır və bu çoxmillətlilik bizim sərvətimizdir.

Biz ümumi kökləri olan bir xalqıq, bir dilimiz, bir dinimiz var. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər həmişə dostluq və qardaşlıq kimi səciyyələndirilmişdir. Əsrlər boyu bizi ayırmaq istəsələr də bu cəhdlər nəticə verməmişdir. İndi də heç bir qüvvə bizi ayırmaq iqtidarında deyil. Azərbaycanın dost və qardaş münasibətinə daha böyük ehtiyacı var.

***

Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın - köçkünlüyə qətiyyətlə yox deyir...

***

Heç kəs düşünməsin ki, Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri olmalıdır. Belə ola bilməz ki, qonşu ölkələr daim düşmən olsunlar. Avropada nə qədər ölkələr bir-biri ilə müharibə aparıblar. İllərlə, on illərlə müharibə aparıblar, yüz il müharibə aparıblar. Ancaq yenə də sülhlə qurtarıblar və sülh şəraitində də yaşayırlar.

***

Bir-biri ilə həmsərhəd olan ölkələr, qonşu olan ölkələr daim ziddiyyətli vəziyyətdə yaşaya bilməzlər. Hər bir müharibənin, hər bir düşmənçiliyin sonu sülh olacaqdır, sonu barışıq olacaqdır.



# GÖRKƏMLİ ZİYALILAR HAQQINDA

Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.

***

Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.

***

Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir.

***

Vahid– böyük xəzinədir. Siz bu xəzinənin bir neçə laylarını göstərdiniz.

***

Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcəkdir.

***

Yusif Məmmədəliyev öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük məkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir.

Səməd Vurğunu biz məncə şair kimi, alim kimi, yazıçı kimi yox, eyni zamanda böyük bir ictimai siyasi xadim kimi həmişə xatırlayırıq. O, tariximizə belə daxil olubdur.

***

Şah İsmayıl (Xətai) görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirmiş insandır.

***

Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir.

***

Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir.

***

Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu münasibətlə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə «Leyli və Məcnun» poemasının müəllifi kimi yox, dünyamiqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatşünaslar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidir.

Biz öz hərəkətlərimizlə, öz münasibətimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son illərdə cəmiyyətimizdə olan əcaiblikdir. Biz bunlara son qoymalıyıq.

***

Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik. Onun imkanları çoxdur. Arif bundan sonra da yaratmalıdır. Şübhəsiz ki, o da bu fikirlərlə, hisslərlə yaşayır. Bizim bugünkü görüşümüz, bu müəllif gecəsi şübhəsiz ki, ona da çox ilham verəcək və o yeni əsərlər yaradacaq.

***

İndi Hüseyn Cavidin əsərləri xalqa hava, su kimi lazımdır. Təkcə abidə baxımından deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir sənətkardır. Hüseyn Cavidin «İblis»i heç də Hötenin «Faust»undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik.

***

İstedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar, istedadlı ola bilməzlər.

***

İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var.

Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam o dövrdə klassik üslubdan kənara çıxıb, öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm də yaradıcılığına görə adi deyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir.

***

Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar adamlardır.

***

Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri istedada malik olan nadir adamlardır. Biz öz hərəkətlərimizlə, öz münasibətlərimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq.

***

Mən yer üzündə müəllimdən yüksək ad tanımıram.

***

Müəllimlik vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır.

Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri və mütəxəssisləri bu zəngin sərvətlərdən vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşlər.

***

Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.

***

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə öyünməyə haqqı var.

***

Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.

***

Cəmiyyət böyükdür. İndi bizdə yeddi milyon əhali var. Bunlar hamısı bizim cəmiyyətdir. Amma xalqın içərisindən çıxan ziyalılar tək-tükdür. Bunlar kütləvi deyil. Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri istedada malik olan nadir adamlardır.

Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidir.

***

Xalq öz içində illər boyu, əsrlər boyu istedadlı, bacarıqlı insanları, yüksək təhsilə və yüksək tərbiyəyə malik olan insanları hazırlayır, yetişdirir və onlar xalqın tanınmış, hörmətli ziyalı adamları hesab olunur. Ziyalı sözü məhz bu mənanı daşıyır

***

Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti ilə tanınır. Bu ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır.



# ÖZÜ HAQQINDA

Mənim həyatımın məqsədi müstəqil Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam.

***

Mən bu böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim.

***

Bir prezident kimi mən hər bir vətəndaşın təhlükəsizliyinin, hüquqlarının qorunmasının təminatçısıyam.

***

Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq.

***

Ölkənin ağır vaxtında prezident seçiləndə də, prezident kürsüsünə qalxanda da, and içəndə də mən təkcə Azərbaycanın ərazisində olan azərbaycanlılara yox, bütün dünyada yaşayan azərbaycanlılara müraciət etdim. Bildirdim ki, respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin.

Mən həmişə həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur.

***

Mən fəxr edirəm ki, azərbaycanlıyam.

***

Azərbaycanın belə bir dalğın vəziyyətində, parçalanan vəziyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam – Azərbaycanı bu fəlakətdən xilas edim, parçalanmaqdan xilas edim.

***

Mən öz üzərimə, dediyim kimi, böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimizi möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim.

***

Azərbaycanın dövlətçiliyini qorumaq üçün, Azərbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi qorumaq üçün mən bütün imkanlardan indiyə qədər istifadə etdiyim kimi, bundan sonra da istifadə edəcəyəm və heç kəs də xam xəyala düşməsin, heç kəs başqa fikirlərə düşməsin.

***

Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə, mən özüm üçün başqa bir mükafat görmürəm.

Mən nikbinəm, hesab edirəm ki, xalq, millət, Azərbaycan vətəndaşları – biz hamımız birlikdə bu çətinliklərin öhdəsindən gələcəyik. Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz.

***

Nə qədər ki, Azərbaycan var, mən varam. Mən isə Azərbaycanda əbədi olacağam.

***

Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram.

***

Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam.

***

Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm.

Heç kəs iradəmi sındıra bilməz.

***

Mən demokratiya tərəfdarıyam.

Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam.

Mənim həyatım xalqa mənsubdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm.

***

Mənim qapım ziyalılar üçün açıqdır.

***

Mən balaca bir evdə, zəhmətkeş ailəsində bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib, indi bəlkə də bir qədər qeyri-təvazökar səsləndi. Amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycan üçün dünyaya gətirib. Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm.

***

Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm.

***

Mən həyatda yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam.

***

Demokratik prinsiplər həyatımın, fəaliyyətimin əsasını təşkil edir.

Azərbaycan Prezidenti kimi, şəxsən mən, Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz.

***

İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezident kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam.

***

Mən həmişə xalqa xidmət etmişəm. Mən əməlisaleh adam olmuşam. Bu gün də bu yolla gedirəm. Ona görə də xalqımın yolunda həyatımın son dəqiqəsinə qədər xidmət edəcəyəm və heç vaxt heç şey məni qorxutmayıb, çəkindirməyibdir. Əgər hər hansı bir namərd gülləsi məni məhv edə bilərsə, mən də Azərbaycan xalqının yolunda həlak olmuş şəhidlərin biri olacağam. Ancaq əminəm ki, böyük cənabi Allah məni indiyə qədər hifz etdiyi kimi, qoruduğu kimi, bundan sonra da hifz edəcək, qoruyacaqdır və mən Azərbaycan xalqı üçün öz xidmətlərimi bundan sonra da göstərəcəyəm.

***

Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına xidmət olmuşdur.

Mənim həyatım da, fəaliyyətim də yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır. Mənim başqa məqsədim, amalım yoxdur. Bunu isə mən xalqla birlikdə, xalqın dəyərli insanları, hörmətli adamları ilə, xalqın irəli çəkdiyi nümayəndələri ilə birlikdə edə bilərəm.

***

Azərbaycanın belə bir dalğın vəziyyətində, parçalanan vəziyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam – Azərbaycanı bu fəlakətdən xilas edim, parçalanmaqdan xilas edim.

***

Azərbaycanın bir milyondan çox sakini öz yurdundan zor gücünə çıxarılıb, onların bir çoxu çadırlarda, heç bir şəraiti olmayan binalarda yerləşdirilibdir. Bu gün mən böyük həyəcan hissi ilə onların hər birini yada salır, tezliklə doğma yurdlarına dönmək arzularına şərik çıxır və inanıram ki, çətinliklərə sinə gərən qardaş və bacılarımın ata ocaqlarına dönəcəkləri gün uzaqda deyildir.

***

1987-ci ilin oktyabrından sonrakı illər məndən ötrü ağır, çətin dövr olub. Amma bu çətin, ağır dövrdən, imtahanlardan çıxdım, iradəm qırılmadı, əqidəmdən dönmədim.

1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək Kommunist Partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam. Ümumiyyətlə, mən nə etmişəmsə, şüurlu etmişəm. Heç bir şeyi şüursuz etməmişəm. Bütün keçmişimə, həyatıma görə, bütün gördüyüm işlərə görə də heyfslənmirəm. Hesab edirəm ki, hamısını xalqın naminə, millətin naminə və doğma Azərbaycanın naminə etmişəm.

***

...1986-1987-ci illərdə mənim haqqımda böhtan dolu anonim məktublar respublikamızdan və Ermənistandan gəlmişdir. 1987-ci ilin may ayında xəstələndim, sağalandan sonra bir-iki ay işlədim. O dövrdə Ermənistandan bir məktub aldım. Müəllifi Qarabağ cəmiyyətinin rəhbərlərindən biri olan İqor Muradyan idi. Bu, həyasız bir adam tərəfindən yazılmış məktubdu. Məktubda mən təhqir olunuram, hədələnirəm. Məktub müəllifi bildirir ki, onlar mənimlə mübarizə aparacaqlar, çünki Qarabağın Ermənistana verilməsinə mane oluram... Sonralar bildim ki, Moskvada işləyərkən erməni millətçiləri Balayan, Kaputikyan, Muradyan mənim haqqımda cürbəcür məktublar göndərmişlər, mənim əleyhimə uzun müddət işləmişlər.

***

Mən fəxr edirəm ki, mənim bütün ömrüm, şüurlu həyatım canımdan artıq sevdiyim doğma Vətənim Azərbaycana xidmətdə keçib.

1990-cı il, yanvarın 19-da Qorbaçov mənə gözlənilmədən zəng vurdu. 3 il idi ki, onunla görüşmək istəyirdim, amma məni eşitməmişdi. Xahişlərim şəxsi məsələlərlə yox, Qarabağla bağlı idi. Qarabağ məni narahat edirdi. Qorbaçov mənə deyirdi ki, Bakıda vəziyyət pisdir, Azərbaycana nəsə bir əlac tapmaq lazımdır. Sonra söhbət kəskin şəkil aldı və biz yenə acılı-ağrılı fikirlərlə ayrıldıq. Təsəvvür edə bilmirdim ki, o, Bakıya qoşun yeritmək barədə qərar qəbul edəndən sonra mənə zəng vurub.

***

Mən 1990-cı ilin yanvar hadisələrindən sonra Kommunist Partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında Kommunist Partiyasını tərk etdim. Mən adi qaydada tərk etmədim. Mən ittiham verdim, bildirdim ki, niyə görə Kommunist Partiyasını tərk edirəm.

***

Moskvada yüksək vəzifələrdən kənarlaşdırılandan, istefaya gedəndən sonra ətrafımda cərəyan edən ədalətsizliyi və mənə qarşı təzyiqləri, təqibləri görərkən yenidən siyasətə qayıtmaq fikrində olmadım. Məni siyasi həyata qayıtmağa məcbur edən 1990-cı ildəki yanvar hadisələri oldu.

***

Xalqımızın qarşısında olan borcumu mən sona qədər həyata keçirmək üçün çalışacağam.

İnsanların qəlbindən Heydər Əliyevi heç kəs çıxara bilmədi. Nə Qorbaçov hakimiyyəti, nə Vəzirov hakimiyyəti, nə Mütəllibov hakimiyyəti, nə Əbülfəz Elçibəy hakimiyyəti – heç birisi Heydər Əliyevi Azərbaycan xalqının qəlbindən çıxara bilmədi.

***

Mən heç bir iddiada deyildim. Mən sadəcə Naxçıvan Muxtar Respublikasının həyatını təmin etməyə çalışırdım və ondan artıq heç bir iddiam yox idi. Belə bir şəraitdə, 1992-ci ildə ziyalılar mənə müraciət edən zaman mən çox tərəddüd edirdim. Xatirimdədir, burada əyləşənlərin çoxu bir neçə dəfə mənim yanıma gəlmişdilər, danışmışdılar. Ancaq nəhayət, 1992-ci ilin oktyabrında mətbuatda mənə müraciət olunandan sonra düşündüm və bu təklifə, yəni onlarla birləşməyə və partiya yaratmağa müsbət cavab verdim.

***

Eşidəndə ki, mənim doğma Vətənim, mənim doğma torpağım dağılır, – uzun müddət bu Vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu dağılır,– şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm.

***

Mən həyatımda hər şeyə özüm nail olmuşam. Onun təqsiri yoxdur ki, o mənim oğlumdur. Mən çox istəyirəm ki, İlham Əliyev də həmişə hər şeyə özü nail olsun.

Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və inkişaf etməsinə sərf edəcəyəm. Azərbaycan Respublikasının demokratik, hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağam, Azərbaycan Respublikasının dünya dövlətləri içərisində, dünya birliyində layiqli yer tutmasına çalışacağam.

***

Mən həyatımın demək olar ki, çox böyük bir hissəsini bu işə sərf etmişəm və bundan sonra da mənim həyatım üçün, Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib heç bir vəzifə yoxdur. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni bundan sonra da şərəflə yerinə yetirməyə çalışacağam.

***

Bütün vətəndaşlar kimi, İlham Əliyev də eyni hüquqlara malikdir. O cümlədən də seçilmək hüququna. Lakin mənim oğlum olması onu məsuliyyətdən qurtarmır.

***

Biz gərək milli mənliyimizi həmişə saxlayaq. Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək.

Bəzi dairələrdə mənim haqqımda belə söhbətlər gedir ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda bir vəzifəyə gələrsə, kimdənsə qisas alacaq. Kimsə vaxtilə onun əleyhinə olub, yaxud kimsə ona pis münasibət göstəribsə, ona qarşı pis münasibət göstərəcək. Bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur. Bunu sadəcə olaraq ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görsənir ki, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissiyyatına qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam.

***

Mən sadəcə bir vətəndaş kimi də heç vaxt, heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kiməsə pislik etmək istəməmişəm və istəməyəcəyəm. Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolda, şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm.

***

Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram.

***

Azərbaycan mənim gələcəyimdir, Azərbaycan mənim nəfəsimdir.

Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.

***

Mənim ürəyim daim öz doğma vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatla dolu olubdur. Bu hissiyyatları sözlə demək mümkün deyildir, hətta böyük şairimiz Səməd Vurğunun dediyi sözlər də bunun hamısını əhatə etmir.

***

Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.



# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR HEYDƏR ƏLİYEV HAQQINDA

Heydər Əliyevin ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir.

Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

***

Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifəsinin iştirakçısı, yaradıcısı, aparıcısı 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən – Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı. Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır.

**Mehriban Əliyeva,**
Heydər Əliyev Fondunun prezidenti

Heydər Əliyev kimi liderlərlə işləmək şansı əldə etdiyimə görə çox minnətdaram.

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlər Amerika Birləşmiş Ştatları ilə bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında, Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır.

Heydər Əliyevin mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc Buş,**
ABŞ prezidenti

***

Azərbaycan xalqının və dövlətinin güclü lideri, dəyərli dövlət adamı, mümtaz şəxsiyyət Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq.

Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi.

**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Respublikasının baş naziri

Heydər Əliyev XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır.

Bir şəxsiyyət kimi, Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır.

Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.

**Ramiz Mehdiyev,**
akademik

***

Fəxr edirəm ki, Azərbaycan Respublikasının rəhbəri, dünya şöhrətli, görkəmli siyasətçi Heydər Əliyev mənə qardaş və dostdur.

XX əsr liderlər əsridir. Heydər Əliyev XX əsrin lideridir.

Heydər Əliyev 30 ildən artıq öz ölkəsinin, eləcə də başqa ölkələrin həyatına həlledici, müsbət təsir göstərən siyasətçi idi.

Qafqazın müstəqilliyi və azadlığı uğrunda Heydər Əliyev fenomeninin indi nə qədər böyük rol oynadığını xalq hələ çox sonra biləcək.

**Eduard Şevardnadze,**
Gürcüstan Respublikasının sabiq prezidenti

Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini yaratmış, dostluğumuzun, qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük töhfə vermişdir.

Mən Heydər Əlirza oğluna, sadəcə münasibət bəsləmirdim, ona məhəbbət bəsləyirdim, ona məhəbbətlə yanaşırdım. Mübaliğəsiz deyə bilərəm ki, o, siyasət nəhəngidir.

Heydər Əliyev həqiqətən Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və qiymətləndirirdik. Azərbaycan bütün bu illər ərzində MDB-nin çox az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı azaldılmamışdır.

**Vladimir Putin,**
Rusiyanın sabiq prezidenti

***

Heydər Əliyev zəmanəmizin elə nadir liderlərindəndir ki, onlar müdrik idarəçilik bacarığı, uzaqgörən siyasəti və əzmi ilə öz ölkələri və xalqlarını müharibədən və digər çətinliklərdən çıxarıb dövlət quruculuğuna, sabitliyə, iqtisadi inkişafa və daha yaxşı gələcəyə gətirmişlər.

**Moşe Katsay,**
İsrailin prezidenti

Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərindən də artıq əlaqələr yaranmışdır. Mən Prezident Heydər Əliyevə dərin hörmət bəsləyirəm.

Birgə işdə yaranmış və ölkəmiz arasında münasibətlərin inkişafına yönəlmiş şəxsi və möhkəm dostluq münasibətlərinə görə çox şadam.

Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr aparışarkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirəm.

**Jak Şirak,**
Fransanın sabiq prezidenti

***

Bizim hamımız cənab Heydər Əliyevi Azərbaycan Respublikasının inkişafı və vətəndaşlarının firavanlığı üçün yorulmadan çalışan islahatçı, demokratik yönümlü müasir siyasi xadim kimi tanıyırıq.

**Boris Tkaryovski,**
Makedoniya Respublikasının prezidenti

Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir.

Biz Azərbaycanı və Prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik. Son beş ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində Prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə görülən işlər Britaniya hökuməti tərəfindən diqqətlə izlənir və alqışlanır.

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxşılaşdırdı.

Böyük Britaniya Azərbaycan Respublikası ilə, Prezident Heydər Əliyevlə əlaqələrin daha da sıxlaşdırılmasına xüsusi əhəmiyyət verir.

**Toni Bleyer,**
Böyük Britaniyanın sabiq baş naziri

***

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Avropa Şurasına daxil oldu və demokratik dəyişikliklər üzrə üzərinə böyük öhdəliklər götürdü.

**Valter Svimmer,**
Avropa Şurasının Baş katibi

Biz Heydər Əliyevlə çoxdan tanışıq, bir-birimizi on illərdir ki, tanıyırıq. Heydər Əliyev Kremldə işləyərkən mən, adətən, onun yanına dəstək almaq üçün gedirdim, çünki O, məndən bir qədər yaşlıdır və həmişə də ondan dəstək alırdım.

Belə düşünürəm ki, Azərbaycan xalqı keçmiş mərhələyə baxmayaraq, Heydər Əliyevi dövlətə başçılıq etməyə çağırmaqla düzgün hərəkət edib. Sizin rəhbərliyinizlə aparılan məqsədyönlü və ardıcıl siyasət sayəsində Azərbaycan azad inkişaf yolunda, öz dövlətçiliyini və beynəlxalq aləmdə mövqelərini möhkəmlətmək işində böyük uğurlara nail olub.

Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Hamımıza məlumdur ki, Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görüb. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir.

**Nursultan Nazarbayev,**
Qazaxıstan Respublikasının prezidenti

***

Biz bilirik ki, demokratiyaya doğru gedən yol çətindir. Planlı inzibati-amirlik iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına keçid uzun sürən, mürəkkəb prosesdir. Ancaq biz inanırıq ki, Heydər Əliyevin müstəqillik əzmi, demokratik əzmi, demokratik mövqe tutması bütün dünya ilə əlaqələr yaratması üçün layiqli körpü rolunu oynayacaqdır.

**Oskar Luisçi Skalfaro,**
İtaliya prezidenti

Belə bir hal heyranlıq doğurur ki, hətta ən çətin sınaqlar zamanı da Siz xalqın birliyini qoruyub saxlaya bildiniz. Birlik olmadan hər hansı bir dövlətin varlığı ağlasığmazdır. Cənab Heydər Əliyev, Sizə həqiqətən qibtə edirəm.

Sizə həqiqətən qibtə edirəm, Heydər Əliyeviç! Siz Azərbaycan tərəfindən qəbul edilən lidersiniz.

Yaroslav Mudrı ordenində belə bir yazı var: "Müdriklik, şərəf-şöhrət". Belə sözləri tam mənası ilə Heydər Əliyevə aid etmək olar. Dövlət başçısı kimi Siz ölkənin inkişafının siyasi və iqtisadi məsələlərində müdriklik göstərirsiniz. Siz Cənubi Qafqaz regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyətinizlə artırırsınız.

**Leonid Kuçma,**
Ukraynanın sabiq prezidenti

***

Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də bütün SSRİ-nin xalq təsərrüfatının inkişafına böyük töhfə vermişdir.

Heydər Əliyev yenidən respublikaya başçılıq etməyə başladı, orada qayda-qanun yaratdı, qan tökülməsinin qarşısını aldı, müharibəni dayandırdı. Kaş, bizim Rusiyada da belə adamlar olaydı!

**Nikolay Baybakov,**
Keçmiş SSRİ-nin Dövlət Plan Komitəsinin sədri

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə daim xatırlanacaqdır.

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Zati-alilərinizin liderliyi ilə Azərbaycan Respublikasının atdığı addımları Türkiyə rəğbətlə izləyir. Azərbaycan xalqının səadəti həm də türk xalqının səadətidir. Türkiyə həmişə kədərdə də, sevincdə də dost və qardaş Azərbaycanın yanındadır.

**Əhməd Necdət Sezər,**
Türkiyənin sabiq prezidenti

***

Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycanda baş verən müsbət dəyişikliklərdən xəbərdaram. Biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın durmadan inkişaf etdirilməsinə xüsusi maraq göstəririk.

**Piter Stoyanov,**
Bolqarıstan Respublikasının prezidenti

Heydər Əliyev Azərbaycanın gələcək firavanlığının bünövrəsini qoymuşdur.

Heydər Əliyev zəkasına, məsələləri işgüzarcasına, təmkinlə həll etmək bacarığına görə seçilən şəxsiyyətdir.

Biz Azərbaycan Respublikası Prezidentinin həm öz ölkəsinin xalqı üçün, həm də başqa xalqlar üçün gördüyü bütün işləri heç zaman unutmayacağıq. Heydər Əlirza oğlu görkəmli dövlət xadimi və siyasi xadim olmuşdur. Azərbaycan Respublikasının suveren dövlət kimi təşəkkül tapması həmişə onun adı ilə bağlı olacaqdır.

Heydər Əliyev müdrik və uzaqgörən, dünyada layiqli hörmətə və nüfuza malik dövlət xadimidir.

**Yuri Lujkov,**
Moskvanın meri

***

Heydər Əliyev Zaqafqaziya və Xəzər regionunda sülh yaranması və sabitliyin qorunub saxlanmasında çox iş görmüş böyük nüfuza malik siyasətçidir.

**Arpad Hents,**
Macarıstan Respublikasının prezidenti

***

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

**Əlahəzrət Akixitio,**
Yaponiya imperatoru

Vaşinqtonda Azərbaycan Prezidentini səbirsizliklə gözləyirlər. Azərbaycan çox mühüm ölkədir. Siz çox görkəmli lidersiniz, Amerikada bunu getdikcə daha dərindən başa düşürlər. Elə buna görə də Azərbaycan-Amerika münasibətlərinin yalnız ikitərəfli deyil, həm də regional və strateji əhəmiyyəti var.

Heydər Əliyev Azərbaycanda demokratiyanın və fikir plüralizminin, yeni iqtisadi və siyasi münasibətlərinin qarantıdır.

Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir.

**Zbiqnev Bjezinski,**
ABŞ prezidentinin milli təhlükəsizlik üzrə
sabiq müşaviri, məşhur politoloq

***

Bir çox nüfuzlu neft şirkətləri ilə Azərbaycanın tarixi əhəmiyyətli müqavilələr imzalaması görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin bariz nümunəsidir.

**Quntis Ulmanis,**
Latviya prezidenti

***

Heydər Əliyevin zəngin təcrübəsi və müdrikliyi sayəsində əldə edilmiş nəticələr yeni müstəqillik qazanmış digər ölkələr üçün də gözəl nümunədir.

**Algidras Brazauskas,**
Litva prezident

Heydər Əliyevin həyata keçirdiyi strateji neft siyasəti Azərbaycanı ABŞ və Avropanın aparıcı dövlətləri ilə bağladı. Azərbaycanın iqtisadi maraqlarını bizim milli mənafelərimizlə uyğunlaşdırdı.

... Heydər Əliyev açıq və qətiyyətli mövqeyi olan dövlət xadimidir.

Cənab Heydər Əliyev Corc Vaşinqtona bərabər şəxsiyyət və Amerikanın böyük dostudur.

Prezident Klintonun Prezident Əliyevlə görüşündən məmnunam. Bu vəzifədə olduğum dövrdə ABŞ-da Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu səfər edən ikinci prezident görməmişəm.

**Madlen Olbrayt,**
ABŞ-ın sabiq dövlət katibi

***

Heydər Əliyev Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən onunla fəxr edirdim, onun hər bir müvəffəqiyyətinə qəlbən sevinirdim. Bu gün də onu ən yaxın dostum hesab edirəm.

**Hafiz Əsəd,**
Suriyanın sabiq prezidenti

***

Cahanşümül siyasətçi kimi dünya siyasəti proseslərinin yaxın gələcəkdə hansı istiqamətdə inkişaf edəcəyini Heydər Əliyevin dilindən eşitməyim mənim üçün çox əhəmiyyətlidir.

**Keçeril Narayana,**
Hindistan prezidenti

Dünyada görkəmli dövlət xadimi kimi yaxşı tanınan Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası yaxın gələcəkdə ən inkişaf etmiş ölkələrdən birinə çevriləcəkdir.

**Kofi Annan,**
BMT-nin keçmiş baş katibi

***

Heydər Əliyev bütün dünyada tanınmış bir siyasətçi, dövlət xadimi və millət atasıdır.

Heydər Əliyev müstəqil, demokratik, hüquqi bir dövlətin memarıdır. O, doğma xalqın milli şüurunu dirçəldərək, onda gələcəyə böyük ümidlərlə baxmaq hissləri yaratmışdır. Biz Heydər Əliyevlə və Türkiyənin böyük qurucusu Mustafa Kamal Atatürklə fəxr edirik.

**Ergün Yenər,**
Türkiyənin "Fatih" Universitetinin rektoru,
professor

***

Heydər Əlirza oğlu bütün mənliyi ilə türk oğlu türkdür!

**İrfan Ünvər Nəsrəddin oğlu,**
Türkiyə Respublikası, yazıçı

***

Bu gün Azərbaycan həqiqəti adlı bir rüzgar dünyanın ən yüksək kürsülərində əsirsə, bu məhz Heydər Əliyevin yenilməz iradəsinin, gərgin əməyinin, müdrik siyasətinin bəhrəsidir.

**İlhan Aşqın,**
Hollandiyanın Azərbaycan-Türk Kültür
Dərnəyinin rəhbəri

Heydər Əliyev fəal, müdrik və ədalətlidir və belə də qalır.

**Anatoli Solovyanenko,**
SSRİ xalq artisti

***

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin inkişafına əvəzsiz töhfə vermişdir.

**Oleq Kutafin,**
Moskva Dövlət Hüquq Akademiyasının rektoru, akademik

***

Bu gün bir çox siyasətçilər hiylələr qurmaqla, xalqları bir-birinə vuruşdurmaqla məşğul olduqları bir vaxtda Heydər Əliyev əbədi dəyərlərin qorunması sahəsində əvəzsiz işlər görür.

**Rimma Kazakova,**
Rusiya Federasiyası, şair

***

Mən inanıram ki, Heydər Əliyev kimi prezidenti olan ölkə qarşıya çıxan bütün çətinliklərin öhdəsindən mətanətlə gələcək.

**Vladislav Kazenin,**
Rusiya Federasiyası Bəstəkarlar İttifaqının sədri

***

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda kiçik bir vaxt ərzində çox böyük tərəqqi baş vermişdir.

**Mayya Plisetskaya,**
SSRİ xalq artisti

Heydər Əliyev bütün düyünləri açmağa qadir olan şəxsiyyətdir.

Heydər Əliyev olduqca böyük bir iş görmüş, xalqı öz ölkəsinin sahibi etmiş və bütünlükdə ölkəni dəyişdirmişdir.

**Mstislav Rastropoviç,**
zəmanəmizin böyük musiqiçisi

***

Prezident Heydər Əliyev mədəniyyət və ədəbiyyata böyük hörmət bəsləyir. Bu, onun müdrikliyinə dəlalətdir.

**İvan Draç,**
Ukrayna Respublikası, şairi

***

İllərdən bəri tanıdığım və hörmət bəslədiyim şəxsiyyətlərdən biri Heydər Əliyevdir. Onun öz xalqı üçün, tarix üçün, Rusiya ilə əlaqələr üçün sağ-salamat qaldığına görə taleyə minnətdaram.

**Yeqor Stroyev,**
MDB Parlamentlərarası Assambleyası
Şurasının keçmiş sədri

***

Heydər Əliyev dünya siyasətinin patriarxı, nadir şəxsiyyətdir.

**Əbdülvahid Niyazov,**
Rusiya Dövlət Dumasında “Avrasiya”
Fraksiyalararası Birliyi Şurasının sədri

Prezident Heydər Əliyev Azərbaycanı müstəqillikdən sonra nümunəvi bir tərzdə irəli apardı. Azərbaycan xalqının etimadı və inamı onun alicənab liderlik keyfiyyətlərinə sayğının nümunəsi idi.

**Mir Zəfərulla Xan Camali,**
Pakistan İslam Respublikasının sabiq baş naziri

***

Mən tam əminəm ki, tarix özü, Azərbaycan xalqı ölkənin çətin müstəqillik prosesində və müasir dövlət kimi güclənməsində Heydər Əliyevin layiq olduğu yeri müəyyən edəcəkdir.

**Gilermo Martines Kassan,**
Avropa Şurası Parlament Assambleyasında
İspaniya nümayəndə heyəti sədrinin
birinci müavini

***

Biz elə bir şərait yaratmaq istəyirik ki, Qafqaz sülh və sabitlik regionuna çevrilsin. Bu istəyin reallaşmasında Heydər Əliyevin neft strategiyası misilsiz rol oynayıb və bu gün də oynamaqdadır.

Heydər Əliyev ölkəsinin maraqlarını hər şeydən üstün tutan liderdir.

Heydər Əliyev həmişə demokratiya, tərəqqi, iqtisadi irəliləyiş haqqında düşünür, həmişə düzgün hərəkət edir.

Heydər Əliyev regionun ən uzaqgörən şəxsiyyətidir.

**Riçard Armitac,**
ABŞ dövlət katibinin birinci müavini

Heydər Əliyev təkcə Azərbaycanın yaxşı lideri deyildir, həm də öz nöqteyi-nəzərini digər adamlara və ölkələrə qəbul etdirməyi bacaran siyasi xadimdir.

**Llyod Bentsen,**
ABŞ senatoru

***

Heydər Əliyevin Azərbaycan idealına ürəkdən bağlı olması öz millətinə necə zövq verirsə, bizə də bir o qədər xoş təsir bağışlayır.

Dövlət xadimi olan qardaşım Heydər Əliyevin keyfiyyətləri, istedad və təcrübəsi Azərbaycanda demokratikləşmə prosesinin intensivləşməsinə, bu ölkənin dünya birliyinə sıx inteqrasiyasına ciddi təkan vermişdir.

Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin qiymətini, dəyərini çox yaxşı bilir.

Azərbaycan xalqı ona çox böyük vəfa və qədirbilənlik göstərmişdir. Günlərlə davam edən sevgi seli onun yeganə mükafatıdır.

Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir.

Azərbaycanın bugünkü nailiyyətlərində Heydər Əliyevin səriştəli və müdrik rəhbərliyi şəksizdir.

Mən tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir, bir o qədər də türk vətənpərvəridir.

**Süleyman Dəmirəl,**
Türkiyənin sabiq prezidenti

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanı demokratik inkişaf yoluna çıxarmışdır.

**Li Hamilton,**
ABŞ konqresmeni

***

Prezident Heydər Əliyevin fəaliyyətini Atatürklə yan-yana qoyuram, görürəm ki, bir çox məqamlar üst-üstə düşür.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qısa müddətdə böyük inkişaf yoluna çıxararaq, onu bütün dünyada tanıtmış və ona böyük nüfuz qazandırmışdır.

**Doktor Şəfayi Ənsari,**
ABŞ-dakı Azərbaycan Mədəniyyət
Cəmiyyətinin nümayəndəsi

***

Azərbaycan Prezidenti qeyri-adi, dahi şəxsiyyətdir. Onu ən görkəmli siyasi və dövlət xadimi kimi Corc Vaşinqtonla müqayisə edirəm. Onların hər ikisinin tarixi missiyası arasında uyğunluq var.

**Alen Ueynşeyn,**
ABŞ Demokratiya Mərkəzinin prezidenti

***

Heydər Əliyev ABŞ-ın böyük dostu, islahatçıdır. Onun ölkəsinin böyük gələcyi var və biz onunla sıx əlaqə yaratmaq istəyirik.

**Uilyam Riçardson,**
ABŞ-ın BMT yanında daimi nümayəndəsi

Bu gün Heydər Əliyevdən məşhur və hörmətli olan siyasətçi yoxdur.

**Mixail Bekker,**
Avropa Yəhudiləri icmasının sədri

***

Prezident Heydər Əliyev çox çətin şəraitdə nəzərə çarpan irəliləyişə nail olmuş, Azərbaycanın müstəqilliyinə və gələcək inkişafına təminat yaratmışdır.

**Pol Qobl,**
"Azad Avropa" radiostansiyası direktorunun
translyasiya üzrə müavini

***

Görkəmli dövlət xadimi, prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində müsbət işlər görülür.

**Aven Mur,**
Beynəlxalq Yardım Komitəsinin direktoru

***

Prezident Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda yəhudilər üçün yaradılan şərait dünyadakı bütün müsəlmanlar və yəhudilər üçün nümunə olmalıdır.

**Avraam Burq,**
Ümumdünya Yəhudi Agentliyi Direktorlar
Şurasının sədri

Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli liderdir.

**Federiko Mayor,**
YUNESKO-nun Baş direktoru

***

Heydər Əliyev Azərbaycanda və keçmiş Sovetlər İttifaqında çox layiqli dövlət xidmətləri olmuş bir şəxsdir.

**Samir Sambar,**
BMT Baş katibinin ictimai informasiya üzrə müavini

***

Azərbaycanda son dövrdə baş verən müsbət dəyişikliklər prezident Heydər Əliyevin həyata keçirdiyi müsbət tədbirlərin nəticəsidir.

**Yan Lanq,**
Böyük Britaniyanın Ticarət və Sənaye naziri

***

Obyektiv müfəssəl məlumatları Heydər Əliyev kimi qiymətləndirən ikinci adam tanımıram.

**Reno Monori,**
Fransa Senatının sədri

***

Bu gün Azərbaycan Heydər Əliyevin yürütdüyü uzaqgörən daxili və xarici siyasət nəticəsində dünya siyasətində strateji rol oynayır.

**Erve de Şarett,**
Fransanın xarici işlər naziri

Heydər Əliyev canlı əfsanədir.

**Jan Düre,**
Fransa, sovetoloq

***

Mən Heydər Əliyevin şəxsində uzaqgörən və qətiyyətli siyasətçi nümunəsi görürəm.

Heydər Əliyev sülhsevər insandır, xalqına gərək böyük rəhbərdir.

**Akira Amarini,**
Yaponiya-Azərbaycan Dostluğu Parlament Assosiasiyasının prezidenti

***

Azərbaycan müstəqillik əldə etdikdən sonra ağır dövr keçirmişdir. Heydər Əliyev prezident vəzifəsinə başladıqdan sonra sabitləşmə və iqtisadi islahatlar istiqamətində uğurlu iş aparılır. Bunu təkcə mən yox, bütün dünya etiraf edir.

**Herdl Viqhard,**
Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin dövlət katibi

***

Baş komutan Heydər Əlirza oğlu dünya şöhrətli bir liderdir. O, Atatürkün mənəvi övladıdır!

**Dəniz Baykal,**
Türkiyə Respublikası Cümhuriyyət Xalq Partiyasının lideri

Heydər Əliyev Azərbaycan üçün bir bəxtdir, bir şansdır.

Heydər Əliyev bütün türk dünyasının lideridir. Mən onun zəkası, ağlı, düşüncəsi, cəsarəti qarşısında baş əyirəm.

Hörmətli Heydər Əliyevi biz gəncliyimizdən indiyədək əfsanəvi bir şəxsiyyət, lider kimi tanıyırıq və təbliğ edirik. Bir türkün böyük dövlətlər birliyinin ən yüksək vəzifəsində çalışmasından vaxtilə biz həmişə böyük iftixar hissi keçirmişik. Biz Heydər Əliyevin timsalında Azərbaycanın xilaskarını görürük.

**Namiq Kamal Zeybək,**
Türkiyənin sabiq dövlət naziri

***

Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Azəri xalqının Cümhurbaşqanı sayın Heydər Əliyevin liderliyi ilə Azərbaycan öz müstəqilliyini, suverenliyini möhkəmləndirərək, bölgənin önəmli bir dövləti olmaq yolundadır.

**Hikmət Çətin,**
Türkiyə Böyük Millət Məclisinin sabiq sədri

***

Heydər Əliyev mənalı ömür yolu keçmiş görkəmli bir şəxsiyyətdir.

**Benyamin Netanyahu,**
İsrailin sabiq baş naziri

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müstəqil Azərbaycan böyük tərəqqi yoluna qədəm qoyub.

**Xose Mariya,**
İspaniya hökumətinin sədri

***

Görkəmli dövlət xadimi Heydər Əliyevin liderliyi bölgədə bütün ölkələr üçün xüsusi əhəmiyyət daşıyır. Biz Azərbaycanı Qafqaz regionunda çox mühüm coğrafi-siyasi əhəmiyyəti olan bir ölkə hesab edirik.

**Turbörn Uaqland,**
Norveçin baş naziri

***

Xəzərin Azərbaycan sektorundakı “Çıraq - 1” yatağından ilkin neftin hasil edilməsi görkəmli dövlət xadimi Prezident Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

**Əmir Musa,**
Misir Ərəb Respublikasının xarici işlər naziri

***

Fəxr edirik ki, Heydər Əliyevin zəmanəsində fəaliyyət göstəririk və onun arxasınca gedərək göstərişləri-ni həyata keçiririk.

**Flavio Kotti,**
İsveçrənin xarici işlər naziri

Mən demişəm ki, belə insan 100 ildə bir dəfə dünyaya gəlir, amma sonra gördüm ki, səhv edirəm, belə insan 1000 ildə bir dəfə doğulur.

Heydər Əliyev dahi bir insandır və onu fərqləndirən əsas keyfiyyət yenilməz iradəsidir, bu iradənin gücünə isə hətta düşmənlər də pərəstiş edirlər.

Heydər Əliyev kimi tarixi şəxsiyyətlər min ildə bir dəfə doğulur, belə insanlar dünyanın ləl-cəvahiridir, onları qorumaq, hifz etmək gərəkdir, çünki onlar bütün varlığını, həyatını əmin-amanlığın, səadətin bərqərar olmasına həsr edir, özlərini isə düşünmür, qorumurlar.

**Nikas Safranov,**
məşhur rəssam

***

1997-ci ildə ABŞ-a ilk rəsmi səfəri zamanı Amerikada hamı Prezident Heydər Əliyevlə görüşməyə can atırdı.

**Riçard Luqar,**
ABŞ Senatının sabiq komitə sədri

***

Heydər Əliyev öz fəaliyyətini təkcə Azərbaycanda məhdudlaşdırmayıb, bütün regionda, dünyanın bu bölgəsində də sülhün, əmin-amanlığın bərqərar olması üçün var qüvvəsi ilə çalışmışdır.

Heydər Əliyev Azərbaycanın, bütün regionun böyük lideri, Amerika-Azərbaycan dostluğunun təcəssümüdür.

**Yan Kalitski,**
ABŞ-ın sabiq prezidenti Bill Klintonun nümayəndəsi

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolundakı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur.

**Bill Klinton,**
ABŞ-ın sabiq prezidenti

***

Heydər Əliyev Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunmuş, xalqımızın qəlbində əbədi məskən salmış, unudulmaz, həmişəyaşar dahi şəxsiyyət, böyük insandır.

”Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan üçün çox vacib olan dövrdür. Bu dövrdə Azərbaycanın mövqeyini müdafiə edən şəxslərə ehtiyac böyükdür. Prezident Heydər Əliyevin neft diplomatiyası bu baxımdan əvəzsiz məna kəsb edir.

**Endri Fokler,**
“Yunokal” şirkətinin vitse-prezidenti

***

Heydər Əliyevin fəaliyyətini Atatürklə yan-yana qoyuram, görürəm ki, bir çox məqamlar üst-üstə düşür.

**Əli Aslan,**
Amerikada Azərbaycan Assambleyasının sədri,
doktor

***

Azərbaycan nefti regional sabitliyin əsas təminatçısıdır. Biz bu siyasətin həyata keçirilməsində Heydər Əliyevin iradəsini yüksək qiymətləndiririk.

**Piter Uyoke,**
Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri

Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İnanıram ki, Azərbaycanın çiçəklənən respublikaya çevrilməsində Heydər Əliyevin həyata keçirdiyi neft siyasəti öz sözünü deyəcəkdir.

**Spenser Abrahm,**
ABŞ-ın energetika naziri

***

Heydər Əliyev Azərbaycanda oturaqlaşmış dövlət modeli qura bildi, keçmiş SSRİ-nin süqutundan sonra o, bu tarixi missiyanın öhdəsindən uğurla gəldi. Heydər Əliyevin müəllifi olduğu neft siyasəti Azərbaycan və Gürcüstan xalqlarının taleyində müstəsna rol oynayır.

**Mixail Saakaşvili,**
Gürcüstan Respublikasının prezidenti

***

Heydər Əliyevin qətiyyətli iştirakı və şəxsi əməyi olmasaydı, Azərbaycanın nailiyyətləri də mümkün olmazdı.

Heydər Əliyevin işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı HEYDƏR ƏLİRZA oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

**Emoməli Rəhmonov,**
Tacikistan Respublikasının prezidenti

Azərbaycan keçmiş SSRİ respublikaları arasında yeganə ölkədir ki, sürətlə inkişaf edir. Təbii ki, bu inkişafın əsasında görkəmli dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi neft siyasəti dayanır.

**Qrem Elison,**
Belfor mərkəzinin prezidenti

***

Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi.

Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi bir neçə il bundan əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliklərin memarlarından biri kimi tanıyır və qiymətləndirirlər.

Azərbaycan xalqının əsl xoşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi, böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdür.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin rəhbəri olmaqla yanaşı, həm də zəmanəmizin görkəmli liderlərindən biridir.

**Aleksandr Kvasnevski,**
Polşa prezidenti

Bu gün Azərbaycanın nümayiş etdirdiyi uğurlar, qazandığı nailiyyətlər daha əhəmiyyətli və daha sanballıdır. Bütün bunlar Azərbaycan xalqının tanınmış lideri Heydər Əliyevin çox böyük şəxsi töhfəsinin və şəxsi şücaətinin nəticəsidir.

**Saparmurad Niyazov,**
Türkmənistan Respublikasının sabiq prezidenti

***

Ölkənin nüfuzunu artırmaq, beynəlxalq kürsülərdə onun sözünə kəsər gətirmək və xalqın firavan həyatını təmin etmək üçün təkcə əlverişli geosiyasi məkan sərf etmir. Bu geosiyasi vəziyyətdən istifadə etmək, baş çıxarmaq üçün təcrübəli və nüfuzlu dövlət rəhbərlərinə ehtiyac duyulur. Heydər Əliyev məhz belə rəhbərlərdəndir.

**Bənəziz Bhutto,**
Pakistanın sabiq baş naziri

***

İlkin neftin hasil edilməsinin qeyd olunması çox mühümdür və gələcəyin simvoludur. Bu uğur digər imkanlar üçün qapı olacaqdır. Unutmaq olmaz ki, bu layihə prezident Heydər Əliyevin cəsur liderliyi, beynəlxalq biznes dairələri ilə əməkdaşlığı nəticəsində mümkün olmuşdur.

**Federiko Penya,**
ABŞ-ın energetika naziri

Heydər Əliyev barəsində çox şey məlumdur, həm də heç nə məlum deyil.

**M.Serdyunkov,**
Jurnalist (Moskva)

***

Allah Heydər Əliyevi xalqı xilas etmək üçün göndərib.

**Mixail Şevelyov,**
«Moskovskaya novosti» qəzeti

***

Heydər Əliyev tarixin nadir yetişdirdiyi bir dövlət adamıdır.

Heydər Əliyev müdrik dövlət xadimi kimi türkdilli xalqların ən görkəmli liderlərindən biridir.

Heydər Əliyev fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük bir şəxsiyyətdir.

Heydər Əliyev əsrimizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev hər zaman Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıq göstərmişdir.

**İhsan Doğramacı,**
professor

Azərbaycanın yeni dövlət neft strategiyasının yaradılması Prezident Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Azərbaycan XXI əsrin reallıqlarını və ilk növbədə, milli mənafeləri nəzərə alaraq, öz coğrafi strategiyasını onun əsasında qurur.

**Luk Keller,**
"AMOKO Kaspian Si Petroleum"
şirkətinin prezidenti

***

Milyonlarla insanın taleyinin həll olunduğu bir dövrdə tarix bütün dünyada tanınmış bəzi rəhbərləri geri qaytardı. Heydər Əliyev Azərbaycanın nüfuzunu bütün dünyada tanıdan qanuni liderdir.

Siz bütün çətinliklərdən, ən ağır sınaqlardan keçməyi bacaran rəhbərlərdənsiniz, ona görə də demək istəyirəm ki, belə rəhbəri olan xalq xoşbəxtdir.

Yalnız Sizə deyil, Azərbaycan xalqına da həsəd aparıram, çünki bu gün onun belə lideri var və o, öz yaddaşında hər şeyi saxlayır, ən başlıcası isə, onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi var. Siz danışdıqca mən həyatımızda bir çox halları, hadisələri yeni tərzdə qiymətləndirməyə başlayıram.

Fəxr edirəm ki, Azərbaycan Respublikasının rəhbəri, dünya şöhrətli, görkəmli siyasətçi Heydər Əliyev mənə qardaş və dostdur. Siz bütün çətinliklərdən, ən ağır sınaqlardan keçməyi bacaran rəhbərlərdənsiniz, ona görə də demək istəyirəm ki, belə rəhbəri olan xalq xoşbəxtdir.

**İslam Kərimov,**
Özbəkistan Respublikasının prezidenti

Prezident Heydər Əliyevin çıxışı öz dəyəri ilə bir çoxları kimi, məni də heyran edir. Onun çıxışında bütün məsələlər müdrikliklə açılıb ortaya qoyulur.

**Doktor Cavad Heyət,**
İran İslam Respublikası, cərrah

***

Heydər Əliyev nəinki Azərbaycanın, o cümlədən bütün Qafqazın atasıdır.

**Vaxa Arsanov,**
Çeçenistanın keçmiş vitse-prezidenti

***

Heydər Əlirza oğlu Azərbaycanın böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi.

**Murtuza Rəhimov,**
Başqırdıstan Respublikasının prezidenti

***

Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir.

Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir-birinə bağlanmış olan xalqımızı dərindən kədərləndirmişdir.

**Abdullah Gül,**
Türkiyə Respublikasının sabiq xarici işlər naziri

Heydər Əliyev baxışlarına və təkliflərinə görə böyük əhəmiyyət verdiyimiz bir liderdir. Dövlət rəhbərliyi sahəsində zəngin təcrübəsi olan bu şəxsiyyətin çətin bir dövrdə respublikaya rəhbərlik etməsinin böyük əhəmiyyəti var.

Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə qatılmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir.

**Məsud Yılmaz,**
Türkiyə Respublikasının sabiq baş naziri

***

Heydər Əliyev bütün ömrü boyu böyük və nəcib işlər görmüşdür.

**Vsevolod Şilovski,**
Rusiyanın xalq artisti

***

Heydər Əliyev ləyaqətli və heyrətamiz insan, zəmanəmizin ən böyük siyasətçilərindən biri idi.

**Rimma Kazakova,**
Tanınmış rus şairi

***

Heydər Əliyev Azərbaycan millətinin atası, dünya siyasətinin patriarxıdır.

**Boris Oleynik,**
məşhur Ukrayna yazıçısı

Heydər ƏLİRZA oğluna xas olan yüksək siyasi və işgüzar keyfiyyətlər, səmimilik və insanlara qarşı fəallıq ona təkcə Vətənimizdə deyil, çox-çox uzaqlarda da dərin hörmət qazandırmışdır.

**Nikolay Patruşev,**
MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik
Orqanları Rəhbərləri Şurasının sədri,
ordu generalı

***

Gənc Azərbaycan Respublikası hazırda bütün dünyaya örnək ola biləcək addımlar atır.

Demokratik və sivilizasiyalı cəmiyyət quruculuğu yolunda böyük işlər görülür. Prezident Heydər Əliyevin bu sahədə gördüyü işləri bütün türk dünyası müdafiə edir.

**Tansu Çillər,**
Türkiyənin sabiq baş naziri

***

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkəmiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

**Vladimir Voronin,**
Moldova Respublikasının prezidenti

Heydər Əliyev əzəldən xalqlarımızı birləşdirən dostluq və qardaşlığın möhkəmləndirilməsinə olduqca böyük töhfə vermişdir.

**Nino Burcanadze,**
Gürcüstan Parlamentinin sabiq sədri

***

Azərbaycanın yetirdiyi böyük dövlət adamı Heydər Əliyev ölkələrimiz arasında müştərək tarix və mədəniyyətə əsaslanan əlaqələrin inkişafına və bununla da, qardaşlıq və dostluğumuzun möhkəmləndirilməsinə böyük töhfə vermişdir.

**Bülənd Arınc,**
Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri

***

Heydər Əliyev heyrətamiz, yorulmaq bilməyən insan idi

**Arkati Nesterov,**
Rusiya Tibb Elmləri Akademiyasının akademiki

***

Bir vaxtlar arzu kimi görünən məsələlər Heydər Əliyevin qətiyyətli əzmi nəticəsində həqiqətə çevrilir.

**Con Braun,**
BP şirkətinin sabiq prezidenti

Suveren dövlətlər kimi, Ukrayna və Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə Prezident Heydər Əliyevin yorulmadan çəkdiyi zəhməti və göstərdiyi müdrik dəstəyi Ukraynada xatırlayır və qiymətləndirirlər.

Heydər Əliyev dialoq zamanı daim özünün diplomatik nəzakəti və incə üslubu ilə adamı heyran qoyurdu.

**Vladimir Litvin,**
Ukrayna Ali Radasının sabiq sədri

***

Şübhə etmirəm ki, Heydər Əliyevin demokratik Qərb dövlətləri ilə sıx əlaqələr qurmaq siyasəti uğurla həyata keçiriləcəkdir.

**Rolanda Paksas,**
Litva Respublikasının prezidenti

***

Heydər Əliyev Azərbaycan və region üçün çox işlər görmüş, Azərbaycanı dünyanın enerji bazarlarının liderinə çevirmişdir.

**Bədr Əl-Əybən,**
Səudiyyə Ərəbistanı “Delta Oyl” şirkətinin prezidenti

***

Cənab Prezident Heydər Əliyev, Sizə təşəkkür etmək istəyirəm, həmçinin Sizi təbrik etmək istəyirəm ki, Siz bizim “Əsrin müqaviləsi”nin ilhamverici qüvvəsi olmusunuz.

**Devid Vudvord**

Azərbaycan açıq qapı siyasəti yeridərək, xarici sərmayələri Xəzərin çox zəngin neft və qaz yataqlarının geniş miqyasda işlənilməsinə fəal cəlb edir. Bu siyasətin Azərbaycana böyük fayda verəcəyinə qəti əminəm.

**Brend Skouroff,**
ABŞ-ın sabiq müdafiə naziri

***

Azərbaycan Prezidenti Heydər Əliyev müasir zəmanəmizin görkəmli siyasi xadimlərindən biridir.

**Marqaret Tetçer,**
Böyük Britaniyanın sabiq baş naziri

***

Mütərəqqi dünya ictimaiyyətinin geniş dairələrində Heydər Əliyevi görkəmli siyasi xadim və dahi şəxsiyyət kimi yaxşı tanıyırlar. Müstəqil Azərbaycan dövlətinin tarixinə yazılmış parlaq səhifələr onun adı ilə bağlıdır.

Heydər Əliyev həmişə mənim qəlbimdədir. Onun problemlərimizə göstərdiyi diqqəti heç vaxt unutmarıq. Azərbaycanın dəstəyini həmişə hiss etmişik, biz bununla fəxr edirik və bundan qüvvət, güc alırıq.

**Yasir Ərəfat,**
Fələstin lideri

Heydər Əliyev Azərbaycanın müstəqilliyini qüvvətləndirən və ölkənin Avropa ilə, xüsusən Avropa Şurası ilə əlaqələrini möhkəmləndirən şəxsiyyət kimi həmişə yadda qalacaqdır.

**Piter Şider,**
Avropa Şurası Parlament Assambleyasının
sabiq sədri

***

Zəngin təcrübəyə malik siyasi xadim Heydər Əliyev ilə görüşə həmişə ehtiyac duyuram.

Azərbaycanda baş vermiş dəyişikliklər Heydər Əliyev kimi çox müdrik, səbrli, cəsur insanın rəhbərliyi sayəsində mümkün olmuşdur.

**Petru Luçinski,**
Moldovanın sabiq prezidenti

***

Heydər Əliyevin varlığı tanrının bizə bəxş etdiyi ən böyük nemətdir.

Mərkəzi və Cənubi Avropada liderlərin əksəriyyəti Prezident Heydər Əliyevin əldə etdiyi nəticələrə nail ola bilməmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu və iqtisadi islahatlar sahəsində əməli tədbirlər həyata keçirilir.

**Emil Konstantinesku,**
Rumıniyanın sabiq prezidenti

Heydər Əliyev cənablarının şəxsində özümüzə dost və lider tapmışıq. O, əsrlərdən bəri böyük tarixə malik olan bölgədə aparıcı mövqe tutmuş, keçmiş Sovetlər Birliyində yüksək vəzifələrdə olmuşdur. Buna görə də, biz onun kimi dahi bir xadimlə daim fikir mübadiləsi aparmaq istəyirik.

**Fərrux Əhməd xan Leqari,**
Pakistan İslam Respublikasının sabiq prezidenti

***

Azərbaycanın daha xoşbəxt, daha işıqlı gələcəyini yalnız Heydər Əliyev cənablarının fəaliyyəti ilə bağlamaq lazımdır.

**Con Meysor,**
Böyük Britaniyanın sabiq baş naziri

***

Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam. Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

**Butros-Butros Qali,**
BMT-nin sabiq baş katibi

Heydər Əliyev ən görkəmli dövlət xadimi kimi təkrarolunmaz səmimi atmosfer yarada bilir, elə bir atmosfer ki, orada hər şey var - inam, dostluq, fədakarcasına xeyirxahlıq.

**Lev Bardani,**
"Soxnut" Yəhudi Agentliyinin
nümayəndəsi

***

Əliyevlərin mehriban ailəsinin qonaqpərvərliyi yaddaşıma həmişəlik həkk olunmuşdur. Xoşbəxtəm ki, mən bu ailənin qonağı olmuşam. Zərifə xanımın da, gözəl övladlarının da ailənin başçısına necə böyük hörmət və ehtiramla yanaşdıqları diqqətimi cəlb etmişdir.

**Vitali Jolobov,**
təyyarəçi-kosmonavt, "Slava" Ümumukrayna
Birliyinin və Ukrayna Aerokosmik
Cəmiyyətinin prezidenti

***

Prezident Heydər Əliyev dünya dövlətlərinin liderləri arasında çox böyük nüfuza malik olan şəxsiyyətdir.

**Elizabet Şervud,**
ABŞ-ın Stenford Universitetinin professoru

***

Bütün güclü şəxsiyyətlər kimi, Heydər Əliyev hamını öz arxasınca apara bilir. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu.

**Odri Aldstadt,**
Amerikalı tarixçi

Dağıstan xalqı Heydər Əliyevə dərin məhəbbət, böyük hörmət və səmimi ehtiram bəsləyir.

Azərbaycan xalqını yalnız Heydər Əliyevin şəxsiyyəti, nüfuzu, siyasi iradəsi sıx birləşdirdi.

Heydər Əliyev həm öz sırf şəxsi, insani keyfiyyətlərinə görə, həm də özünün bənzərsiz siyasi yoluna görə nadir, bir çox cəhətdən təkrarolunmaz şəxsiyyətdir.

Azərbaycan xalqı özünə ölkəni idarə edə biləcək şəxsi prezident seçib.

**Məhəmmədəli Məhəmmədov,**
Dağıstan Dövlət Şurasının sabiq sədri

***

Heydər Əliyev antik qəhrəman kimi doğma torpağına gəldi və öz xalqına başçılıq etdi.

Ən məsul qərarların qəbulu zamanı onun ölçülübbiçilmiş mövqeyi Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, Müstəqil Dövlətlər Birliyinin təkmilləşməsinə kömək edirdi.

Güclü, cəsur Heydər Əliyeviçi insani səviyyədə incitdilər, amma o, antik qəhrəman kimi doğma torpağına gəldi, əlini ona basdı, qüvvət topladı və öz xalqına başçılıq etdi.

**Aleksandr Dzasoxov,**
Şimali Osetiya-Alaniya Respublikasının prezidenti

Heydər Əliyevin Sovet sistemi şəraitində respublikası, xalqı üçün gördüyü işlər hamımızda heyranlıq, bəlkə də bir qədər qibtə hissi doğurmuşdu.

Məhz Heydər Əliyevin qayğı və diqqəti sayəsində nə qədər görkəmli yaradıcı adamlar geniş şöhrət qazanmış, keçmiş SSRİ-nin bütün xalqlarının mənəvi inkişafına müsbət təsir göstərmişlər.

Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi həyatında Heydər Əlirza oğlunun oynadığı rolu lazımınca qiymətləndirmək çətindir.

Prezident Heydər Əliyevin xarici siyasəti nəticəsində Azərbaycan dünya birliyinə çox uğurla qovuşur.

**Mintimer Şaymiyev,**
Tatarıstan Respublikasının prezidenti

***

Prezident Heydər Əliyevi dinləmək çox əhəmiyyətli və faydalıdır.

Ölkəsini əsl yeni müstəqil dövlət kimi irəliyə aparan Prezident Heydər Əliyev bütün regionda çox önəmli liderlik rolu oynayan bir şəxsiyyətdir.

**Maykl Kellin,**
Vaşinqtondakı Corctaun Universitetinin
vitse-prezidenti

***

Müdrik Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan xalqı dünya şöhrəti qazanmışdır.

**Valeri Kokov,**
Kabarda-Balkariya Respublikasının prezidenti

Heydər Əliyeviç mənim üçün, gənc bir siyasətçi üçün faydalı olan iki iş gördü. Belə deyirlər ki, siyasət çirkin, əxlaqsız işdir. Amma Heydər Əliyev sübut etdi ki, siyasət əxlaqlı və alicənab adamların işidir. Buna görə də Azərbaycan yeni əsrə bu siyasətlə daxil olur.

**Ruslan Auşev,**
İnquşetiya Respublikasının keçmiş prezidenti

***

Heydər Əlirza oğlu həyatdakı Atatürkdür.

**Ərdal İnönü,**
Türkiyənin sabiq xarici işlər naziri

***

Heydər Əliyev cənablarının əzmi və qətiyyəti sayəsində Azərbaycanda insanların çəkdikləri əzab-əziyyətlərə son qoyulacaqdır.

**İon İliyesku,**
Rumıniyanın sabiq prezidenti

***

Heydər Əliyev içün müdrikliyi, mətinliyi şəxsi cəsurluğu, şəxsi taleyi, hər bir azərbaycanlının taleyi, bütün Azərbaycan dövlətinin taleyi bəri başdan elə müəyyənləşdirilmişdir ki, Azərbaycanı üçüncü minilliyə məhz Heydər Əliyev aparacaqdır.

**Aslan Carimov,**
Adıgey Respublikasının keçmiş prezidenti

Heydər Əliyev gənc siyasətçilər üçün əfsanədir.

Heydər Əliyev gənc siyasətçilərin ağsaqqalı, patriarxıdır.

**Kirsan İlyumjinov,**
Kalmıkiya Respublikasının prezidenti

***

Azərbaycanda insanların Allaha inamı çox güclüdür. Respublikanın belə bir ağır dövründə Heydər Əliyevin ona rəhbərlik etməsi Allah-Təaladan Azərbaycan xalqına böyük töhfədir.

**Marşal Əbdülrəhman Süvar Əs-Səhab,**
Sudanın prezidenti

***

Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür!

Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir.

Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabiliyyəti var, ona görə də indi ölkədə hər şey maşın mexanizmi kimi işləyir.

Hörmətli Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki ayrı dövlətik.

**Bülənd Ecevit,**
Türkiyənin sabiq baş naziri

Heydər Əliyev çətin bir şəraitdə ölkəsinə rəhbərlik edərək, onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparmışdır.

Almaniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişafı və dərinləşməsində Heydər Əliyevin səylərinin böyük rolu olmuşdur.

**Helmut Kol,**
Almaniyanın keçmiş federal kansleri

***

Prezident Heydər Əliyev həqiqətən böyük siyasi təcrübəyə malik şəxsiyyətdir.

**Ayətullah Seyid Əli Xamneyi,**
İranın Ali dini rəhbəri

***

Prezident Heydər Əliyevin Yaponiyaya səfəri tarixi hadisədir.

Yaponiyaya bir çox dövlət başçıları səfər ediblər. Lakin Heydər Əliyevin şərəfinə ictimaiyyət və kütləvi informasiya vasitələri tərəfindən göstərilən dərin maraq Yaponiyada nadir hallardan biridir.

Ölkənin nüfuzunu artırmaq, beynəlxalq kürsülərdə onun sözünə kəsər gətirmək və xalqın firavan həyatını təmin etmək üçün təkcə əlverişli geosiyasi məkan bəs etmir. Bu geosiyasi vəziyyətdən istifadə etmək, baş çıxarmaq üçün təcrübəli və nüfuzlu dövlət rəhbərlərinə ehtiyac duyulur. Heydər Əliyev məhz belə rəhbərlərdəndir.

**Ryutaro Haşimito,**
Yaponiyanın sabiq baş naziri

Heydər Əliyev görkəmli, müdrik dövlət xadimi kimi bütün ərəb dünyasında məşhurdur.

Heydər Əliyevin şöhrətli şəxsiyyəti barədə məlumatlar təkcə Livanda deyil, bütün ərəb dünyasında geniş yayılmışdır.

**Rafiq Əl-Həriri,**
Livanın keçmiş Baş naziri

***

Mən prezident Heydər Əliyevlə əvvəllər də görüşmüşəm və bizim indiki söhbətimizdən də çox böyük şərəf duyuram. Mən görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik ziyasına inanıram və bilirəm ki, onun rəhbərliyi altında Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirəcək və əbədi edəcəkdir.

Heydər Əliyevin uzaqgörən siyasəti xalqı və ölkəni firavanlığa, sürətli inkişafa gətirib çıxaracaqdır.

Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparmışdır.

**Henri Kissincer,**
ABŞ-ın sabiq dövlət katibi

***

Rusiyada Heydər Əliyevi Azərbaycan xalqının böyük oğlu, beynəlxalq miqyaslı müdrik siyasətçi, ölkəmizin və xalqımızın böyük dostu kimi tanıyırlar. Buna görə də, çox şadıq ki, bizə dost, əziz Azərbaycanın Prezidenti məhz Heydər Əliyev olmuşdur.

**İqor İvanov,**
Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının katibi, keçmiş xarici işlər naziri

Heydər Əliyev Azərbaycanı beynəlxalq birliyin tanınmış və nüfuzlu üzvlərindən birinə çevirmişdir.

**Klaus Kinkel,**
Almaniyanın sabiq xarici işlər naziri

***

Prezident Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycan Cənubi Qafqazın hüdudlarından uzaqda böyük şöhrət qazanmışdır.

Prezident Heydər Əliyev Qərb demokratiyalarının əsas prinsipi olan dünyəvilik prinsipini ölkədə tətbiq etdi.

Fransa və Azərbaycan arasında gözəl əlaqələrin inkişafında Heydər Əliyev xidmətləri əvəzsizdir.

**Kristian Ponsöle,**
Fransa Senatının sədri

***

Heydər Əliyev kimi liderlə görüş insanın yaddaşına həmişəlik həkk olunur.

Heydər Əliyevi özümə müəllim hesab edirəm, o, hər altı aydan bir mənə dərs verir.

**Duqlas Hörd,**
Böyük Britaniyanın keçmiş xarici işlər naziri

Prezident Heydər Əliyev yolu örnəkdir, ondan nümunə götürülməyə layiqdir.

**Zurab Jvaniya,**
Gürcüstan parlamentinin sabiq sədri

***

Heydər Əliyev dünya siyasətində böyük rol oynayan çox məşhur şəxsiyyətdir.

Prezident Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin Yaponiyaya ilk rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın durmadan inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.

**Keyzo Obuçi,**
Yaponiyanın keçmiş xarici işlər naziri

***

Prezident Heydər Əliyevin müdrikliyinə və dərin biliyinə heyranam.

Heydər Əliyevin müvəffəqiyyətli və özünəməxsus liderliyi sayəsində Azərbaycanda əldə edilmiş tərəqqiyə valeh olmuşam.

**Robin Kuk,**
Böyük Britaniyanın keçmiş xarici işlər naziri

Mən Azərbaycan Prezidentinin qətiyyətini, məğrurluğunu çox yüksək qiymətləndirirəm.

Prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya ilə Avropa arasında əlaqələr, əməkdaşlıq körpüsü qurulur.

**Xavyer Solana,**
NATO-nun sabiq baş katibi

***

Heydər Əliyev tarixin gedişinə təsir göstərən insanlardandır.

Heydər Əliyevdə mürəkkəb dünya siyasi prosesində yarım addım öndə olmaq istedadı var.

**Boris Qrızlov,**
RF-nin sabiq Daxili İşlər naziri,
Dövlət Dumasının sədri

***

Sizi Tanrının özü hifz edir, ona görə də Siz öz hərəkətlərinizdə azadsınız... Siz işləyirsiniz və öz işinizdən zövq alırsınız. Siz böyük nailiyyətlərə qadirsiniz. Siz öz ölkənizin gəncləri üçün nə etmək barədə düşünürsünüz.

Görkəmli dövlət xadimi Heydər Əliyev ülvi, bəşəri hisslərlə yaşayan bir rəhbərdir.

**Maykl Debeyki,**
ABŞ alimi, kardiocərrah

Heydər Əliyev parlaq siyasi sima və ailəsinə sədaqətli insan idi.

Heydər Əliyev tutduğu bütün vəzifələrdə özünü beynəlxalq miqyaslı nüfuza və hörmətə malik siyasətçi, zəkalı rəhbər kimi göstərmiş və göstərir.

**Gennadi Seleznyov,**
Rusiya Dövlət Dumasının sabiq sədri

***

Heydər Əliyevin rəhbərliyi ilə ölkədə baş vermiş böyük dəyişikliklər və tərəqqi adamı məftun edir.

Bütün dünya Heydər Əliyevi böyük siyasi və dövlət xadimi, müasir tipli ölkənin rəhbəri kimi tanıyır.

Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə əldə edilmiş tərəqqi çoxlarına müyəssər olmur.

**Hovard Beyker,**
ABŞ-ın prezidentinin milli
təhlükəsizlik üzrə sabiq köməkçisi

***

Heydər Əliyev mənim üçün böyük qardaş, ata, dost idi.

Heydər Əliyev mənim üçün çox əzizdir, mənim və ailəmin həyatında onun çox böyük rolu olmuşdur.

**Boris Qromov,**
Moskva vilayətinin qubernatoru

Heydər Əliyev ən mürəkkəb vəziyyətlərdə həqiqətin onun tərəfində olacağına inamını itirmirdi.

**Gennadi Seleznyov,**
Rusiya Dövlət Dumasının keçmiş sədri

***

Azərbaycan xalqının bəxti onda gətirdi ki, Heydər Əliyev cənabları yenidən hakimiyyətə qayıtdı.

**Anatoli Minçenko,**
Ukrayna Respublikasının dövlət naziri

***

Heydər Əliyevin həyatı xalqına fədakarcasına xidmətin parlaq sübutudur.

**Anatoli Malofeyev,**
Belarus Parlamenti Nümayəndələr
Palatasının sabiq sədri

***

Heydər Əliyevin fəaliyyəti xalqa xidmət, milli mənafeləri ardıcıllıqla qorumaq nümunəsi idi.

**Viktor Yanukoviç,**
Ukraynanın sabiq baş naziri

***

Heydər Əliyev dövrümüzün böyük siyasi xadimidir. Onunla keçirdiyim hər bir görüş böyük hadisədir.

**Jelyu Jelev,**
Bolqarıstan prezidenti

Azərbaycan Dövlətinin təşəkkülünə, Qafqazda sülhün, və sabitliyn möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişafına onun verdiyi töhfə qədirbilən həmvətənlərimizin xatirəsində həmişəlik qalacaqdır.

**Nikolay Rıjkov,**
RF, Federasiya Şurasının üzvü,
Rusiya Əmtəə İstehsalçıları İttifaqının prezidenti

***

İstedadlı siyasətçi, böyük dövlət xadimi, gözəl insan Heydər Əliyevin nurlu xatirəsi Rusiya xalqının qəlbində yaşayacaqdır.

Böyük siyasi xadimə xas qeyri-adi təfəkkürə malik olaraq, O, Azərbaycanı inkişaf edən sənaye respublikasına, dünya birliyndə layiqli yer tutan ölkəyə çevirə bilmişdir.

**Valentina Tereşkova,**
İlk qadın kosmonavtı

***

Heydər Əliyevin Qafqazın tarixindəki rolunu, bəlkə də, əlli ildən sonra anlamaq və dərk etmək mümkün olacaqdır.

**Ramazan Abdulatipov,**
Rusiya xalqları Assambleyasının sədri

***

Heydər Əliyev Azərbaycan xalqının ən yaxşı xüsusiyyətlərini özündə təcəssüm etdirən dahi şəxsiyyətdir.

**İrina Qolubeva,**
Ukrayna Qadınlar Milli Şurasının sədri

Əlbəttə, bütün MDB ölkələrinin yetim uşaqlarının onların taleyində HEYDƏR ƏLİRZA oğlunun necə böyük rol oynadığından xəbərləri ola bilməz, lakin Beynəlxalq Uşaq Fondları Assosiasiyası olaraq biz buna şahidik.

**Albert Lixanov,**
yazıçı, akademik

***

Heydər Əliyevin dəstəyi olmasaydı, yəqin ki, Moskva Universiteti bugünkü kimi olmazdı.

**Viktor Sadovniçi,**
Moskva Dövlət Universitetinin rektoru

***

Heydər Əliyevin beynəlxalq həyatın və ölkənin daxili siyasətinin ən mürəkkəb problemlərini elmi cəhətdən əsaslandırılmış və eyni zamanda, sadə, anlaşıqlı dildə ifadə etmək bacarığı məni həmişə heyran edirdi.

**Mariya Orlik,**
Ümumukrayna Qadınlar İttifaqının sədri

***

Biliyi, təcrübəsi və uzaqgörənliyi ilə böyük siyasi xadim kimi şöhrət tapan Heydər Əliyev müstəqil Azərbaycanın ümidlərini həqiqətə çevirəcək yeganə şəxsiyyətdir.

**Lətif Gülər,**
türk jurnalisti

***

Heydər Əliyev siyasət şahmatının ustasıdır.

**Qaçendra Sinqn,**
Hindistanın Azərbaycandakı ilk səfiri

Heydər Əliyev sağlığında əfsanələşən, tarixdə yerini alan şəxsiyyətdir.

Azərbaycana xarici sərmayə qoyuluşunun təməlində duran amil dövlət rəhbərliyi, xüsusilə də, Prezident Heydər Əliyev tərəfindən həyata keçirilən səmərəli siyasətdir.

Heydər Əliyev Türk və Azərbaycan tarixinə ən parlaq və istedadlı siyasi xadim kimi daxil olmuşdur. Müasir Azərbaycanın hansı sahəsinə nəzər salsanız, Heydər Əliyevin imzasını görür, onun yaratdığı əsərlərin şahidi olursunuz.

**İrfan Ülkü,**
Türk yazıçısı

***

Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində həmişə zirvədə olub. O, qabiliyyəti və istedadı sayəsində zirvəyə yüksələn bir şəxsiyyət olub. Onun millətimizə etdiyi yaxşılıqları saymaqla qurtarmaq olmaz. O, bu xalqın, bu millətin oğlu idi. Ona görə də o, Moskvada yüksək vəzifələrdə olduğu vaxtlarda belə, doğma Azərbaycanla yaşamış, onun havası ilə nəfəs almışdır.

Heydər Əliyev öz siyasəti ilə Azərbaycanı da göyə qaldırdı, dünyaya tanıtdırdı.

**Bəxtiyar Vahabzadə,**
xalq şairi

***

Biz tam qətiyyət və inamla XX əsrin sonunu "Azərbaycan möcüzəsi" dövrü adlandıra bilərik. Bunlar üçün biz Sizə və yenə də Sizə minnətdarıq.

**Nəbi Xəzri,**
xalq şairi

Azərbaycan millətinin Dədə Qorquddan, gəncəli Nizamidən tutmuş ustad Şəhriyaradək bədii dühaları bütün bəşəriyyətə yaxından bəllidir. Lakin bir Atilla, Alp Ər Tonqa, Tomris, Gültəkin, Mete, Oğuz xan, Şah İsmayıl Xətai, Nadir şah, Ağa Məhəmməd şah Qacar, Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Heydər Əmioğlu, Məhəmməd Əmin Rəsulzadə, Seyid Cəfər Pişəvari, Şıxəli Qurbanov kimi böyük ictimai-siyasi xadimlərimizi yetərli dərəcədə təbliğ etməmişik, xüsusilə gənclərimiiz onları çox az tanıyır. Mən bu siyahıya Azərbaycan millətinin sevimlisi HEYDƏR ƏLİRZA oğlunu da daxil edirəm.

Heydər Əliyev gücü və dünya miqyaslı nüfuzunun səbəbi nədədir? ... Heydər Əliyev öz xalqına alovlu məhəbbətində, coşğun təşkilatçılığında, istedadında, mərdanəlik və prinsipiallığında, yurd mənafeyini tapdayanlara güzəştə getməməsində, parlaq zəkasından doğan sərrast natiqlik hünərində, ruscanın, türkcənin və Azərbaycan türkcəsinin bütün incəliklərini və gözəlliklərini nümayiş etdirə bilməsində, qurub-yaratmaq təşnəliyində, bəşəri tərəqqinin ən çevik vasitələrini arayıb tapmasında! Bütün bunlardan əlavə, HEYDƏR ƏLİRZA oğlunda rusların “oboyaniye” sözü ilə dilə gətirdikləri məlahət var, öz dinləyicisini heyran qoyan, Əsir edən kişi məlahəti, aydınlıq, səmimilik, ürəyə girmək səadəti var.

**Xəlil Rza Ulutürk,**
Azərbaycanın xalq şairi

***

Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur.

**Qreq Laflin,**
ABŞ konqresmeni

Ataların bir misalı var: adam var ki, adamların naxşıdır. O, doğrudan da adamların naxşıdır.

**Qabil,**
xalq şairi

***

Heydər Əliyev bütün həyatını, ömrünü dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edir.

**Mirvarid Dilbazi,**
xalq şairi

***

Xalqımızın yüz illərlə mübarizə apardığı, həsrətində olduğu dövlət müstəqilliyimizi Siz əzmlə qoruyub saxlaya bildiniz.

**Hüseyn Abbaszadə,**
yazıçı

***

Prezident Heydər Əliyevin mənim ürəyimdə və ailə üzvlərimin ürəyində xüsusi yeri vardır.

Biz Heydər Əliyevin simasında özümüzə arxa, dayaq görürdük.

**Nikolay Beloblotski,**
Ukraynanın Rusiya Federasiyasındakı səfiri

***

Mən həmişə Heydər Əliyevi eyni yaşda ikən, İsraili faciəli dövrdə idarə edən müəllimim, bizim mərhum Baş nazirimiz və liderimiz İshak Rabinlə müqayisə edirəm.

**Doktor Efraim Sneh,**
İsrail parlamentinin üzvü

Heydər Əliyevin özünü yaxşı hiss etdiyi günlər əlimi sıxmasından və sıcaq təbəssümündən özümü xoşbəxt hiss edirdim.

Heydər Əliyev tarixin gedişində dönüş yaratmış şəxs idi. Mən fəxrlə deyə bilərəm ki, Onu tanıyırdım və Onu müalicə edənlərlə yaxın dost oldum.

**Herri Houlihən,**
Klivlend Klinikası təhlükəsizlik xidmətinin rəisi

***

Heydər Əliyev siyasət meydanında böyük nüfuz qazanmış şəxsiyyətdir.

**Lord Rassel Conston,**
Avropa Şurası Parlament
Assambleyasının sabiq sədri

***

Heydər Əliyevin Azərbaycanın mövqeyini beynəlxalq səhnədə möhkəmləndirmək və Azərbaycanla Dünya Bankı arasında əlaqələri gücləndirmək sahəsindəki səylərinin təsiri uzun müddət davam edəcəkdir.

**Şiqeo Katsu,**
Dünya Bankının vitse-prezidenti

***

Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda açıq rol oynayan ölkəyə çevrilmişdir.

**Yan Lük De An,**
Belçika Krallığının keçmiş baş naziri

Heydər Əliyevin gözəl, hər şeyi görə biləcək gözləri vardır. Əgər prezidentin gözləri gözəl olmasa, onun üçün çox çətin olar. İnsanlar həmişə insanı gözündən oxuyurlar.

**Xulio İqlesias,**
məşhur İspaniya müğənnisi

***

Heydər Əliyev həm də alicənablığına və müdrikliyinə görə yaddaşlarda qalacaqdır.

Heydər Əliyev əbədi olaraq yeri görünəcək böyük liderdir.

**Konsuelo Priasko,**
Romanın La Sapienza
Universitetinin rektoru

***

Azərbaycanın ikinci müstəqillik dövrü barədə tarix kitabları yazılarkən Heydər Əliyevin adı həmin kitabların səhifələrinə qızıl hərflərlə həkk olunacaqdır.

Heydər Əliyevin liderliyi sayəsində Azərbaycan keçmiş Sovet respublikaları arasında siyasi və iqtisadi baxımdan inkişaf modelinə çevrilmişdir.

**Terri Adams,**
ABƏŞ-ın sabiq prezidenti

Heydər Əliyev bizə – rus alimlərinə tamamilə yeni bir münasibət göstərdi; ərəb-islam sivilizasiyası ilə yanaşı, Azərbaycan islam sivilizasiyası haqqında da danışdı.

Heydər Əliyevin islam sivilizasiyası haqqında fikirləri islamşünaslıq üçün çox vacibdir.

**Leonid Medvedko,**
Rusiya Elmlər Akademiyası Afrika İnstitutunun
elmi əməkdaşı, professor

***

Qafqaz və Cənubi Qafqaz elə bir qovşaqdır ki, burada Qərbin və Şərqin, Şimalın və Cənubun maraqları kəsişir. Buna görə də Heydər Əliyevin yeritdiyi siyasət beynəlxalq siyasi vəziyyətə təsir göstərir.

**Maryam Lordkipanidze,**
Gürcüstan EA-nın akademiki

***

Müstəqil dövlət qurmaq hər kəsə nəsib olmur. Bu işdə uğur qazanmaq isə hər siyasətçinin işi deyil.

Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O, həqiqətən yeni Azərbaycan dövlətinin qurucusudur.

**Tim Edqar,**
Böyük Britaniyanın energetika naziri

Heydər Əliyev çox qətiyyətli və ədalətli insan idi. Onun rəhbərliyi ilə işləyən və ya müxtəlif məsələlərlə bağlı onunla ünsiyyətdə olan əməkdaşlara böyük hörmətlə yanaşardı. Bu əməkdaşlar arasında ondan cavanları da var idi. Lakin Heydər Əliyev hamıya Siz deyə müraciət edərdi.

**Vladimir Uxov,**
Keçmiş SSRİ Nazirlər Soveti katibliyi
müdirinin müavini

***

Şəxsən mən Heydər Əliyevi təkcə görkəmli siyasətçi deyil, həm də böyük hərbi strateq hesab edirəm.

Heydər Əliyev vəfat etmədi, öz xalqının səadəti və öz müstəqil ölkəsinin tərəqqisi naminə qəhrəmancasına həlak oldu.

**Boris Voroviç,**
Ukrayna Milli Müdafiə Akademiyası,
general-mayor

***

Heydər Əliyev təkcə Azərbaycanın Prezidenti deyil, bütün bölgənin dayağıdır, XX əsrdən XXI əsrə keçən bir xəzinədir.

**Akkan Suver,**
Türkiyənin Mərmərə qrupu Strateji və Sosial
Araşdırmalar Vəqfinin sədri

Dünya dövlətlərinin Azərbaycana marağı bu ölkəyə Heydər Əliyev kimi müdrik şəxsiyyətin rəhbərlik etməsi ilə bilavasitə bağlıdır.

**Usamiçe Masataki,**
Yaponiyanın "Nisso İvai" şirkətinin
prezidenti

***

Azərbaycanda qazanılmış uğurlarda Prezident Heydər Əliyevin yüksək beynəlxalq nüfuzunun xüsusi rolu vardır.

**Yasuda Xiroşi,**
Yaponiya İxrac-İdxal Bankının prezidenti

***

Heydər Əliyev böyük məktəbdir, belə şəxsiyyətlər tarixdə nadir hallarda yetişir.

**Qulamrza  Səbri Təbrizi,**
Böyük Britaniyanın Edinburq
Universitetinin professoru

***

Heydər Əliyeviç şəxsən mənim həyatımda da mühüm rol oynamışdır.

**Aleksandr Kovtunov,**
General-polkovnik, RF Təhlükəsizlik və Hüquq
Qaydası Akademiyasının üzvü

Heydər Əliyeviç həyatı boyu çox işlər görmüşdür. Onun başlıca hünəri isə doğma respublikasına, Azərbaycan xalqına xidmət etməsidir.

**Andrey Loqinov,**
Rusiya Dövlət Dumasında hökumətin keçmiş səlahiyyətli nümayəndəsi

***

Azərbaycanın bəxti gətirib ki, ona Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik etmişdir.

**Jan Roren,**
Fransa–Azərbaycan Ticarət Palatası sədrinin birinci müavini

***

Heydər Əliyev həyatı və fəaliyyətinin araşdırılması zəruri olan böyük və dünya miqyaslı liderdir.

**Əli Bayram,**
Türkiyənin Fateh Universiteti İdarə Heyətinin üzvü, Qafqaz Universiteti Rəyasət Heyətinin sədri

***

ABŞ-da yaxşı bilirlər ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq üçün hər cür müqavimətlərə mərdliklə sinə gərir.

**Söhrab Rob Sübhani,**
ABŞ-ın “Kaspian enerji konsaltinq” Şirkətinin prezidenti

Prezident Heydər Əliyev barədə danışarkən, ən əvvəl onun Azərbaycan üçün rolu haqqında düşünürəm.

**Frenk Verrastro,**
Vaşinqton Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin Xəzər enerjisi proqramının direktoru

***

Çox gərgin bir regionda yerləşən ölkənin prezidenti olan Heydər Əliyev ABŞ-ın yaxın dostudur.

**Robert Zoelt,**
Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin prezidenti

***

Heydər Əliyev hakimiyyətə gəlməklə, Azərbaycanın bütövlüyünü qoruyub saxlamışdır.

**Gi Şevalye,**
Fransanın Bakıdakı səfirliyinin keçmiş əməkdaşı

***

Heydər Əliyev çox vaxt silahsız, ancaq öz zəkasının gücü ilə, köməyi ilə mübarizə aparmalı olmuşdur.

Tanrının son dərəcə güclü ruh bəxş etdiyi Heydər Əliyev dərin daxili ləyaqətə, özünə hörmət qazandırmaq bacarığına, habelə sarsılmaz iradəyə malikdir və öz xalqına sıx bağlıdır.

**Aleksandr Adler,**
"Kuryer internosional" jurnalının (Fransa) baş redaktoru

Mən dünya şöhrətli bir dövlət xadimi Heydər Əliyevlə görüşümdən çox məmnunam. Onun çox dərin zəkaya malik olduğunu bir daha aydın hiss etdim.

**Uilyam Kohen,**
ABŞ-ın sabiq müdafiə naziri

***

Biz Heydər Əliyevin liderliyinə çox güvənirik. Onun liderliyi nəticəsində Azərbaycandakı sürətli iqtisadi inkişaf dünyanı heyran edir.

**Ceyms Vulfenson,**
Dünya Bankının sabiq prezidenti

***

Heydər Əliyev Makiavellinin traktatlarına canlı nümunə təsiri bağışlayır.

**Aleksandr Budberq,**
"Moskovski komsomolets" qəzeti,

***

Heydər Əliyev 30 ildir Azərbaycanın taleyində həlledici rol oynayır.

"Çikaqo Tribun" qəzeti

***

Nəsildə böyüklərin dəstək və təcrübəsi gənc ailəyə nə qədər lazımdırsa, Heydər Əliyevin də siyasi təcrübəsi və müdrikliyi gənc müstəqil Azərbaycana bir o qədər gərəkdir.

**İqor Savin,**
"Rossiya" qəzeti

***

Heydər Əliyevin xalqa, insanlara, ana torpağa olan məhəbbətinin ən ali göstəricisini onun öz ailəsinə, ailənin hər bir üzvünə və eləcə də, nəvə Heydərə olan məhəbbətində, sədaqətində və sevgisində görmək olurdu.

Heydər Əliyevin bütün həyatı, fəaliyyəti onu əhatə edən insanlarla ana torpağın qarşılıqlı əlaqəsi və vəhdəti çərçivəsində baş vermişdir.

**Budaq Budaqov,**
akademik

***

Müstəqilliyin ilk illərində ölkədə sabitlik yaranmasında cənab Heydər Əliyevin rolu yaxşı məlumdur. Onun güclü liderliyi sayəsində Azərbaycan dünya dövlətləri arasında öz mövqeyini təsdiq edə bildi.

**Yan Lemyer,**
Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti

***

Tarix Heydər Əliyev xəttinin düzgünlüyünü, onun bütün düyünlərini aça bilən dərin siyasi zəkasını bir daha sübuta yetirdi.

Müharibədən sonra Almaniyanı xarabalıqlardan çıxarmış və dünya dövlətləri sırasında yenidən layiqli yerini tutmasında böyük əmək sərf etmiş kansler Adenauer Almaniyanın tarixində çox böyük yer tutan nadir şəxsiyyətlərdən biridir. Heydər Əliyevi yalnız kansler Adenauerlə müqayisə etmək olar.

**Frenk Lambax,**
Almaniyanın Azərbaycandakı sabiq səfiri

Heydər Əliyev işıqlı, geniş, təhlükəsiz Xalq Evi kimi müstəqil dövlət yaratmağı arzulayırdı. Prezidentliyinin on ili ərzində bunun üçün çox işlər görə bildi.

**Oljas Süleymenov,**
Qazax şairi

***

Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasının, bugünkü inkişafının təməlini qoymaqla bərabər, regionda sülh və sabitliyin qorunması istiqamətində misilsiz xidmət göstərən əvəzolunmaz bir lider idi.

**D.Koidzumi,**
Yaponiyanın sabiq baş naziri

***

Heydər Əliyev böyük siyasətin, böyük diplomatiyanın Füzulisidir.

**Fərəməz Maqsudov,**
akademik

***

Heydər Əliyev haqlı olaraq təkcə Azərbaycana deyil, həm də bütün bəşəriyyətə mənsubdur.

Öz Vətəninə, xalqına xidmət Heydər Əliyev üçün üzvi amaldır, özünün bütün arzu və niyyətlərini, fəaliyyətini və iradəsini həmişə bu amala tabe etmişdir.

**Lyudmila Şvetsova,**
Moskva hökumətində merin birinci müavini

XXI əsrdə də xalqımızın, dövlətçiliyimizin dünya xalqları sırasında ön cərgədə getməsində onun arzu və amalları arxamız, köməyimiz olacaq, bizi zəfərdən-zəfərə, qələbədən-qələbəyə səsləyəcək. Əsrlər əsrlərə, minilliklər minilliklərə qovuşacaq, əbədiyaşar rəhbərimiz də xalqımızla bir olacaq, ona yol göstərəcək, nur ələyəcək, əbədiyaşar qalacaq.

**Teymur Bünyadov,**
akademik

***

Heydər Əliyev xalqımızın çöhrəsini güldürmüş, insanlarımıza güvənc və ümid gətirmişdir.

Heydər Əiyev Azərbaycanın xarici siyasətini qonşu dövlətlərin daxili siyasətinə hörmət və ehtiram prinsipi üzərində qura bilmişdir.

Heydər Əliyev Azərbaycanda demokratiyanın həm ideoloqu, həm təşkilatçısı və həm də icraçısıdır.

**Yəhya Daşdələn,**
professor

***

Qafqaz "barıt çəlləyidir", lakin bu çəllək partlamadı. Bəlkə ona görə ki, burada Heydər Əliyev kimi çox güclü siyasi xadimlər fəaliyyət göstərir.

Heydər Əliyevin fəaliyyəti həm ölkəsi üçün faydalar gətirmişdir, həm də dünya birliyi üçün çox əhəmiyyətli bir amildir.

Heydər Əliyev Azərbaycanda və Qafqaz regionunda sabitliyin dayağıdır.

**Ernst Müleman,**
Avropa Şurası Parlament Assambleyasının
keçmiş müavini

Bakı ilə Pekin arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin xüsusi xidmətləri var.

**Çyan Şiyun,**
Çin Xalq Respublikasının Azərbaycandakı səfiri

***

Heydər Əliyevin fəaliyyəti əvvəldən axıra xalqa, doğma milləti olan azərbaycanlılara xidmət etdiyindən, Azərbaycan xalqının, Azərbaycan dövlətinin tərəqqisinə, inkişafına xidmət etməkdən ibarət olmuşdur. O, tarixi şəxsiyyət olması ilə yanaşı, həm də böyük, qüdrətli şəxsiyyətdir.

**Fuad Qasımzadə,**
akademik

***

Heydər Əliyevin dövlət xadimi, müdrikliyi gözəl insani keyfiyyətlərlə, insanlara qayğıkeş münasibətlə vəhdət şəklində birləşmişdir.

**Vitali İqnatenko,**
İTAR-TASS Agentliyinin baş direktoru

***

Heydər Əliyev təkcə Azərbaycanı deyil, bütün postsovet məkanını idarə etməyə qadir heyrətamiz liderdir.

Dünya siyasi liderlərindən, bəlkə də yalnız Heydər Əliyevi Çörçillə müqayisə etmək olar.

**Pavel Borodin,**
Rusiya-Belarus İttifaq dövlətinin dövlət katibi

Heydər Əliyevin mənim ürəyimdə və ailə üzvlərimin ürəyində xüsusi yeri vardır.

**Məhəmməd Xeyir Vadi,**
Suriyanın ÇXR-dəki səfiri

***

Prezident Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda islahatlar müvəffəqiyyətlə həyata keçirilir.

**Vatslav Havel,**
Rumıniya prezidenti

***

Fransanın müharibədən sonrakı dirçəlişini, onun tərəqqisini Şarl de Qollun adı ilə bağlayırlar, Azərbaycanda da Heydər Əliyevi millətin xilaskarı adlandıranlar heç də səhv etmirlər.

Azərbaycanı Fransaya sözün əsl mənasında Heydər Əliyev tanıtdı.

**Yan Perrən,**
Fransanın Azərbaycandakı ilk səfiri

***

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının Beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlıdır.

**Georgi Pirvanov,**
Bolqarıstan Respublikasının sabiq prezidenti

Heydər Əliyevi Qırğızıstanda yaxşı tanıyır və sevirlər, "Manas"ın minilliyi münasibətilə keçirilən şənliklərdə onun söylədiyi nitqi yaxşı xatırlayırlar. Xalqımız Heydər Əliyevi səmimi sevinclə qarşıladı və bununla da, Azərbaycanın birinci rəhbəri kimi və keçmiş Sovet İttifaqının müsəlman lideri kimi ona xalqımızın bəslədiyi münasibəti ifadə etdi. Deməliyəm ki, o illərdə də Heydər Əliyev Qırğızıstanın bir sıra iqtisadi problemlərinin həllinə kömək edirdi. Mən bunu deməyi özümə borc bilirəm.

Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi zəngin təcrübəyə malik siyasətçi, rəhbər, müdrik insan belə çətin bir dövrdə yenidən Azərbaycana rəhbərlik etməyə başladı. Biz görürük ki, onun iqtisadi islahatlar siyasəti və ölkənin daxilində vəziyyətin sabitləşməsinə yönəldilmiş siyasəti öz bəhrəsini verməkdədir.

Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi sayəsində Azərbaycan dünya birliyində layiqli yer tutmuşdur.

Azərbaycan xalqının mənəvi dirçəlişi, respublikanın iqtisadiyyatının və bütün həyat fəaliyyətinin yeniləşməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Onun müdrikliyi, siyasi iradəsi sayəsində Azərbaycan dünya dövlətləri birliyində layiqli yer tutmuşdur.

**Əsgər Akayev,**
Qırğızıstanın sabiq prezidenti

Heydər Əliyev ağıllı, möhkəm iradəli və ehtiyatlı olan görkəmli siyasətçidir.

**Mixail Qorbaçov,**
Keçmiş SSRİ-nin ilk və son prezidenti

***

Keçmiş Sovet İttifaqının, indiki Rusiya və Azərbaycanın təhsil sisteminə Heydər Əliyevin böyük, müsbət təsiri olmuşdur.

**Vladimir Kinilyov,**
Rusiyanın ümumi təhsil və peşə təhsili naziri

***

O, Mərkəzi Komitə üzvlərinin əksəriyyətinə xas olan tərbiyəsizlik, həyasızlıq, yüngülxasiyyətlilik kimi, keyfiyyətlərdən uzaq idi... Öz-özümə düşündüm: "Sovet İttifaqını idarə etmək üçün məhz belə cavan və enerjili rəhbər gərəkdir". Bu keyfiyyətlər Heydər Əliyevdə var.

**Andrey Qromıko,**
Keçmiş SSRİ xarici işlər naziri

***

Dövlətə rəhbərlikdə Sizin yorulmaz əməyiniz sayəsində Azərbaycan böyük uğurlar qazanmışdır. O, Müstəqil Dövlətlər Birliyinin tanınmış üzvüdür. Sizin prezidentliyiniz dövründə Azərbaycanın iqtisadi və siyasi əhəmiyyəti xeyli artmışdır.

**Roman Hersoq,**
AFR-in sabiq prezidenti

Zəmanəmizin görkəmli oğlu, Azərbaycan xalqının və dövlətinin güclü öndəri, böyük dövlət adamı, fenomen şəxsiyyət Heydər Əliyev yenicə ayağa qalxan Azərbaycan Respublikasının sabitlik və tərəqqiyə qovuşmasında böyük rol oynamış, gözəl Azərbaycan xalqının rifahı naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur.

Cənab Heydər Əliyevin regionda sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin genişləndirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir».

Heydər Əliyev yenicə ayağa qalxan Azərbaycan respublikasının sabitlik və tərəqqiyə qovuşmasında təsirli rol oynamış, gözəl Azərbaycan xalqının rifahı, asayişli naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur.

**Seyid Məhəmməd Xatəmi,**
İran İslam Respublikasının sabiq prezidenti

***

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

**Çingiz Aytmatov,**
Qırğız yazıçısı

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**II İohan Pavel,**
sabiq Roma papası

***

Heydər Əliyev mənə ata əvəzi olmuş, həmişə və hər işdə çox böyük mənəvi dəstək göstərmişdir. Bilmirəm, mən niyə onun xoşuna gəlirdim. Axı, xasiyyətim ağırdır. Amma Heydər Əlirza oğlu məni daim fərqləndirir, dost adlandırırdı və hər il öz iqamətgahında ad günümü qeyd edirdi.

Həyatda bəxtim gətirmişdir, çünki Azərbaycan Prezidentini yaxından tanıyırdım. O, dünya miqyaslı siyasətçi olsa da, şən, xoştəbiət, səmimi insan olaraq qalırdı.

Bir dəfə hədiyyə verdiyim portretində onu məhz belə təsvir etməyə çalışmışam. Deyəsən, əsərim xoşuna gəldi, söz verdi ki, bu rəsmi öz muzeyindən asacaqdır.

**Müslüm Maqomayev,**
SSRİ xalq artisti

Rusiyada, Heydər Əliyevi beynəlxalq aləmdə dərin hörmət və şöhrət qazanmış, Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına şəxsən böyük töhfə vermiş, müdrik, nüfuzlu dövlət xadimi kimi tanıyırlar. Şəxsən mənim üçün böyük əhəmiyyəti vardır ki, mən onu Rusiyanın daimi və sadiq dostu, Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsinin əqidəli tərəfdarı kimi, çoxdan və yaxından tanıyıram».

**Boris Yeltsin,**
Rusiya Federasiyasının sabiq prezidenti

# HEYDƏR ƏLİYEV: DÖVLƏT XALQ ÜÇÜNDÜR

**Kitabı nəşrə hazırladı**
Əfrahim Təhməzov
Mahir Əhmədov
Oruc Cəlilov

**Nəşriyyat redaktoru**
Nuridə Həsənova

**Dizayner**
Zaur Qafarzadə

**Kompüter tərtibatçısı**
Rahilə Məmmədova

**Texniki redaktor**
Səməndər Orucəlioğlu

**Kompüter yığıcısı**
Sədaqət Nərimanova

Çapa imzalanmışdır: 15.09.2008
Kağız formatı: 60x90 1/16
Həcmi: 25 ç.v.; Sifariş: 318; Sayı: 1000

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
*Ünvan: Bakı şəh., S.Rəhimov küç., 195/ 17*
*Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az; E-mail: info@ adiloglu.az*

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202*
*Tel.: 433-00-43*